*AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI*
*İQTİSADİYYAT İNSTİTUTU*

# AZƏRBAYCANDA REGİONAL İQTİSADİ İNKİŞAF VƏ DİVERSİFİKASİYA – 2020

**N.Müzəffərli (İmanov)**
**A.Muradov**

Bakı – 2021

AMEA İqtisadiyyat İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunmuşdur

**Nazim Müzəffərli (İmanov), Allahyar Muradov**

**Azərbaycanda regional iqtisadi inkişaf və diversifikasiya – 2020: iqtisadi rayonların, respublika tabeli şəhərlərin və inzibati rayonların reytinqi**

**İstinad üçün:**

**Nazim Müzəffərli (İmanov), Allahyar Muradov (2020). Azərbaycanda regional iqtisadi inkişaf və diversifikasiya – 2020: iqtisadi rayonların, respublika tabeli şəhərlərin və inzibati rayonların reytinqi. Bakı, 2021, 108 s**

**N. Müzəffərli (İmanov), A.Muradov (2020). Azərbaycanda regional iqtisadi inkişaf və diversifikasiya – 2020: iqtisadi rayonların, respublika tabeli şəhərlərin və inzibati rayonların reytinqi. Bakı, 2021, 108 s.**

İSBN - 9 7 8 - 9 9 5 2 - 5 4 9 - 0 0 - 3

Bu tədqiqat Azərbaycanın iqtisadi rayonlarında, respublika tabeli şəhərlərində və inzibati rayonlarında iqtisadi inkişaf və diversifikasiya səviyyəsini qiymətləndirmək məqsədi ilə AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir. Qiymətləndirmə müəlliflərin işləyib hazırladıqları Regional iqtisadi inkişaf və diversifikasiya indeksi əsasında aparılmışdır.

Bu tipli müqayisəli araşdırmalar ciddi praktik əhəmiyyətə malikdir. Onların nəticələri ölkə regionlarının sosial-iqtisadi inkişafı məsələləri üzrə praktik idarəetmə qərarlarının hazırlanması zamanı, o cümlədən ayrı-ayrı bölgələrdə iqtisadiyyatın üstün templərlə inkişafı dəstəklənərkən, sosial-iqtisadi inkişaf proqramlar tərtib edilərkən, müxtəlif rayonların inkişafına əlavə dövlət vəsaitləri ayrılarkən faydalı ola bilər.

Tədqiqat Azərbaycanın bölgələri üzrə aparılsa da, təklif edilən yanaşma, prinsip etibarilə, universal səciyyəlidir və digər ölkələrdə də regionlararası qiymətləndirmələr aparılmasına imkan verir.

© AMEA İqtisadiyyat İnstitutu, 2021
© Nazim Müzəffərli (İmanov), 2021
© Allahyar Muradov, 2021

# İçindəkilər

**Ön söz** 5

**İqtisadi inkişaf və diversifikasiya səviyyəsinin müqayisəli təhlili üzrə müasir tədqiqatlar haqqında** 10

**Regional tarazlaşdırma və diversifikasiya siyasəti: beynəlxalq təcrübə və Azərbaycan** 17

**Metodologiya** 28

*Araşdırılan ərazilər haqqında* 28

*İqtisadi inkişafın statik səviyyəsi (İİSS) sub-indeksi* 30

*Sahəvi diversifikasiya (SD) sub-indeksi* 34

*Çəkilərin müəyyən olunması* 37

**İqtisadiyyatın ərazi strukturu: sadə statistik təhlil** 39

*Bakı və digər bölgələr* 39

*İqtisadi rayonlar* 41

**Nəticələrin təhlili: İqtisadi inkişafın statik səviyyəsi sub-indeksi** 43

*İİSS sub-indeksi – iqtisadi rayonlar* 43

*İİSS sub-indeksi – respublika tabeli şəhərlər* 48

*İİSS sub-indeksi – inzibati rayonlar* 50

**Nəticələrin təhlili: Sahəvi diversifikasiya sub-indeksi** *58*

*SD sub-indeksi – iqtisadi rayonlar* *59*

*SD sub-indeksi – respublika tabeli şəhərlər* *62*

*SD sub-indeksi – inzibati rayonlar* *64*

**Nəticələrin təhlili: Regional iqtisadi inkişaf və diversifikasiya indeksi** *73*

*RİİDİ – iqtisadi rayonlar* *75*

*RİİDİ – respublika tabeli şəhərlər* *76*

*RİİDİ – inzibati rayonlar* *77*

**Yekun mülahizələr** *84*

## ƏLAVƏLƏR

*Əlavə 1. Ekspert sorğusunun iştirakçıları* *91*

*Əlavə 2. İqtisadi rayonlarda ÜMB-nin dinamikası* *92*

*Əlavə 3. İİSS sub-indeksi və onun alt-indeksləri* *97*

*Əlavə 4. İdeal paylanmadan kənarlaşmalar* *100*

*Əlavə 5. İqtisadiyyatın əsas sahələrinin xüsusi çəki dəyişmələri* *103*

*Əlavə 6. Əsas kapitala investisiyalar* *105*

*Əlavə 7. İqtisadi və inzibati rayonlara Dövlət büdcəsindən dotasiyalar* *107*

# ÖN SÖZ

Bütün ölkələr öz bölgələrinin sosial-iqtisadi inkişafı arasında tarazlığa nail olmağa çalışır. Bunun, əlbəttə, ciddi səbəbləri var. Ərazilər arasında iqtisadi disproporsiyalar bir sıra fəsadlara yol açır, əhalinin həm ölkə daxilində, həm də xaricə miqrasiyasına səbəb olur və bəzən, xüsusilə çoxmillətli və çoxkonfessiyalı ölkələrdə, hətta ictimai narazılıqlara da gətirib çıxarır.

İqtisadiyyatın ölkə ərazisi üzrə ahəngdar paylanmasına nail olmaqdan ötrü tələb olunan ilk iş – ölkənin regionlarında iqtisadi inkişafın müqayisəli şəkildə qiymətləndirilməsidir. İqtisadi inkişaf iki baxış bucağı altında – prosesin necə getməsi (dinamikası) və konkret zaman kəsiyindəki səviyyəsi nöqteyi-nəzərindən qiymətləndirilə bilər. Birinci qiymətləndirmə artım və dəyişiklikləri səciyyələndirən göstəricilər, ikinci isə əldə olunmuş nəticələr əsasında aparılmalıdır. Regionlararası müqayisələr üçün bunların hər ikisi vacibdir.

Bu araşdırmada Azərbaycanın bölgələri yalnız statik yanaşma üzrə, yəni iqtisadiyyatın faktik durumunu ifadə edən göstəricilər əsasında müqayisə edilir. Bu halda nə iqtisadi inkişafın sürəti (məsələn, iqtisadi artım tempi), nə də iqtisadi inkişafı şərtləndirən amillər (məsələn, əsas kapitala investisiyalar) nəzərə alınmamalıdır. Əsas kapitala investisiyalar kimi göstəricilər iqtisadi inkişafın əldə olunmuş cari səviyyəsini səciyyələndirməkdən ziyadə, gələcək “siması” haqqında mülahizə yürütməyə imkan verir.

İqtisadi inkişaf səviyyəsi üzrə müqayisələr baxımından, qiymətləndirilən ərazilərin statusu da əhəmiyyətlidir. Ölkələrin və ya dünya regionlarının iqtisadi inkişaf sə-

viyyəsini müqayisə etməkdən ötrü istifadə olunan metodları və göstəricilər sistemini eyni bir ölkə daxilində ayrı-ayrı bölgələrin iqtisadi inkişaf səviyyəsini qiymətləndirmək üçün tətbiq etmək, təbii ki, yanlışdır. Müasir iqtisadi araşdırmalarda ölkələrarası müqayisələr daha "populyardır" və hesab etmək olar ki, bu sahədə artıq oturuşmuş metodoloji yanaşmalar mövcuddur. Ölkədaxili müqayisələr nisbətən az aparıldığı üçün burada bir çox üsul və göstəriciləri "sıfırdan" yaratmaq lazım gəlir. Bu cür müqayisələr üçün ilk yanaşmalardan birini təklif etmək, şübhəsiz ki, qürurvericidir.

Bu tədqiqatdakı yeniliklərdən biri də odur ki, ölkənin (Azərbaycanın) bölgələri həm də iqtisadiyyatın diversifikasiya səviyyəsinə görə müqayisə olunur. Mütəxəssislər iqtisadi diversifikasiya haqqında adətən ölkələr miqyasında mülahizə yürüdürlər.* Bu təbiidir, çünki hər hansı bir ölkədə (xüsusilə nisbətən kiçik ölkədə) ayrı-ayrı bölgələrin bu və ya digər konkret məhsul və xidmətlərin istehsalı sahəsində ixtisaslaşması tamamilə normaldır, yetər ki, bütövlükdə iqtisadiyyat bəlli bir səviyyədə sahəvi şaxələnməyə malik olsun.

Lakin iqtisadiyyatın diversifikasiyası təkcə ölkələr üçün yox, onların bölgələri üçün də aktualdır. Bütün bölgələri sabatlı ("sığortalı") inkişaf edən dövlətin bir tam kimi götürülən iqtisadiyyatı da, təbii ki, sabatlı və xarici təsirlərə qarşı dayanıqlı, sosial baxımdan daha təhlükəsiz olacaqdır. Ona görə də təkcə milli hökumətlər deyil, yerli hakimiyyət orqanları da öz bölgələrində iqtisadiyyatın şaxələndirilməsinə çalışırlar. Ümumən ölkə üzrə olduğu kimi, ölkə regionlarında da məhsul və xidmətlərin əsas sektorlar arasında necə paylanmasını öyrənmək iqtisadi inkişafın sabatlığını və dayanıqlığını qiymətləndirmək baxımından olduqca əhəmiyyətlidir.

*     *     *

Mühakimənizə verdiyimiz kitab Azərbaycanın iqtisadi rayonlarında, respublika tabeli şəhərlərində və inzibati rayonlarında iqtisadi inkişaf və diversifikasiya səviyyəsi-

---

* Diversifikasiya – yeni latın dilindəki *diversificatio* (dəyişiklik, rəngarənglik) sözündəndir. İctimai həyatın müxtəlif sahələrinə tətbiqən işlədilir (məsələn, mədəni diversifikasiya kimi). İqtisadi diversifikasiya (və ya istehsalın diversifikasiyası) dedikdə, adətən, istehsal olunan məhsul və xidmət çeşidlərinin artırılmasını, o cümlədən yenilərinin istehsalını, ixrac (bəzən həm də idxal) coğrafiyasının genişləndirilməsini, sərmayə yatırımlarının daha çox sahə arasında paylanmasını nəzərdə tuturlar.

ni müqayisəli şəkildə qiymətləndirmək məqsədi ilə AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmiş kompleks tədqiqatın nəticələrini əks etdirir. Qiymətləndirmələr müəlliflərin hazırlayıb təklif etdiyi kompozit göstərici – *Regional İqtisadi İnkişaf və Diversifikasiya İndeksi (RİİDİ)* əsasında aparılmışdır. Azərbaycanın şəhər və rayonları bu İndeksə görə sıralanmışdır.

Ümid edirik ki, araşdırmanın nəticələri ölkəmizin iqtisadçı ekspertləri tərəfindən maraqla qarşılanacaq və yeni elmi müzakirələrə mövzu verəcəkdir. Səsləndiriləcək bütün fikirləri, tənqidi qeydləri, təklif və tövsiyələri minnətdarlıqla qəbul edəcəyik. Alınmış nəticələr dövlət idarəetmə orqanları üçün hansısa bir dərəcədə faydalı olsa, bundan, əlbəttə, yalnız qürur duyardıq.

* * *

AMEA İqtisadiyyat İnstitutu beynəlxalq müqayisəli araşdırmalar sahəsində artıq müəyyən təcrübəyə malikdir. Son 20 ildə İnstitutun mütəxəssisləri tərəfindən nəşr edilmiş bir sıra əsərlərdə ölkələrarası müqayisəli təhlillər də yer almışdır.[1]

---

[1] T.Paşa. Dünyanın aparıcı ölkələrində vergi islahatları və onların nəticələri. – Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meyilləri (məqalələr toplusu), VIII buraxılış, AMEA İqtisadiyyat İnstitutu, Bakı, 2000; Ş.Muradov. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. – Bakı, 2004; Н.Музаффарли. Рейтинг Азербайджана в международных сравнительных исследованиях. – Баку, 2006; T.Hüseynov. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. – Bakı, 2015; A.Mustafayev. İKT bazarının formalaşması və inkişafı istiqamətləri (beynəlxalq meyillər). – AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2016, № 5; A.Musayev, A.Musayeva. A Study on the Impact of Underground Economy on Integral Tax Burden in the Proportional Growth Model under Uncertainty. – Advances in Fuzzy Systems, 2018; Г.Юзбашиева. Сравнение структур промышленности стран СНГ, проходящие пост-нефтяной период развития. – Материалы межд. конф. «Стратегические реформы: перспективы устойчивого экономического развития», Баку, 2018; R.Abdullayeva. Government Regulation of the Pension Systems: Cross-Country Comparative Analysis. – in: Azerbaijani and Chinese Economies: Comparative Research, Beijing, China, 2018; T.Əliyev. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. – Bakı, 2019; Л.Аллахвердиева. Индекс либеральности (дирижизма) сферы информационных услуг. – Фундаментальные исследования Академии Естествознания, Москва, 2019, № 8; R.Efendiyev. Gender and employment in Central and West Asian (CWA) countries. – Good Jobs for Inclusive Growth in Central Asia and the South Caucasus, ADB, Manila, 2019 və s.

2014-cü ildən etibarən AMEA İqtisadiyyat İnstitutu ***"İqtisadiyyatın solluğu (sağlığı) indeksi – İS(S)İ"*** adlandırdığı kompozit indeks hesablayır. Bu indeks dövlətin iqtisadiyyata modelyaradıcı müdaxilələrinin ölçülməsi əsasında iqtisadiyyatın liberallıq-dirijistlik səviyyəsini qiymətləndirməyə, təhlil edilən 95 ölkə iqtisadiyyatını bu meyar üzrə təsnifləşdirməyə və iqtisadi islahatların strateji istiqamətlərinə dair fikir yürütməyə imkan verir. Tədqiqatın nəticələri İnstitutun rəsmi İnternet saytında açıq istifadədədir.[2] İnstitutun əməkdaşları İS(S)İ və onun sahəvi tətbiqləri haqqında Azərbaycanın və xarici ölkələrin nüfuzlu elmi məcmuələrində bir sıra əsərlər nəşr etdirmişlər.[3]

Hazırda İnstitut ***"Azərbaycanın sosial-iqtisadi inkişafı və beynəlxalq müqayisəli reytinqlərdə mövqeyinin yaxşılaşdırılması istiqamətləri"*** mövzusunda kompleks tədqiqat işi yerinə yetirir. Bu üçillik (2019-2021) tədqiqatın nəticəsi olaraq, beynəlxalq səviyyədə tanınan 25 sosial-iqtisadi reytinq araşdırmasında ölkənin mövqeyinin möhkəmləndirilməsi üzrə dövlət qurumları üçün praktik tövsiyələrin hazırlanması planlaşdırılır.

2018-ci ildən başlayaraq, İnstitut, ölkələrarası müqayisəli təhlillərlə yanaşı, regionlararası müqayisəli qiymətləndirmələr üzrə də araşdırmalar aparır. Bu silsilədən olan ilk tədqiqat Azərbaycanın iqtisadi rayonlarının, həmin rayonlara daxil olan 61 respublika tabeli şəhərin və inzibati rayonun həyat keyfiyyəti üzrə reytinqidir.[4] Azər-

---

[2] http://economics.com.az.

[3] N.Müzəffərli. İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə. – Bakı, 2014 (azərb. və rus dillərində); İS(S)İ – 2015: İqtisadiyyatın liberallıq potensialı (N.Müzəffərlinin elmi redaktəsi ilə). – Bakı, 2017 (azərb., ingilis və rus dillərində); İS(S)İ – 2016: İqtisadiyyatın liberallıq-dirijistlik səviyyəsi (N.Müzəffərlinin elmi redaktəsi ilə). – Bakı, 2018 (azərb., ingilis və rus dillərində); İS(S)İ – 2017: Dünya ölkələrinin iqtisadi modellər üzrə təsnifatı (N.Müzəffərlinin elmi redaktəsi ilə). – Bakı, 2019 (azərb., ingilis və rus dillərində); M.Gülalıyev. Xarici iqtisadi fəaliyyət: tənzimləmə ilə liberallığın tarazlığı. – Bakı, 2018; Y.Məmmədov. İqtisadyyatın sosialyönlüyünə sağçı və solçu baxışlarla bağlı müasir araşdırma və nəticələr // AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2015, № 3; Muzaffarli N., Ahmadov B. Effect of the Model-shaping Forms of Government Intervention in the Economy on the Economic growth // China Finance and Economic Review, 2018, Volume 7, № 1; Gulaliyev M., Abasova S., Mehdiyeva İ., Sultanova N. Model shaping Forms Of State Intervention in The Economy And Economic Model Of The Country // Int. J. Manag. Bus. Res., 8 (1), June 2018 və s.

[4] N.Müzəffərli (İmanov), P.Həsənov, B.Əhmədov. Azərbaycanda həyat keyfiyyəti – 2018: iqtisadi rayonların, respublika tabeli şəhərlərin və inzibati rayonların reytinqi. – Bakı, 2019 [economics.com.az].

baycan bölgələrinin müqayisəli təhlilinə əsaslanan tədqiqatlar başqa problemlər üzrə də aparılır.

* * *

Araşdırma rəsmi statistik məlumatlar əsasında aparılmışdır. Açıq istifadədə olmayan bəzi göstəricilər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən təqdim olunmuşdur. Buna görə ARDSK-nın Sədr müavini cənab Y.Yusifova və zəhməti keçmiş əməkdaşlarına minnətdarıq. ARDSK ilə işbirliyimizin gələcəkdə də uğurla davam edəcəyinə çox ümidliyik. Göstəricilər ortaq ölçüyə gətirilərkən onlara çəki verilməsi məqsədi ilə keçirdiyimiz ekspert sorğusunda müxtəlif elm və təhsil müəssisələrini təmsil edən 24 iqtisadçı həmkarımız iştirak etmişdir *(Əlavə 1)*. Onların hər birinə təşəkkürümüz var. Və nəhayət, AMEA İqtisadiyyat İnstitutunda birlikdə çalışdığımız, tədqiqat metodologiyasının və nəticələrinin ilkin müzakirələrində iştirak etmiş bütün həmkarlarımıza təşəkkürümüzü bildiririk.

# İQTİSADİ İNKİŞAF VƏ DİVERSİFİKASİYA SƏVİYYƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ ÜZRƏ MÜASİR TƏDQİQATLAR HAQQINDA

Dünya ölkələrində və regionlarında iqtisadi inkişaf səviyyəsinin müqayisəli təhlili üzrə hazırda bir sıra nüfuzlu beynəlxalq araşdırma mərkəzləri və ayrı-ayrı tanınmış alimlər genişspektrli tədqiqatlar aparırlar. Bu tipli tədqiqatların nəticələri, bir qayda olaraq, ölkə sıralamaları (reytinqlər) şəklində təqdim olunur. Müxtəlif qurumlar iqtisadi inkişafı fərqli baxış bucaqları altında və təbii ki, fərqli metodoloji yanaşmalar əsasında təhlil edirlər.

Ən populyar (çox istinad edilən) araşdırmalara Ümumdünya iqtisadi forumunun *(World Economic Forum – WEF)* "Qlobal rəqabət hesabatı" (*The Global Competitiveness Report),*[5] Dünya Bankının *(World Bank)* "Biznes mühiti" *(Doing Business)* hesabatı,[6] İrs *(Heritage)* Fondunun "İqtisadi Azadlıq İndeksi" *(Index of Eco-*

[5] The Global Competitiveness Report – 2020; available at: http://www3.weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2020.pdf [accessed on May 22, 2021].

[6] Doing Business – 2020: Comparing Business Regulations in 190 Economies; available at: https://openknowledge.worldbank.org/bitstream/handle/10986/32436/9781464814402.pdf [accessed on May 22, 2021].

*nomic Freedom),*[7] BMT İnkişaf proqramının *(UN Development Programme)* "İnsan inkişafı hesabatı" *(Human Development Report),*[8] Ümumdünya intellektual mülkiyyət təşkilatının *(World Intellectual Property Organization)* "Qlobal İnnovasiya İndeksi" *(Global Innovation Index)*[9] və bir sıra başqa tədqiqatlar aid edilə bilər.

Bu qəbil ölkələrarası müqayisəli araşdırmalar, əsas etibarilə, iqtisadi inkişafın səviyyəsini deyil, onu şərtləndirən (yaxud ona töhfə verən) amilləri qiymətləndirir. İstər iqtisadiyyatın fiziki infrastruktunun təkmilliyi (elektrik enerjisi, qaz, içməli su ilə təminat, hava, dəniz, avtomobil və dəmir yolları şəbəkəsi və s.), istər biznes mühitinin əlverişliliyi (vergi yükünün yüngüllüyü, lisenziyalaşdırmanın asanlığı, kreditlərin əlçatarlığı və s.), istər xarici ticarət rejiminin liberallığı (idxal rüsumlarının azlığı, qeyri-tarif baryerlərinin "yumşaqlığı" və s.), istərsə də iqtisadi fəaliyyətə mənfi təsir göstərən qeyri-formal maneələr (korrupsiya, qeyri-rəsmi inhisarçılıq, ədalətsiz rəqabət və s.) iqtisadi inkişaf səviyyəsini *bilavasitə* səciyyələndirmir. Bu sıralardan olan pozitiv amillərin mövcudluğu, neqativ amillərin isə, əksinə, yoxluğu uğurlu iqtisadi inkişaf üçün zəruri şərtlərə aid edilə bilər. Lakin onlar *son nəticənin – ölkələrin nail olduğu iqtisadi inkişaf səviyyəsinin* göstəriciləri deyil.

Məlumdur ki, normal halda iqtisadiyyatın və onun inkişafının məqsədi ictimai rifahın yüksəldilməsidir. Bir sıra iqtisadçılar bunu əsas götürərək, iqtisadi inkişaf səviyyəsini onun son nəticəsi ilə, yəni rifah göstəriciləri ilə ifadə edirlər. İctimai rifahın ən sadə və ümumi göstəricisi məcmu gəlirlərdir, yəni fərdi gəlirlərin cəmidir, amma bu göstərici (sosial rifah funksiyası) gəlirlərin necə bölünməsini, o cümlədən maliyyə-büdcə alətləri ilə yenidən bölünməsini nəzərə almır. Ona görə də iqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsi üzrə hesablamalara bəzi mütəxəssislər, adambaşına gəlirlə yanaşı, gəlirlərin paylanmasını səciyyələndirən göstəriciləri də daxil edirlər.[10]

---

[7] 2021 İndex of Economic Freedom; available at: https://www.heritage.org/index [accessed on May 22, 2021].
[8] Human Development Report – 2020; available at: http://report.hdr.undp.org [accessed on May 22, 2021].
[9] Global Innovation Index – 2020; available at: https://www.globalinnovationindex.org/Home [accessed on May 22, 2021].
[10] Montenegro, A. (2004). An Economic Development Index; available at: https://econwpa.ub.uni-muenchen.de/econ-wp/dev/papers/0404/0404010.pdf [accessed on May 22, 2021].

Bu yanaşmanın ifrat ifadəsi ictimai tərəqqini səciyyələndirən göstəricilərin hamısını iqtisadi inkişaf göstəriciləri "elan etməkdir". Əlbəttə, cəmiyyətdə baş verən bütün proseslər iqtisadi inkişafla bu və ya digər dərəcədə əlaqəlidir. Amma bu, ictimai həyatı təsvir edən hər bir göstəricini (göstəricilər toplusunu) iqtisadi inkişaf göstəricisi kimi təfsir etməyə yetərlimi əsasdır? Tutalım, ictimai tərəqqinin əksəriyyət tərəfindən (hər halda, Qərb ölkələrində) qəbul edilən hədəflərindən biri gender bərabərliyidir. Onu ölçmək üçün Gender inkişafı indeksi hesablanır.[11] Bəlkə də bu indeksi insan inkişafının, sonuncunu isə iqtisadi inkişafın göstəricisi hesab etmək olar, amma o, iqtisadi inkişafın, ən yaxşı halda, yalnız dolayı (bilvasitə) göstəricisi sayıla bilər.

Təbiidir ki, iqtisadi inkişaf səviyyəsinin bu cür dolayı ölçmələri çoxsaylıdır. Məsələn, son vaxtlar irəli sürülən ideyalardan biri ondan ibarətdir ki, nəqliyyatın, xüsusilə də dəmiryolu nəqliyyatının səviyyəsi aşağı gəlirli ölkələrdə iqtisadi inkişafın ən mühüm göstəricilərindəndir.[12] Bu və buna bənzər digər yanaşmalar, şübhəsiz ki, məntiqsiz deyil, amma iqtisadi inkişafın *birbaşa və universal* göstəriciləri varsa və əlçatardırsa, onlardan istifadə etmək daha məntiqli sayılmamalıdırmı?!

Əksər iqtisadçıların fikrincə, belə universal göstəricilərin ən mühümü adambaşına ÜDM və ya ÜMM-dir.[13] Bunların hər ikisi qiymətlərdən törəmə göstəricilər olduğu üçün ölkələrarası qiymət fərqlərini sərf-nəzər etməkdən ötrü onları pulun alıcılıq qabiliyyəti paritetini nəzərə almaqla hesablayıb beynəlxalq dollarla ifadə edirlər. Bu göstəricilər Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən də hesablanır və açıq istifadədədir.[14] Dünya ölkələrinin adambaşına ÜDM və ya ÜMM göstəriciləri üzrə reytinqini hazırlamaq sırf texniki bir məsələdir və müvafiq göstəricilərin çoxdan-aza düzülməsini ehtiva edir.

---

[11] BMT İnkişaf proqramının hazırladığı "İnsan inkişafı hesabatı"nın tərkib hissəsidir. Sağlamlıq, təhsil və rifah üzrə eyni göstəricilərin qadınlar və kişilər üzrə ayr-ayrı hesablanıb müqayisə edilməsi üzərində qurulan kompozit indeksdir (*Gender Development İndex; available at:* http://hdr.undp.org/en/ /content/gender-development-index-gdi [accessed on May 22, 2021]).

[12] Bazi, V. & Firzli, M. (2013). Transportation Infrastructure and Country Attractiveness. – Revue Analyse Financière, 2013, No 48; available at: https://www.academia.edu/6494981/Transportation _Infrastructure_and_Country_Attractiveness [accessed on May 22, 2021].

[13] Per capita GDP. – in Investopedia; available at: https://www.investopedia.com/terms/p/per-capita-gdp.asp [accessed on May 22, 2021].

[14] The World Bank Database: GDP per capita, PPP: available at: https://data.worldbank.org/ /indicator/NY.GDP.PCAP.PP.CD [accessed on May 22, 2021].

Lakin nəzərdə tutmaq lazımdır ki, adambaşına ÜDM və ÜMM göstəriciləri iqtisadi inkişafın səviyyəsini iqtisadiyyatın həcmi, miqyası baxımından səciyyələndirir, onun effektivliyini isə birbaşa deyil, yalnız dolayı yolla ifadə edir. İqtisadiyyatın effektivliyini, prinsipcə, iki meyar əsasında qiymətləndirmək mümkündür və bunların hər ikisi həlledici dərəcədə mühümdür. Bunların birincisi iqtisadi inkişafın son məqsədi – ictimai rifahdır. Onun ölçülməsindən ötrü adətən adambaşına gəlir göstəricilərindən istifadə olunur. İkinci meyar isə ictimai əmək məhsuldarlığıdır ki, ÜDM-in məşğul əhali sayına bölünməsi ilə hesablanır. Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun məlumat bazalarında bu göstəricilər də əlyetərdir.

Ölkələrarası müqayisələrdə adambaşına ÜDM, ÜMM və ya ÜMG göstəricilərindən istifadənin zəif cəhəti odur ki, bu göstəricilər əhali sayı ilə, onların dəyişmələri isə əhali artımı-azalması ilə bilavasitə bağlıdır. Lakin iqtisadi inkişafın ölkə regionları üzrə müqayisəli təhlili zamanı bu cür zəifliklər öz aktuallığını, əsas etibarilə, itirir.

Həqiqi iqtisadi inkişafı səciyyələndirən ən vacib xüsusiyyətlərdən biri də, məlum olduğu kimi, onun (bəzən "davamlılıq" kimi təfsir edilən) sabatlığı, daxili və xarici şoklara qarşı dayanıqlığıdır. Əksər iqtisadçılar hesab edirlər ki, sabatlıq və dayanıqlıq baxımından, iqtisadiyyatın diversifikasiyası (sahələrarası şaxələnməsi) həlledici şərtlərdəndir. Bu fikri əsaslandırmaqdan ötrü gətirilən "rəngarəng" arqumentlər arasında ən çox səslənəni odur ki, bir sahənin "hegemonluğu" nə qədər yüksəkdirsə, iqtisadi böhran və işsizlik riski də bir o qədər yuxarıdır və əksinə, diversifikasiya bu riski aşağı salır.

İqtisadiyyatın diversifikasıyası fərqli bucaqlar altında, o cümlədən yerli istehsalın, ixracın (bəzən həm də idxalın), məşğulluğun, investisiyaların sahələr üzrə şaxələnməsi əsasında öyrənilə bilər və öyrənilir. Amma təbii ki, istehsalın diversifikasıyası burada ilkin vəsilədir, çünki bütün yerdə qalanlar məhz ondan asılıdır.

Diversifikasıya problemini mürəkkəbləşdirən odur ki, onun qarşılığı (əksi) olan ixtisaslaşma da "pis bir şey deyil". İqtisadiyyatın hansısa məhsul və xidmətlərin istehsalı (və ixracı) üzrə ixtisaslaşması – xüsusilə nisbətən kiçik ölkələrdə və üstəlik, kiçik ölkənin də bölgələrində – özü-özlüyündə müsbət meyildir. Bəzi hallarda isə, sadəcə, qaçılmazdır. Məsələn, ötən əsrin 90-cı illərində Azərbaycan "diversifikasiya naminə" neft müqavilələrindən imtina edə bilərdimi? Əlbəttə, yox. Hərçənd əvvəldən bəlli idi ki, bu müqavilələrin gerçəkləşdirilməsi nəticəsində ölkənin iqtisadiyyatı, az

qala, birsahəli iqtisadiyyata çevriləcək, neft-qaz istehsalı və ixracından sərt asılılığa düşəcəkdir.

İxtisaslaşma-diversifikasiya dilemmasının bir qütbü iqtisadiyyatın bir və ya cəmi bir neçə (az sayda) sahədən ibarət olmasıdırsa, digər qütbü iqtisadiyyatda bütün sahələrin təmsil olunmasıdır. Aydındır ki, müasir dünyada nə birincinin, nə də ikincinin bərqərar olduğu (hətta ola biləcəyi) ölkə yoxdur. Digər ölkələr bir yana, dünyanın özünəyetər sayıla biləcək dövlətləri belə, bu qütblər arasında optimal saydıqları intervalda mövqe tutmağa çalışırlar. Problemin ən mürəkkəb tərəfi də məhz bu optimallıq intervalının, yəni diversifikasiyanın optimal sayıla biləcək aşağı və yuxarı hədlərinin tapılmasıdır.

Məsələni "qəlizləşdirən" odur ki, iqtisadiyyatın diversifikasıyası bir çox hallarda iqtisadiyyatın optimal sahə strukturu kimi təfsir edilir.* Lakin diversifikasiya ilə optimal sahə strukturu tamamilə fərqli anlayışlardır. İkinci birincinin elə bir səviyyəsini ehtiva edir ki, hansısa meyarlar üzrə ictimai fayda mümkün qədər yüksək olsun, yəni, məsələn, adambaşına ÜDM-in, ÜMG-in və ya məşğulluq səviyyəsinin artması kimi ictimai faydalar maksimuma yaxınlaşsın. Həm nəzəri baxımdan, həm də praktik cəhətdən elə hallar var ki, hansısa ölkədə və hansısa zaman kəsiyində iqtisadiyyatın diversifikasıyası onun sahə strukturunu optimallıq "dəhlizinə" yaxınlaşdırmır, əksinə ondan uzaqlaşdırır.[15] Ümumən, iqtisadiyyatın optimal sahə strukturunu formalaşdırmaq onun sadəcə diversifikasıyasına nail olmağa nisbətən qat-qat daha mürəkkəb vəzifədir.

70 ilə yaxındır ki, iqtisad elmi diversifikasiya səviyyəsini ölçməyə çalışır. İndiyədək çox müxtəlif iqtisadi üsullar və riyazi alətlər təklif edilmişdir. Diversifikasıyanın həm statik (əldə olunmuş səviyyə əsasında), həm də dinamik (şaxələndirməyə proses kimi yanaşma əsasında) iqtisadi-riyazi modelləri işlənmişdir. Artıq mövcud üsul və alətlərin təsnifatının təhlil edildiyi əsərlər də yazılır.[16] Amma bu günə

---

* Əslində bu o deməkdir ki, "diversifikasiya" anlayışı "optimal diversifikasiya" anlayışına transformasiya olunur.

[15] Grossberg, A. J. Metropolitan Industrial Mix and Cyclical Employment Stability. – Regional Science Perspectives, 1982, No. 12 (2); Jackson, R. W. An Evaluation of Alternative Measures of Regional Industrial Diversification. – Regional Studies, 1984, No. 18 (2).

[16] Wagner, J. Regional Economic Diversity: Action, Concept, or State of Confusion. – Journal of Regional Analysis & Policy, Jan. 2000, No. 30; available at: https://www.researchgate.net/ publication/

qədər diversifikasiya səviyyəsinin ölçülməsi üzrə hamılıqla qəbul edilən hansısa metod yoxdur.

İqtisadiyyatın diversifikasiya səviyyəsinin qiymətləndirilməsi sahəsində Azərbaycan iqtisadçıları da bir sıra tədqiqatlar aparmışlar. Bunların arasında K.Aslanlı, Z.İsmayıl, R.Ağayev və A.Mehtiyevin "İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi" kitabını qeyd etmək lazımdır.[17] Burada Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin, ilk növbədə neft və qeyri-neft sahələrinin tənasübü, ixracın strukturu haqqında xeyli statistik məlumatlar toplanmış, iqtisadiyyatın diversifikasiyasına yönəlik dövlət siyasəti, qəbul edilmiş qanunvericilik aktları və məqsədli proqramlar araşdırılmış, iqtisadiyyatın şaxələndirilməsinə hədəflənmiş iqtisadi siyasət qərarları sistemli şəkildə şərh olunmuşdur. O.Bağırov Azərbaycanda neft və qeyri-neft sektorları arasında nisbətin ikincinin xeyrinə dəyişdirilməsi məqsədi ilə aparılan diversifikasiya siyasətinin geosiyasi təsirlərini təhlil etmişdir.[18] Bəzi iqtisadçılarımız diversifikasiyanın sahəvi (məsələn, sənayedaxili) problemlərini araşdırmışlar.[19]

Lakin belə görünür ki, diversifikasiya səviyyəsinin ölçülməsində tətbiq olunan üsul və alətlər Azərbaycan iqtisadçıları tərəfindən hələ ki ayrıca tədqiq edilməmişdir.

Diversifikasiya səviyyəsinin qiymətləndirilməsi üçün indiyədək öz aktuallığını saxlayan "köhnə" ideyalardan birini Çikaqo məktəbinin aparıcı nümayəndəsi C.Stiqler hələ ötən əsrin 60-cı illərində irəli sürmüşdür. Bu ölçmə "sahələrin bərabər nisbəti"nə *(Equiproportional Measures)* əsaslanır.[20] Əsas fərz ondan ibarətdir ki, ideal diversifikasiya – iqtisadi fəaliyyətin ayrı-ayrı sahələr arasında tam bərabər paylanması,

/228966062_Regional_Economic_Diversity_Action_Concept_or_State_of_Confusion [accessed on May 22, 2021].

[17] K.Aslanlı, Z.İsmayıl, R.Ağayev, A.Mehtiyev. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. – Bakı, 2013; http://www.freeeconomy.az/site/assets/files/1188/iqtisadi_diversifikasiya_az.pdf [son baxılma tarixi - 22 may 2021].

[18] Baghirov, O. Economic Diversification in Azerbaijan and Its Geopolitical Implications. – Eurasia Daily Monitor, 2019, Vol. 16, Issue 123; available at: https://jamestown.org/program/economic-diversification-in-azerbaijan-and-its-geopolitical-implications [accessed on May 22, 2021].

[19] M.A.Rzayev. Sənaye müəssisələrində istehsalın diversifikasiya siyasəti. – İqtisadiyyat, idarəetmə, hüquq, 2018, № 5; http://elibrary.az/docs/jurnal/jrn2018_323.pdf [son baxılma tarixi - 22 may 2021].

[20] Stigler, G.J. (1968). The Organization of Industry, Homewood, IL: Irwin. Maraqlıdır ki, C.Stiqler 1982-ci ildə Nobel mükafatını həm də sənaye strukturları sahəsində innovativ tədqiqatlarına görə qazanmışdır.

bütün sahələrin eyni paya malik olmasıdır. İdeyanı, əlbəttə, ayrıca götürülmüş sahələrə də tətbiq etmək mümkündür: deyək ki, ayrı-ayrı sənaye sahələrinin bərabər payları əsasında sənayedaxili diversifikasiyanı qiymətləndirmək olar. Sonrakı onilliklərdə diversifikasiyanın bu ideya əsasında ölçülməsi üçün müxtəlif variantlar təklif olunmuş, hətta onun ölkədaxili regional variantları da nəzərdən keçirilmişdir.[21]

"Bərabər paylı sahələr" ideyasının əleyhdarları iki məsələyə diqqət çəkirlər. Birincisi, sahələrin payları müxtəlif meyarlar – məsələn, məhsul və xidmət buraxılışının dəyər ifadəsi, məşğulların sayı, toplanmış investisiyaların həcmi və s. – əsasında ölçülə bilər. İqtisadiyyatın sahələri effektivlik (məhsuldarlıq) səviyyəsinə görə fərqləndiyi üçün bu meyarlar əsasında alınmış nəticələr də fərqlənir. Bunların hər birini seçməyin isə öz məntiqi vardır, yəni heç biri digərindən birmənalı olaraq üstün sayıla bilməz. İkincisi, bu yanaşma müxtəlif sahələr arasında bazar tələbi, istehsal texnologiyaları, əmtəə axınları baxımından mövcud olan obyektiv fərqləri, habelə sahələrin müqayisəli üstünlüklərini nəzərə almır.

İkinci irad əslində tam haqlı deyil, çünki artıq qeyd edildiyi kimi, diversifikasiyanın optimal sahə strukturu kimi təfsiri yanlışdır. Amma birinci iradda həqiqət payı böyükdür. Buna baxmayaraq, Azərbaycanda iqtisadiyyatın diversifikasiya səviyyəsini qiymətləndirmək üçün bu konsepsiya mövcud variantlar arasında ən uğurlusudur.

[21] Фурсенко, Н.О. Проблемы измерения диверсификации региональной экономики. – Мир экономики и управления, 2018, Том 18, № 3; доступно на: file:///C:/Users/lenovo/Desktop//INDEX%20DIVERSIFIK.REGION/problemy-izmereniya-diversifikatsii-regionalnoy-ekonomiki.pdf [последний просмотр – 22 мая 2021 г.].

# *REGİONAL TARAZLAŞDIRMA VƏ DİVERSİFİKASİYA SİYASƏTİ: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN*

Hər bir ölkə üçün onun regionlarının ahəngdar şəkildə inkişaf etməsi, onların arasında tarazlıq yaradılması və iqtisadi siyasət tədbirləri ilə davamlı olaraq qorunması ən əhəmiyyətli məsələlərdəndir. Siyasi iqtisadçılar regionlararası tarazlığı, bir qayda olaraq, ölkə iqtisadiyyatının səbatlı və dayanıqlı inkişafının zəruri şərtlərinə aid edirlər.

Nəzəri cəhətdən ən maraqlı problem odur ki, regionlararası tarazlıq, iqtisadiyyatın bir dəfə əldə edildikdən sonra qorunub saxlanıla biləcək bir halı deyil. Həmişə təkrar-təkrar pozulmağa meyillidir. Çünki iqtisadi inkişaf, ümumən, tarazlığın pozulması yolu ilə baş verir. Ölkənin bölgələri arasında tarazlıq da elədir. Xüsusən Azərbaycan kimi miqyasca nisbətən kiçik olan ölkələrdə hansısa bir rayonda bircə yeni müəssisənin tikilib fəaliyyətə başlaması həmin rayonun iqtisadi göstəricilərini əhəmiyyətli dərəcədə dəyişdirə və digər rayonlarla – bundan əvvəl olmayıbsa belə – ciddi fərqlər yarada bilər. Ona görə də regionlararası tarazlığa hədəflənmiş iqtisadi siyasət “bitib-qurtaracaq” bir iş deyil, daimidir, daim pozulan tarazlığın daim yenidən bərqərar olması məqsədi ilə daim “yeni” tarazlıq axtarışıdır.

Regionlararası tarazlıq probleminin başqa bir mürəkkəbliyi onun hansı meyar (meyarlar) əsasında qiymətləndirilməsinə bağlıdır. Bunun üçün bir neçə fərqli göstəricidən istifadə oluna bilər və olunur. Onların arasında həm iqtisadi, həm də sosial göstəricilər var (hərçənd ki, bunları bir-birindən fərqləndirmək o qədər də uğurlu bir iş deyil, bəzənsə, sadəcə, qeyri-mümkündür).

Çətinlik ondan törəyir ki, tarazlığı qiymətləndirmək üçün istifadə olunan göstəricilər bəzən bir-birini “inkar” edir, yəni müxtəlif yönlüdür. Deyək ki, hansısa ölkə öz bölgələri arasında məşğulluq üzrə tarazlıq yaratmaq istəyir və bundan ötrü məşğulluğun daha aşağı səviyyədə olduğu regionlarda əməktutumlu sahələri (məsələn, pambıqçılığı) üstün templərlə inkişaf etdirir. Lakin yüksək əməktutumlu sahələr heç də ən gəlirli sahələr deyil. Ona görə də belə sahələrin üstün inkişafı nəticəsində məşğul əhalinin əmək qabiliyyətli əhalidə payı artır, amma qarşılığında əmək gəlirləri azalır. Yəni bir göstərici üzrə tarazlığın güclənməsi (qeyri-bərabərliyin azalması) digər göstərici üzrə tarazlığı, əksinə, zəiflədir (qeyri-bərabərliyi artırır).

Regionlararası tarazlığa hədəflənmiş iqtisadi siyasət, bu zaman kəsiyində ölkənin özü üçün ən vacib saydığı meyarlar əsasında qurulmalıdır. Bir müddət keçdikdən sonra (və hansısa başqa bir meyar üzrə qeyri-bərabərlik ölkənin yolverilməz saydığı həddə çatdıqdan sonra) regionlararası tarazlıq siyasətinin hədəfləndiyi göstəricilər də, təbii ki, dəyişə bilər və dəyişməlidir. Hansı göstəricilər üzrə qeyri-bərabərliyin hansı səviyyədə olmasını müəyyənləşdirmək üçünsə aramsız iqtisadi tədqiqatlar aparılmalı (bir növ, qeyri-bərabərliklərin özünün “reytinqi” hazırlanmalı) və iqtisadi siyasət qərarları qəbul edən dövlət qurumlarına təqdim olunmalıdır.

Bu mövzuda aparılan ilk tədqiqatlarda regional tarazlaşdırma deyərkən daha çox real gəlirlərin bərabərləşdirilməsi (yaxınlaşdırılması) nəzərdə tutulurdu.[22] Hazırda isə regional qeyri-bərabərlik daha mürəkkəb bir hədəf kimi qiymətləndirilir və çoxsaylı göstəricilərlə ölçülür. Məsələn, regional tarazlığın dövlətin ən əsas məqsədlərindən biri kimi qəbul edildiyi Hindistanda qeyri-bərabərliyi həm adambaşına gəlirlə, həm yoxsulluq həddindən aşağı yaşayan əhalinin xüsusi çəkisi ilə, həm şəhər-kənd əhalisinin nisbəti ilə, həm kənd təsərrüfatında və sənayedə işləyənlərin nisbəti ilə,

[22] Breton, A. The Political Economy of Regional Balance – Louvain Economic Review, 1969, 35e Année, No. 3, pp. 175-199; available at: http://www.jstor.org/stable/40723211 [accessed on May 22, 2021].

həm də infrastrukturun inkişaf səviyyəsi ilə ölçürlər.[23] Bir çox ölkələr regional tarazlaşdırma məqsədli ayrıca dövlət sənədləri qəbul etməsələr də, onu əsas hədəflərdən biri qismində regionlarda iqtisadiyyatın sahəvi strukturunu təkmilləşdirməyə, regionların iqtisadi potensialından daha effektiv istifadəyə yönəlmiş strategiya və proqramlara daxil edirlər.

Paytaxtla digər şəhərlər və əyalətlər arasında, habelə əyalətlərin özləri arasında qeyri-bərabərliklər bu və ya digər dərəcədə dünyanın bütün ölkələri üçün – istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan dövlətlər üçün tipikdir. Lakin inkişaf etməkdə olan ölkələrdə qeyri-bərabərliklər daha dərindir. Bu özünü təkcə regional iqtisadi inkişafda deyil, təbii surətdə həm də əhalinin rifah səviyyəsində göstərir. Belə ölkələrdə regional qeyri-bərabərlik ictimai-siyasi sabitliyə də mənfi təsir edir. Siyasi səbatsızlığın qarşısını almaqdan ötrü bu cür ölkələr gəlir qeyri-bərabərliyinin azaldılmasına xüsusi diqqət yetirməli olurlar.[24]

Avropa siyasi tədqiqatlar mərkəzi Avropa İttifaqı ölkələrində həyata keçirilən regional tarazlaşdırma siyasətini və təcrübəsini ətraflı araşdırmışdır. Bu tədqiqatda Aİ ölkələri bir sıra meyarlar əsasında (regionların tarazlaşdırılmış inkişafı, qeyri-bərabərliyin dərinliyi, qəbul olunmuş siyasət sənədləri və həyata keçirilən təqbirlər) 5 qrupa (kateqoriyaya) bölünür.[25]

Birinci qrupa bölgələri bir-birindən az fərqlənən, regional tarazlaşdırmaya dair milli qanunları və ya konstitusiya öhdəliyi olan ölkələr (Finlandiya, Almaniya, İtaliya, Norveç, İspaniya və İsveç) daxil edilir. Bunların hamısı yüksək gəlirli, inkişaf etmiş ölkələrdir. Bu ölkələrin regional tarazlıq haqqında qəbul etdiyi uzunmüddətli strateji proqramlarda müəyyənləşdirilmiş hədəflər arasında bəzi fərqlər olsa da, onlar, nəticə etibarilə, əhalinin gəlirlərində, yaşayış səviyyəsindəki fərqlərin azaldılmasına yönəl-

[23] Bu yanaşma Hindistanın regional inkişaf üzrə dövlət proqramlarında əksini tapmışdır. Bax: https://www.drishtiias.com/to-the-points/paper3/regional-development-disparity [son baxılma - 2 iyun 2021].

[24] Harvey, J. Balanced Regional Development. – In: Mastering Economics, Macmillan Master Series, Palgrave, London, 1994; available at: https://doi.org/10.1007/978-1-349-13504-2_21 [accessed on May 22, 2021].

[25] Bachtler, J., Mendez, C., Vironen, H. Regional Development and Policy in Europe. – Madrid, 2014; available at: http://www.sia.eurosocial-ii.eu/files/docs/1400661224-E2.pdf [accessed on May 22, 2021].

mişdir. Bu ölkələrdə regional qeyri-bərabərliklər ən aşağı səviyyədədir, amma onlar tarazlaşdırma məsələlərini yenə də siyasi gündəlikdə saxlayırlar.

İkinci qrupa, regional tarazlığı əsas sosial-siyasi-iqtisadi prioritetlərə aid etməsələr də, kəskin şəkildə geridə qalan bölgələri üçün kiçik miqyaslı proqramlar həyata keçirən ölkələr – Belçika, Fransa və Böyük Britaniya daxildir.* Bu dövlətlərdə ərazilərarası disproporsiyalar (sənayenin innovativ inkişafı, kəndlərin modernləşdirilməsi kimi məsələlər üzrə) müəyyən səviyyədə hələ də qalmaqdadır. Bu ölkələr Avropanın güclü və yüksək rifaha malik ölkələri olsa da, onların bəzi bölgələrinin sosial-iqtisadi inkişaf səviyyəsi Avropa İttifaqının orta göstəricilərindən geri qalır.

Üçüncü qrupa, az da olsa, müəyyən ölkədaxili regional fərqlərin hələ qaldığı, yüksək rifahlı nisbətən kiçik ölkələr – Avstriya, Danimarka, Lüksemburq, Hollandiya, İsveçrə daxildir. Bu dövlətlər milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmağa, sosial birliyə ciddi önəm verirlər, tarazlı inkişafı isə lokal problemlərin həllinə yönəlmiş tədbirlərlə təmin etməyə çalışırlar. (Regional tarazlıq haqqında tədqiqatlara Lüksemburq kimi ölkələri daxil etmək əslində tamamilə mənasızdır. Lüksemburq "cırtdan" ölkədir. Orada "region" deyəndə, yəqin ki, məhəllələri nəzərdə tuturlar).

Dördüncü qrupa Avropa İttifaqı miqyasında və ya ölkə daxilində (adalar, dağlıq yerlər, təcrid olunmuş bölgələr) ciddi siyasi-coğrafi problemləri olan Kipr, Yunanıstan, İrlandiya, Malta, Portuqaliya və Sloveniya, beşinci qrupa isə bir sıra Mərkəzi və Şərqi Avropa ölkələri (Polşa, Bolqarıstan, Çex Respublikası, Estoniya, Macarıstan, Latviya, Litva, Rumıniya, Slovakiya) daxildir. Dördüncü və beşinci qruplara aid edilmiş ölkələrdə regionlararası qeyri-bərabərlik daha yüksəkdir.

Regional tarazlığın və qeyri-bərabərliyin qiymətləndirilməsi sahəsində ölkəvi fərqlər də vardır. Serbiyada regionlararası bərabərsizliyi dərinləşdirən əsas amillərə bölgələrin və bütövlükdə ölkənin intensiv sənayesizləşməsini *(deindustrialization)*, yüksək işsizliyi, infrastrukturun zəif inkişafını, yetərincə funksional olmayan institusional infrastrukturu aid edirlər.[26] Hesab edilir ki, bu ölkədə regionlar arasında əsas

---

* Sözügedən tədqiqat aparılarkən Birləşmiş Krallıq Avropa İttifaqından hələ çıxmamışdı.

[26] Lekovic, V. Key Aspects of a Balanced Regional Development of the Republic of Serbia. – Economic Themes, 2017, No. 55(3); available at: file:///C:/Users/lenovo/Desktop/INDEX%20 DIVERSIFIK. REGION/Key_Aspects_of_a_Balanced_Regional_Development_of_.pdf [accessed on May 22, 2021].

fərqlər ali təhsilli insanların xüsusi çəkisində, məşğulluq səviyyəsində və investisiyaların nisbətində üzə çıxır.[27] Makedoniyada gizli iqtisadiyyatı regional tarazlığa mənfi təsir göstərən əsas amil sayırlar. Doğrudur, son on ildə bu təsir xeyli zəifləmişdir, lakin regional inkişafa və gizli iqtisadiyyatın məhdudlaşdırılmasına yönəlmiş iqtisadi siyasətlərin maksimum dərəcədə əlaqələndirilməsi hələ də aktualdır.[28]

Ölkə regionlarının tarazlı inkişafı ilə bağlı Azərbaycanda da tədqiqatlar aparılır.[29]

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra regionlararası tarazlığa hədəflənmiş bir sıra mühüm sənədlər qəbul etmişdir. Bunların arasında Azərbaycanda regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4 Dövlət Proqramını xüsusi qeyd etmək lazımdır.[30] Həmin proqramların hamısında qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın diversifikasiyası ilə yanaşı, regionlararası tarazlı inkişafın təmin olunması da əsas hədəf kimi götürülmüşdür. Məsələn, 2004-2008-ci illəri əhatə edən Dövlət Proqramının əsas məqsədi *"qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsi"* kimi ifadə olunmuşdur. 2009-2013-cü illəri və 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramlarında müəyyənləşdirilmiş hədəflər də eyni mahiyyət daşıyır.

---

[27] Manic, E., Mitrovic, D. Unbalanced Development – Regional Disparity Analysis in Serbia. – Economic Themes, 2021, 59 (1); available at: : https://www.researchgate.net/publication/350877819_Unbalanced_Development_-_Regional_Disparity_Analysis_in_Serbia [accessed on May 22, 2021].

[28] Novkovska, B. Regional Development Disparities and Their Connection with Hidden Economy. – UTMS Journal of Economics, 2017, 8 (2); available at: http://www.utmsjoe.mk/files/Vol.%208%20No.%202/UTMSJOE-2017-0802-09-Novkovska.pdf [accessed on May 22, 2021].

[29] Ə.Nuriyev. Davamlı və tarazlı regional inkişaf. – Bakı, "Avropa", 2017; Р.Султанова. Обеспечение социально-экономического развития регионов Азербайджана. – Международный научно-периодический журнал Экономистов и Правоведов, "The genesis of genius", .Женева (Швейцария), 2014.

[30] AR regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər), bax: http://www.e-qanun.az/framework/4797; AR regionlarının 2009-2013-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, bax: http://www.e-qanun.az/framework/16721; AR regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, bax: http://www.e-qanun.az/framework/27284; AR regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Bax: http://www.e-qanun.az/ /framework/41320 [hamısına son baxılma - 22 may 2021].

Hazırda icra prosesində olan və 2019-2023-cü illəri əhatə edən dördüncü Dövlət Proqramının məqsədi – *regionların davamlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasıdır.*

Bu proqramlarla yanaşı, "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında və Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində də (AR Prezidentinin fərmanı ilə 2016-cı ildə təsdiq olunmuşdur) regionların tarazlı inkişafı məqsəd kimi qarşıya qoyulmuşdur. Bu dövlət sənədlərinin əsas məqsədi, aydındır ki, regional tarazlıq deyil. Lakin onların hər ikisində makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatın strukturunu təkmilləşdirmək, məşğulluğu artırmaq, biznes mühitini yaxşılaşdırmaqla bərabər, tarazlaşdırılmış regional inkişafı təmin etmək də hədəflənmişdir.

Regionlararası tarazlıq kimi, iqtisadiyyatın diversifikasiya səviyyəsi də inkişaf etmiş ölkələrdə inkişaf etməkdə olan ölkələrə nisbətən daha yüksəkdir. Əksi də doğrudur: iqtisadi diversifikasiyanın yüksək olduğu ölkələr daha böyük iqtisadi uğur qazana bilirlər.[31] Ona görə də dünyanın əksər ölkələri diversifikasiyanı dövlət siyasətinin ən mühüm hədəflərinə aid edirlər.

İnkişaf etmiş və etməkdə olan ölkələr haqqında deyilən fikir ÜTT mütəxəssisləri tərəfindən aparılmış empirik tədqiqatlarla tam təsdiq olunur.[32] ÜTT üzv-ölkələrinin 91%-i, nisbətən zəif inkişaf etmiş üzv-ölkələrinsə hamısı (100%-i) hesab edir ki, iqtisadi diversifikasiya milli inkişaf strategiyasının prioritetlərinə aid olunmalıdır.

---

[31] Bəzi empirik tədqiqatlara görə, aşağı və orta gəlirli ölkələrdə iqtisadi inkişaf tempi diversifikasiyadan bilavasitə asılıdır (Imbs, J., Wacziarg, R. Stages of Diversification. – American Economic Review, 2003, 93-1). Ekonometrik araşdırmaların nəticələri, həmçinin, göstərir ki, iqtisadiyyat inkişaf etdikcə ixracın diversifikasiyası da (ixrac edilən məhsul və xidmətlərin çeşidi) artır, amma bu yalnız müəyyən bir inkişaf səviyyəsinə qədər, adambaşına ÜDM bəlli bir nöqtəyə çatanadək baş verir (Klinger, B., Lederman, D. Discovery and Development: An Empirical Exploration of 'New' Products. – World Bank Policy Research Working Paper 3450, The World Bank, Washington, DC, 2004; available at: https:// /elibrary.worldbank.org/doi/pdf/10.1596/1813-9450-3450) [accessed on May 22, 2021].

[32] Setting the Scene – in OECD/WTO (2019) – Aid for Trade at a Glance 2019: Economic Diversification and Empowerment, OECD Publishing, Paris; available at: https://doi.org/10.1787/ /18ea27d8-en [accessed on May 22, 2021].

Amma bunu əsaslandırmaq üçün gətirilən dəlillər xeyli fərqlənir. Məsələn, Salvadorda düşünürlər ki, diversifikasiya ölkənin son onilliklərdə düşdüyü "aşağı artım tələsi"ndən çıxmasının ən mühüm komponentidir. Monqolustan 2030-cu ilə qədərki dövrü əhatə edən milli strategiyasında diversifikasiyanı milli prioritetlərə ona görə aid edir ki, onu davamlı iqtisadi inkişaf məqsədlərinə çatmağın yollarından biri sayır. Zambiya hökuməti diversifikasiyanı məşğulluğun artırılmasının (işsizliyin azaldılmasının) əsas yolu hesab edir. Yəmən isə diversifikasiyanın zəruriliyini neft və neft məhsullarının dünya bazarında ucuzlaşması ilə əsaslandırır. Bir sıra ölkələrdə dövlət siyasəti iqtisadi diversifikasiyanın "geniş təfsirinə" əsaslanır. Məsələn, Gürcüstanda iqtisadi diversifikasiya konsepsiyasına ixracın diversifikasiyası və sənayeləşmə ilə yanaşı, kiçik və orta sahibkarlığın inkişafını da daxil edirlər.

Təbii resurslarla zəngin olan ölkələrdə diversifikasiya xüsusilə aktualdır və resurs asılılığından qurtulmağın əsas yollarından biridir. Adətən bunu onunla əsaslandırırlar ki, ixracın diversifikasiyası orta və uzunmüddətli perspektivdə daha yüksək templi iqtisadi artıma nail olmaq imkanı yaradır. Səudiyyə Ərəbistanında, Rusiyada, Qazaxıstanda və bir çox başqa ölkələrdə neft-qaz sektorunun "hərəkətverici gücü", yəni iqtisadiyyatı irəli aparmaq potensialı getdikcə zəifləyir (və yəqin ki, gələcəkdə daha da zəifləyəcəkdir). Uzunmüddətli iqtisadi inkişafı təmin etmək baxımından, bu cür ölkələrin diversifikasiyadan başqa yolu yoxdur.

Əlbəttə, nəzərə almaq lazımdır ki, resurs ixrac edən ölkələr yekcins deyil və bunların arasında əhali sayı və artımı, insan potensialının inkişaf səviyyəsi, coğrafi yerləşmə, gəlirlərin səviyyəsi və digər parametrlər üzrə ciddi fərqlər var. Bu fərqlər özünü diversifikasiyaya yanaşmada da göstərir. Məsələn, Yaxın Şərqin neft ixrac edən ölkələrinin çoxu üçün məşğulluq diversifikasiyanın əsas hədəfidir, amma bu ölkələrin bəziləri (məsələn, BƏƏ) xarici ölkələrdən işçi qüvvəsi idxal edir və belə ölkələr üçün hədəf məşğulluq deyil, iqtisadiyyatın uzunmüddətli dayanıqlılığıdır.[33] Azərbaycan isə ixracın diversifikasiyasının zəruriliyini, daha artıq dərəcədə, neft qiymətlərindən asılılığı zəiflətməyin vacibliyi ilə əsaslandırır.[34]

[33] Gelb, A. Economic Diversification in Resource Rich Countries. - Center for Global Development, 2010; available at: https://www.imf.org/external/np/seminars/eng/2010/afrfin/pdf/Gelb2.pdf [accessed on May 22, 2021].

[34] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, s.53; https://president.az/ files/future_az.pdf [son baxılma tarixi - 22 may 2021-ci il].

Müxtəlif ölkələrdə mütəxəssislərin öz hökumətlərinə verdiyi tövsiyələr də fərqlənir. Səbatlı inkişafa nail olmaq üçün diversifikasiyanı "açar element" hesab edən bəzi Liviya iqtisadçıları ondan narahatdırlar ki, bu ölkə öz resurslarını qeyri-neft istehsal sahələri arasında paylaşdıra bilmir. Ona görə də neft resurslarının tükənməsi riskinin ölkənin gələcəyini təhlükəyə atmamasından ötrü dövlət investisiyalarının idarə olunmasını təkmilləşdirməyi çarə görürlər.[35] Pakistanlı araşdırmaçılar öz hökumətlərinə tövsiyə edirlər ki, iqtisadiyyatın diversifikasiyasını gücləndirməkdən ötrü ixracın coğrafiyasını genişləndirsin.[36] Bir sıra hallarda isə təkliflər, sadəcə olaraq, "qeyri-neft sahələrini üstün templərlə inkişaf etdirmək lazımdır" tipli ümumi mülahizələrlə məhdudlaşır.[37]

Gerçəklik budur ki, hansı dəlillər gətirmələrindən asılı olmayaraq, müasir dünyada əksər ölkələr iqtisadi diversifikasiyaya böyük önəm verirlər. Bir çox ölkələr öz strateji inkişaf proqramlarında diversifikasiya üzrə konkret, ölçüyəgələr hədəflər qoyur. Təxminən 10 il əvvəl qəbul etdiyi Milli inkişaf strategiyasında Ekvador özü üçün belə bir hədəf müəyyənləşdirmişdi ki, 2021-ci ildə kənd təsərrüfatı məhsullarının, o cümlədən sənaye üsulu ilə emal olunmuş kənd təsərrüfatı məhsullarının ixracdakı payı azı 33%-ə çatdırılsın, yüksək, orta və aşağı texnoloji "intensivliyə" malik məhsulların ixracı isə adambaşına 55,2 dollardan 74,5 dollara qədər artırılsın və bunların qarşılığında neftin və ilkin neft emalı məhsullarının ixracdakı payı azaldılsın.[38] Bənzər təcrübə Azərbaycanda da vardır. Məsələn, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində nəzərdə tutulur ki, qeyri-neft

[35] Mohamed, M. Diversification Prospects for Sustainable Libyan Economic Growth, 2015; available at: https://www.semanticscholar.org/paper/Diversification-Prospects-for-Sustainable-Libyan-Mohamed/582756be084c461a8cbe41abeae1494e08378465 [accessed on May 22, 2021].

[36] Mubeen, N., Ahmad, N. (2016). Towards Measurement and Determinants of Export Diversification: An Empirical Analysis of Pakistan. – Pakistan Journal of Commerce and Social Sciences, 2016, Vol. 10 (3); available at: https://www.researchgate.net/publication/335490559_Towards_Measurement_and_Determinants_of_Export_Diversification_An_Empirical_Analysis_of_Pakistan [accessed on May 22, 2021].

[37] Malik, M., Masood, T. An Analysis of Economic Diversification of Middle Eastern Countries – Saudi Journal of Economics and Finance, February 2020; available at: https://www.researchgate.net/ /publication/339750623_An_Analysis_of_Economic_Diversification_of_Middle_Eastern_Countries [accessed on May 22, 2021].

[38] OECD/WTO (2019) – Aid for Trade at a Glance 2019: Economic Diversification and Empowerment, OECD Publishing, Paris, p. 31; available at: https://doi.org/10.1787/18ea27d8-en [accessed on May 22, 2021].

sektoru üzrə adambaşına düşən ixrac həcmi 2015-ci ildəki 170 ABŞ dollarından 2025-ci ildə azı 450 ABŞ dollarına çatdırılacaqdır.[39]

Azərbaycan hökuməti hesab edir ki, iqtisadi diversifikasiyanın təməli makroiqtisadi sabitlikdir. Bu fikir elmi-nəzəri cəhətdən tam əsaslıdır. Makroiqtisadi sabitlik olmayan yerdə təbii resursların hasilatı xaricindəki sahələrə sərmayə yatırılması qeyri-mümkün dərəcədə çətindir. Amma bu iki iqtisadi hadisə arasındakı əlaqə ikitərəflidir: makroiqtisadi sabitlik diversifikasiya üçün şərait yaratdığı kimi, öz növbəsində diversifikasiya da uzunmüddətli makroiqtisadi sabitliyin zəruri şərtidir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatına əsasən, hazırda Azərbaycan ən yüksək makroiqtisadi sabitliyə malik ölkələr sırasındadır və bu, iqtisadiyyatın diversifikasiyası üçün yaxşı imkanlar açır. Bununla bərabər, makroiqtisadi stabilliyi saxlamaq və gücləndirməkdən ötrü yaxın illərdə gəlirlərin (o cümlədən dövlət gəlirlərinin) strukturunu daha da şaxələndirmək nəzərdə tutulur.[40]

Hər bir ölkədə iqtisadiyyatın və onun diversifikasiyasının, şübhəsiz ki, özüməxsus xüsusiyyətləri vardır. Bununla belə, iqtisadiyyatı şaxələndirmək məqsədi güdən dövlət siyasətinin bəzi istiqamətləri universal xarakterlidir və bütün ölkələr üçün keçərlidir. Bütün hallarda, hökumətin apardığı investisiya siyasəti iqtisadi diversifikasiya strategiyasının bünövrəsi rolunu oynayır. Özəl sektorun fəaliyyəti üçün əlverişli şərait yaratmadan, kiçik və orta sahibkarlığın inkişafına nail olmadan iqtisadi fəaliyyət sahələrinin sayını artırmaq, əhatə dairəsini genişləndirmək hələ heç bir ölkədə mümkün olmamışdır.

ÜTT və İƏİT mütəxəssislərinin birgə araşdırmaları belə qənaətə gəlməyə imkan verir ki, uğurlu diversifikasiya strategiyasının 4 açar elementi haqqında əminliklə danışmaq olar:

(i) təşviq mexanizmlərinin formalaşdırılması (bunun üçün biznes mühitinin təkmilləşdirilməsinə yönəlmiş islahatlar aparmaq, ixracı əngəlləyən bütün növ maneələri aradan qaldırmaq, genişləndirilməsi hədəflənən sahələr üzrə ixracı stimullaşdırmaq, infrastruktur xidmətləri – nəqliyyat, maliyyə, enerji və rabitə sahələrində rəqabətin güclənməsinə nail olmaq lazımdır);

[39] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, s.53.
[40] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, s.45.

(ii) ticarət xərclərinin azaldılmasına yönəlmiş islahatlar və investisiya siyasəti (məsələn, məlumdur ki, Şərqi Asiya ölkələrində iqtisadiyyatın diversifikasiyası sahəsində əldə edilmiş uğurların təməlində ticarət xərclərinin azaldılması və effektiv logistika dayanırdı);

(iii) resursların yeni fəaliyyət sahələrinə axınını dəstəkləyən dövlət siyasəti (söhbət təkcə resursların qeyri-effektiv və ya aşağı səmərəli sahələrdən daha effektiv sahələrə keçidini deyil, həm də qeyri-formal sektordan "çıxarılıb", yeni formallaşdırılıb yeni növ fəaliyyətlərə yönəldilməsindən gedir);

(iv) konkret hədəflər güdən dövlət müdaxilələri (bunlar yalnız ayrı-ayrı institusional boşluqların və bazar uğursuzluqlarının aradan qaldırılmasına yönəlməlidir).[41]

İqtisadiyyatın diversifikasiyasını öz strateji məqsədləri sırasına aid edən bütün dövlətlər yuxarıda sadalanmış çərçivə şərtlərini bu və ya digər modifikasiyada tətbiq etməyə çalışırlar. Azərbaycan da istisna deyil. Azərbaycanın ötən əsrin 90-cı illərində öz dövlət müstəqilliyini bərpa etdikdən sonra indiki günlərimizə qədər apardığı bir çox islahatların mahiyyətinə vardıqda, onların iqtisadiyyatın, o cümlədən ixracın diversifikasiyasına hədəfləndiyini görmək çətin deyil. Ən əyani misal – kənd təsərrüfatına yararlı torpaqların özəlləşdirilməsi və bundan sonra uzun illər boyu fermerlərin, demək olar ki, bütün vergilərdən azad edilməsi sayıla bilər.

Son 30 ildə Azərbaycanda diversifikasiyanı əngəlləyən iki amili ayrıca qeyd etmək lazım gəlir. Bunların birincisi – 2000-ci illərdən başlayaraq, neft-qaz sektorunun sıçrayışlı artımıdır. Neft gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönəldilməsi, ilk (və qeyri-peşəkar) baxışdan nə qədər asan və cazibədar görünsə də, əslində çox sərt məhdudiyyətlərə malikdir. İkinci amil – ölkə ərazisinin təxminən beşdə birinin yaxın keçmişədək işğal altında qalması və resursların, qaçılmaz surətdə, Qarabağın azad edilməsinə səfərbər olunmasıdır.

Qarabağın işğaldan azad edilməsi ilə ölkə gündəminin əsas mövzusuna çevrilmiş post-konflikt ərazilərin bərpası perspektivi Azərbaycan iqtisadiyyatının diversifikasiyası üçün tamamilə yeni imkanlar açır. Ölkə ərazisinin təxminən 15%-də "sıfırdan"

[41] OECD/WTO (2019) – Aid for Trade at a Glance 2019: Economic Diversification and Empowerment, p. 25.

yeni iqtisadiyyat qurulacaqdır. Bu sahələrin kompozisiyası haqqında konkret fikir söyləmək hələ tezdir. Amma onu əminliklə demək olar ki, Qarabağın iqtisadiyyatı yalnız ənənəvi, daha doğrusu, keçmişdə bu region üçün ənənəvi sayılan sahələrdən ibarət olmayacaq, orada müasir, iqtisadiyyatımızın gələcək simasını müəyyənləşdirən sahələr də təmsil olunacaqdır. Bu, ümumən ölkə iqtisadiyyatının sahə strukturuna və diversifikasiyasına, heç şübhəsiz, müsbət təsir göstərəcəkdir.

# *METODOLOGİYA*

Qeyd edildiyi kimi, bu araşdırmada Azərbaycanın iqtisadi rayonlarının, respublika tabeli şəhərlərinin və inzibati rayonlarının reytinqi iqtisadi inkişafa təkan verən amillər əsasında deyil, iqtisadiyyatın faktik durumunu ifadə edən göstəricilər əsasında tərtib edilmişdir. Statik iqtisadi inkişafı səciyyələndirən göstəricilər – əhali sayı üzrə ərazilər arasındakı fərqləri sərf-nəzər etməkdən ötrü – adambaşına hesablanmışdır. İqtisadi diversifikasiyanın səviyyəsini qiymətləndirərkən buna ehtiyac yoxdur.

Müqayisələr RİİDİ əsasında aparılmışdır. Bu, 2 sub-indeksin çəkili ortası kimi hesablanan kompozit göstəricidir. Sub-indekslər bunlardır: *İqtisadi inkişafın statik səviyyəsi (İİSS) sub-indeksi* və *Sahəvi diversifikasiya (SD) sub-indeksi.* Birinci sub-indeks iqtisadiyyatın cari inkişaf səviyyəsini, ikinci isə onun səbatlıq və dayanıqlıq dərəcəsini qiymətləndirir.

Bütün hesablamalar dərc edilmiş son rəsmi göstəricilər (2019-cu ilin statistik məlumatları) əsasında aparılmışdır.

## Araşdırılan ərazilər haqqında

Tədqiqat ölkənin 10 iqtisadi rayonunun hamısını əhatə edir.

Hazırda ölkəmizin ekspert icmasında Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının birləşdirilərək, bu əsasda *Qarabağ iqtisadi rayonunun* formalaşdırılması ideyası müzakirə olunmaqdadır. Lakin hələ ki rəsmən bunlar müstəqil iqtisadi

rayonlardır və onlara məhz bu cür baxılmışdır. Aydın məsələdir ki, Qarabağın işğaldan yenicə azad edilmiş rayonlarındakı iqtisadi inkişaf səviyyəsi digər şəhər və rayonlarımızdakından əhəmiyyətli dərəcədə aşağıdır. Onların azad iqtisadi inkişaf yoluna indi-indi qədəm qoyduğunu nəzərə alaraq, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarını və onlara daxil olan inzibati rayonları reytinqə daxil etməmək də olardı. Lakin iki səbəbdən reytinqə onlar da daxil edilmişdir.

Birincisi, bu rayonlar Azərbaycanın artıq ölkəyə qovuşmuş ərazisidir və indən belə, bütün araşdırmalarımızda yer almalıdır və alacaqdır.

İkincisi, Qarabağın bərpası, orada yeni iqtisadiyyat quruculuğu indi başlayır. Hazırda Qarabağın bərpası, məcburi köçkünlərin effektiv repatriasiyası, gələcək iqtisadiyyatının potensial müqayisəli üstünlük sahələri haqqında gərgin araşdırmalar aparılır, plan və proqramlar hazırlanır. 2021-ci ilin Dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin bərpasına 2,5 mlrd. manat vəsait ayrılmışdır. Yaxın 5 ildə bu vəsaitlərin 25 mlrd. manata çatacağı gözlənilir. Müstəqil ekspertlərin rəyinə görə, post-konflikt ərazilərin bərpasına bütün növ mənbələrdən sərf ediləcək vəsaitin toplam həcmi 100 mlrd. manat ətrafında olacaqdır. Vaxt gələcək Qarabağ yenidən tikilib-qurulacaq, ilkin bərpa dövrü arxada qalacaq və bölgə normal inkişaf yoluna çıxacaq. Amma biz nədən başladığımızı da bilməliyik. Başlanğıc nöqtəsini təsbit etməyimiz gedəcəyimiz yolu sonralar düzgün qiymətləndirməyimiz üçün çox vacibdir. O zaman biz yeni dövrün iqtisadi göstəricilərini indikilərlə müqayisə etdikdə haradan hara gəlib çıxdığımızı daha aydın təsəvvür edə biləcəyik.

Respublika tabeli 3 şəhər (Lənkəran, Şəki və Yevlax) eyniadlı inzibati rayonların mərkəzləridir. Bu şəhərlər üzrə ayrıca statistik uçot aparılmır, onların statistikası daxil olduqları inzibati rayonların ümumi göstəricilərində nəzərə alınır. Ona görə də həmin 3 şəhər respublika tabeli şəhərlərin sırasında deyil, inzibati rayonların tərkibində araşdırılmışdır. Qalan 5 respublika tabeli şəhər (Gəncə, Sumqayıt, Şirvan, Mingəçevir , Naxçıvan) ayrıca təhlil olunmuşdur.

Naftalan respublika tabeli şəhər olsa da, digər şəhərlərlə müqayisəsi elmi cəhətdən əsaslı deyil. Məsələ burasındadır ki, Naftalanda iqtisadiyyatın sahə strukturu iri şəhərlərinkinə nisbətən inzibati rayonlarınkına daha yaxındır: orada kənd təsərrüfatının ümumi məhsul buraxılışında xüsusi çəkisi 5%, sənayeninki 8%-dir. Digər respublika tabeli şəhərlərdə isə kənd təsərrüfatının payı 1%, sənayeninki 40% ətrafındadır.

Ona görə də Naftalan inzibati rayonların reytinqinə daxil edilmişdir. Doğrudur, bu, Naftalanın iqtisadi diversifikasiya göstəricisinə müəyyən təsirsiz ötüşmür, çünki, bir qədər sonra göstəriləcəyi kimi, Sahəvi diversifikasiya sub-indeksi inzibati rayonlar və respublika tabeli şəhərlər üçün fərqli qaydada hesablanmışdır. Buna baxmayaraq, Naftalanın inzibati rayonlar sırasında araşdırılması daha düzgündür. Amma sadəlik üçün, yəni hər dəfə "66 inzibati rayon və Naftalan şəhəri" deməmək üçün "67 inzibati rayon" ifadəsindən istifadə olunur.

Bakı şəhəri ölkənin digər şəhər və rayonlarından həm miqyasına, həm də – daha vacibi – iqtisadi inkişaf və ictimai rifah səviyyəsinə görə köklü surətdə fərqləndiyi üçün araşdırmaya daxil edilməmişdir. Bakı ilə digər bölgələr arasındakı iqtisadi fərqliliklər ayrıca bölmədə təhlil olunmuşdur.

Beləliklə, bu araşdırma ölkənin 10 iqtisadi rayonunu, bunlara daxil olan 5 respublika tabeli şəhəri və 67 inzibati rayonu əhatə edir.

## İqtisadi inkişafın statik səviyyəsi (İİSS) sub-indeksi

Azərbaycanın bölgələrində iqtisadi inkişafın cari vəziyyəti 3 göstərici əsasında qiymətləndirilmişdir:

*i) adambaşına ümumi məhsul buraxılışı (ÜMB),*

*ii) bir məşğula məhsul buraxılışı ilə ölçülən ictimai əmək məhsuldarlığı (İƏM),*

*iii) iqtisadi fəaliyyətdən adambaşına gəlir (İFG).*

Birinci göstərici iqtisadi inkişaf səviyyəsini ən ümumi şəkildə səciyyələndirir. Bu göstərici region rezidentləri, yəni həmin regionda rəsmi dövlət qeydiyyatında olan müəssisələr tərəfindən il ərzində istehsal edilmiş məhsul və xidmətlərin ümumi həcmini əks etdirir. Buraya istehlakçılara göndərilən məhsullar və təqdim edilən xidmətlər, istehsalçıların özlərinin aralıq və son istehlakı və ya yığımı üçün istehsal etdiyi məhsullar və xidmətlər daxildir. ARDSK-nın internet saytında məhsul və xidmətlərin illik ümumi buraxılışı göstəriciləri həm iqtisadi rayonlar, həm də şəhərlər və inzibati rayonlar üzrə dərc edilir. Dövlət Statistika Komitəsi bölgələrdə əhalinin orta illik sayı

göstəricilərini də dərc etdiyi üçün adambaşına ümumi məhsul buraxılışı göstəriciləri asanlıqla hesablana bilir.

Azərbaycanın bölgələri üçün hesablandığı variantda ÜMB ölkələrarası müqayisələrdə istifadə olunan iki göstəricinin – ümumi daxili məhsul və ümumi milli məhsul göstəricilərinin sintezini xatırladır. ARDSK bu göstəriciyə, bir tərəfdən, regionlarda müəyyən bir müddət fəaliyyət göstərən xarici şirkətlərin istehsal etdiyi məhsul və xidmətləri də daxil edir, digər tərəfdənsə, həmin regionda fəaliyyət göstərən, lakin başqa bir yerdə rəsmi qeydiyyatda olan yerli şirkətlərin məhsul və xidmətlərini bu göstəricidə tam nəzərə ala bilmir.

Adambaşına ÜMB göstəricisi regionlarda iqtisadiyyatın miqyasını yetərincə dolğun əks etdirsə də, onun effektivliyi haqqında bilgi vermir. İqtisadiyyatın effektivliyi, məlum olduğu kimi, istehsal resurslarından istifadənin səmərəlilik dərəcəsi ilə müəyyənləşir. Bu resurslar arasında ən mühümü insan və onun əməyidir. İnsan potensialından istifadənin səmərəliliyinə eyni dərəcədə mühüm sayıla biləcək iki cür yanaşma vardır. Bunların birincisi, əmək resurslarından nə dərəcədə dolğun (tam) istifadə edilməsidir. Bunun göstəricisi məşğulluq səviyyəsi, ölçüsü isə məşğul əhalinin əməkqabiliyyətli əhaliyə nisbətidir. İkincinin göstəricisi ictimai əməyin effektivliyi (məhsuldarlığı), ölçüsü isə ümumi məhsul buraxılışının məşğul əhalinin sayına bölünməsidir. Bir məşğulun nə qədər məhsul və xidmət istehsal etməsi daha universal və "dərin" göstəricidir, çünki dolayısı ilə digər resurslardan (istehsal vasitələrindən, təbii ehtiyatlardan, infrastruktur qurğularından) istifadənin səmərəliliyini də ifadə edir. Ona görə də bu araşdırmada regionların statik iqtisadi inkişaf səviyyəsini qiymətləndirməkdən ötrü istifadə olunan ikinci göstərici bir məşğula düşən ümumi məhsul buraxılışı ilə ölçülən ictimai əmək məhsuldarlığıdır.

İqtisadi inkişafı səciyyələndirən daha bir həlledici xüsusiyyət onun nə qədər gəlir yaratmasıdır. Bu, prinsipial məsələdir, çünki bir çox amillər var ki, onların təsiri ilə, daha yüksək məcmu dəyər ölçüləri ilə ifadə olunan iqtisadiyyat daha az gəlir gətirə bilər. Halbuki iqtisadiyyatın təyinatı insanların rifahını təmin etmək, bunun üçün onlara gəlir gətirməkdir. Ona görə də bölgələrin faktik iqtisadi inkişaf səviyyəsini qiymətləndirmək üçün bu araşdırmada istifadə olunan üçüncü göstərici adambaşına gəlirdir.

Lakin aydın məsələdir ki, bu və ya digər regionda insanların əldə etdiyi gəlirlər təkcə həmin regionun öz iqtisadiyyatının yaratdığı gəlirlər deyil. Məsələn, əmək miq-

rantlarının öz ailələrinə göndərdiyi pul vəsaitləri heç vəchlə həmin ailələrin yaşadığı rayonların inkişaf göstəricisi sayıla bilməz. Bəlkə də əksinə, bu cür vəsaitlərin çoxluğu həmin rayonda iqtisadi inkişafın zəifliyinə dəlalət edir. Ona görə də bizim halda gəlir göstəricisi bu cür əlavələrdən "təmizlənmiş" və *İqtisadi fəaliyyətdən adambaşına gəlir* göstəricisinə çevrilmişdir. Bu göstəriciyə yalnız məşğulluqdan (muzdlu işdən və özünüməşğulluqdan) əldə edilən gəlirlər, habelə mülkiyyətdən və əmlakın icarəyə verilməsindən əldə olunan gəlirlər daxil edilmiş, alınmış cari transfertlər (pensiya, müavinət və sosial yardımlar, natura şəklində daxilolmaların pulla dəyəri), ölkə daxilində başqalarından və ölkə xaricindən alınan vəsaitlər isə daxil edilməmişdir.

Dövlət Statistika Komitəsinin məlumatlarında əhali gəlirlərinin strukturu ev təsərrüfatları üzrə, özü də mütləq rəqəmlərlə deyil, faizlərlə verildiyi üçün gəlirin tərkib hissələri əvvəlcə mütləq rəqəmə çevirilmiş, sonra isə adambaşına hesablanmışdır.

İqtisadi inkişafın səviyyəsini ifadə edən hər 3 göstərici aşağıdakı standart düsturla indeksləşdirilmiş və $[0, 100]$ aralığına gətirilmişdir:

$$V_i = \left[\frac{(V_f - V_{eh.min})}{(V_{eh.max} - V_{eh.min})}\right] \times 100$$

Azərbaycan bölgələrinin RİİDİ əsasında təhlilini gələcəkdə də (hər halda növbəti 5 il ərzində) aparmaq nəzərdə tutulur. Hazırkı və gələcəkdəki nəticələrin müqayisəyəgələrliyini saxlamaq üçün indeksləşdirmə zamanı istifadə olunan maksimum və minimum göstəriciləri faktik maksimal $(V_{max\ fakt})$ və minimal $(V_{min\ fakt})$ göstəricilərdən fərqləndirilmiş, ehtimal olunan maksimum $(V_{eh.max})$ və ehtimal olunan minimum $(V_{eh.min})$ kimi hesablanmışdır. Bu zaman fərz edilmişdir ki, yaxın 5 ildə RİİDİnin hesablanmasında istifadə edilən göstəricilərin dəyişmələri 20%-i aşmayacaqdır. Ona görə də *ehtimal olunan maksimum göstəricisi* bölgələr arasında ən yüksək göstəriciyə (faktik maksimal göstəriciyə) 20% əlavə etməklə, *ehtimal olunan minimum göstəricisi* isə bölgələr arasında ən aşağı göstəricidən (faktik minimal göstəricidən) 20% çıxmaqla hesablanmış və yuvarlaqlaşdırılmışdır:

$$V_{eh.min} = V_{min\ fakt} - 0,2^* V_{min\ fakt};$$
$$V_{eh.max} = V_{max\ fakt} + 0,2^* V_{max\ fakt}$$

Adambaşına ümumi məhsul buraxılışı üzrə ən yüksək göstərici Naxçıvan şəhərində (20 090 manat), ən aşağı göstərici isə Zəngilan rayonunda (25 manat) qeydə alınmışdır. Faktik maksimal göstəricini 20% artırmaqla, faktik minimal göstəricini isə 20% azaltmaqla adambaşına ÜMB üzrə ehtimal olunan maksimum 25 000 manat, ehtimal olunan minimum 20 manat müəyyənləşdirilmişdir.

Eyni hesablama digər 2 göstərici üçün də aparılmışdır. Bir məşğula düşən məhsul buraxılışı göstəricisinin faktik maksimal qiyməti Naxçıvan şəhərində (36 930 manat), faktik minimal qiyməti Zəngilan rayonunda (50 manat) olmuşdur. Bu göstərici üzrə ehtimal olunan maksimum 45 000 manat, ehtimal olunan minimum isə 40 manat götürülmüşdür. İqtisadi fəaliyyətdən adambaşına gəlirin də faktik maksimal və minimal göstəriciləri Naxçıvan şəhərində (8 792 manat) və Zəngilan rayonunda (12 manat) qeydə alınmış, ehtimal edilən maksimum və minimum göstəriciləri, müvafiq olaraq, 11 000 manat və 8 manat qəbul edilmişdir.

Beləliklə, standart normalaşdırma düsturundan və ehtimal olunan maksimum və minimum göstəricilərindən istifadə etməklə İİSS sub-indeksinin 3 alt-indeksi – adambaşına ümumi məhsul buraxılışı alt-indeksi, ictimai əmək məhsuldarlığı alt-indeksi və iqtisadi fəaliyyətdən adambaşına gəlir alt-indeksi hesablanmışdır. Sub-indeks bu alt-indekslərin çəkili ortasıdır. İstifadə edilmiş çəkilərin müəyyənləşdirilməsində tətbiq olanan hesablama texnikası ayrıca şərh olunacaqdır.

Alt-indekslər müsbət yönlüdür, yəni onlar nə qədər yuxarıdırsa, sub-indeks də bir o qədər yuxarıdır. Sub-indeks də müsbət yönlüdür, yəni hər hansı bir bölgə üçün onun qiyməti nə qədər yuxarıdırsa (100-ə nə qədər yaxındırsa), həmin bölgədə iqtisadi inkişafın statik səviyyəsi bir o qədər yüksəkdir.

***Naxçıvanın inzibati rayonları üzrə hesablamaların bəzi fərqlilikləri*** vardır. Dövlət Statistika Komitəsinin məlumatlarında ÜMB və əhalinin orta illik sayı göstəriciləri həm bütövlükdə Naxçıvan MR üzrə, həm də onun inzibati rayonları üzrə verilir, amma İİSS sub-indeksini əmələ gətirən ikinci alt-indeksin bir göstəricisi (məşğul əhalinin sayı) yalnız Muxtar Respublika üzrə ümumi şəkildə verilir.

Naxçıvanın inzibati rayonları üzrə həmin alt-indeksin hesablanması zamanı bu rayonlar üçün Muxtar Respublikanın orta göstəricisindən istifadə edilmişdir. Muxtar Respublika üzrə məşğulların sayı əhalinin orta illik sayına bölünməklə məşğulluq əmsalı tapılmış (0,544) və bu əmsal Naxçıvanın inzibati rayonlarındakı əhalinin orta illik

sayına vurulmaqla həmin rayonlarda məşğul əhalinin sayı təxmin edilmişdir. Sonra isə hər rayonun ÜMB göstəricisi həmin rayondakı məşğulların sayına bölünməklə ictimai əmək məhsuldarlığı göstəricisi hesablanmışdır.

Eyni yanaşma iqtisadi fəaliyyətdən adambaşına gəlir göstəricisinin hesablanmasında da tətbiq olunmuşdur. Rəsmi statistika əhali gəlirlərini də (həm həcmini, həm də strukturunu) yalnız Naxçıvan üzrə ümumi şəkildə verir, onun inzibati rayonları üzrə vermir. Ona görə də əvvəlcə Naxçıvan üzrə əhalinin ümumi gəlirləri göstəricisi Muxtar Respublikanın ümumi məhsul buraxılışı göstəricisinə bölünməklə gəlir əmsalı (məhsul buraxılışının hər vahidində gəlirlərin payı) tapılmışdır (0,523). İkinci addımda bu əmsal inzibati rayonların ÜMB göstəricisinə vurulmaqla hər rayon üzrə əhali gəlirlərinin ümumi həcmi müəyyən edilmişdir. Üçüncü addımda Naxçıvan üzrə iqtisadi fəaliyyətdən gəlirlər göstəricisi (əhali gəlirlərinin transfertlərdən "təmizlənmiş" variantı) Muxtar Respublikadakı əhali gəlirlərinə bölünmüş və iqtisadi fəaliyyətdən gəlir əmsalı hesablanmışdır (0,873). Dördüncü addımda bu əmsal ikinci addımda hər rayon üzrə hesablanmış əhali gəlirlərinə vurulmaqla hər rayon üçün iqtisadi fəaliyyətdən gəlir göstəricisi tapılmışdır. Nəhayət, beşinci addımda rayonlar üzrə iqtisadi fəaliyyətdən gəlirlər həmin rayonlardakı əhali sayına bölünmüş və tələb olunan göstərici – Naxçıvanın inzibati rayonlarında iqtisadi fəaliyyətdən adambaşına gəlir müəyyən olunmuşdur.

Alınan nəticələrlə real göstəricilər arasında müəyyən fərqin olması, əlbəttə, mümkündür. Lakin böyük ehtimalla, yayınmalar yol verilə biləcək həddi aşmır və hesablanmış göstəricilər qiymətləndirmə üçün yetərli sayıla bilər.

## Sahəvi diversifikasiya (SD) sub-indeksi

Azərbaycanın bölgələrində iqtisadiyyatın səbatlığını və dayanıqlığını qiymətləndirmək məqsədi ilə sahəvi diversifikasiyanın səviyyəsi araşdırılmış, bundan ötrü isə, qeyd edildiyi kimi, "bərabər paylı sahələr" yanaşmasından istifadə olunmuşdur. Bu yanaşma əsasında hər bir iqtisadi rayon, respublika tabeli şəhər və inzibati rayon üçün Sahəvi diversifikasiya sub-indeksi hesablanmışdır. Lakin şəhərlərdə iqtisadi fəaliyyətin sahəvi xüsusiyyətləri nəzərə alınmaqla respublika tabeli 5 şəhər üçün bir qədər fərqli yanaşma tətbiq olunmuşdur.

İlkin fərz ondan ibarətdir ki, Azərbaycanın iqtisadi və inzibati rayonlarında iqtisadiyyatın ən yaxşı diversifikasiyası iqtisadi fəaliyyətin (ümumi məhsul buraxılışının) 4 əsas sahə – sənaye, kənd təsərrüfatı, xidmətlər sektoru və tikinti arasında tam bərabər bölünməsidir (xidmət sektoruna burada nəqliyyat, rabitə və ticarət aid edilir). Başqa sözlə, bu sahələrin hərəsi ümumi məhsulun 25%-ni istehsal edir. Əlbəttə, *eyni əhəmiyyətli* sahələrin sayını artırmaq qiymətləndirmənin dəqiqliyini yüksəldərdi, lakin "bərabər paylı sahələr" prinsipini hələlik yalnız bu 4 sahə üzrə (nəqliyyat, rabitə və ticarətə bir ad altında baxmaqla) tətbiq etmək məqsədəuyğun (əsaslı) görünür.

Maraqlıdır ki, ölkə iqtisadiyyatının (Bakı nəzərə alınmamaqla) bu 4 sahə arasında paylanması "ideal" adlandırdığımız bölgüyə çox yaxındır *(Diaqram 1)*. Ən böyük paya malik olan kənd təsərrüfatının xüsusi çəkisi (26%) ən kiçik paya malik olan xidmət sektorunun xüsusi çəkisindən (24%) cəmi 2 faiz bəndi artıqdır. Bu fakt "bərabər paylı sahələr" prinsipinin Azərbaycan üçün tam keçərli olduğunu bir daha təsdiqləyir.

Sahəvi diversifikasiya sub-indeksi ayrı-ayrı şəhər və rayonlarda 4 əsas sahənin ideal paylanmadan toplam kənarlaşması üzərində qurulmuşdur. Deyək ki, hansısa bir rayonda sənaye, kənd təsərrüfatı, xidmətlər və tikintinin ümumi məhsul buraxılışındakı payları, müvafiq olaraq, 30%, 20%, 27% və 23%-dir. Bu halda ideal (bərabər) paylanmadan toplam kənarlaşma 14 bənd olacaqdır (5+5+2+2). Toplam kənarlaşma nə qədər azdırsa, bölgə iqtisadiyyatının diversifikasiya səviyyəsi bir o qədər yüksəkdir.

Hər bir iqtisadi rayon, respublika tabeli şəhər, inzibati rayon üçün kənarlaşmaların cəmi tapıldıqdan sonra alınmış nəticələr standart indeksləşdirmə düsturu ilə normalaşdırılmış və $[0, 100]$ aralığına gətirilmişdir:

$$\mathrm{SD} = \left[\frac{(V_{max} - V_{fakt})}{(V_{max} - V_{min})}\right] \times 100$$

Göründüyü kimi, Sub-indeksin qiymətləri "tərsinə çevrilmişdir", çünki bu halda üstünlük göstəricinin böyüklüyündə yox, kiçikliyindədir.

Sahəvi diversifikasiyanın hesablanması zamanı mümkün olan minimal kənarlaşma göstəricisi sıfıra bərabərdir: bu o haldır ki, hansısa bir bölgədə iqtisadiyyat 4 sahə arasında tam bərabər (hərəsi düz 25% olmaqla) paylanır. Mümkün olan maksimal kənarlaşma isə 150-dir: bu o haldır ki, hansısa bir bölgədə iqtisadiyyat yalnız bir sahə

ilə təmsil olunur. İkincinin ehtimalı, aydın məsələdir ki, yox dərəcəsində azdır. Buna baxmayaraq, hesablamalarda mümkün minimum “0”, mümkün maksimum isə “150” kimi götürülmüşdür.

*Diaqram 1. İqtisadiyyatın əsas sahələrinin ÜMB-də xüsusi çəkiləri (Azərbaycan, Bakı və regionlar; 2019)*




***Şəhərlərin Sahəvi diversifikasiya sub-indeksi,*** qeyd edildiyi kimi, bir qədər fərqli qayda ilə hesablanmışdır. Səbəb odur ki, burada iqtisadiyyat 4 deyil, 3 sektorla təmsil olunur. 2019-cu ilin statistik məlumatlarına görə, Naxçıvan, Sumqayıt, Gəncə, Şirvan və Mingəçevir şəhərlərində kənd təsərrüfatının ümumi məhsul buraxılışındakı payı 1%-i aşmamışdır. Ona görə də bu halda ilkin fərz belədir ki, şəhərlərdə iqtisadiyyatın ideal diversifikasiyası iqtisadi fəaliyyətin 3 sahə arasında – sənaye, tikinti və xidmət – bərabər paylanmasıdır – müvafiq olaraq, 34%, 33% və 33%.

Metodoloji prinsip eynidir: bu və ya digər şəhərdə bərabər paylanmadan toplam kənarlaşma nə qədər azdırsa, orada iqtisadiyyatın diversifikasiya səviyyəsi bir o qədər yüksəkdir. Mümkün olan minimal kənarlaşma, təbii ki, yenə də sıfıra bərabərdir, mümkün olan maksimal kənarlaşma isə fərqlidir (134). Alınmış nəticələr [0, 100] aralığına eyni düsturla gətirilmişdir.

*   *   *

Diversifikasiya səviyyəsini ölçmək üçün başqa göstəricilərdən də istifadə olunur. Bunların ən populyarı *Herfindahl-Hirschmann indeksidir (HHİ)*. İlkin olaraq inhisarçılıq və rəqabət səviyyəsini qiymətləndirmək üçün təklif edilmişdir, lakin diversifikasiyanın ölçülməsində də istifadə olunur. Bunun üçün ayrı-ayrı sahələrin iqtisadiyyatdakı payları (faiz ifadəsində) kvadrata yüksəldilib toplanır. Qiyməti 0-10000 arasında dəyişir. "Tam" şaxələndirilmiş iqtisadiyyatda HHİ sıfıra yaxınlaşır. Sahələrin sayının çoxluğu *HHİ*-ni kiçildir, azlığı (bir və ya bir neçə sahənin payının çoxluğu) isə böyüdür.

*Ogive indeksi* iqtisadiyyatın sahələrinin payı (vahidin sektorların sayına bölünməsi) əsasında hesablanır. Belə qəbul edilir ki, sahələrin payı bir-birinə nə qədər yaxındırsa, iqtisadiyyatın diversifikasiya səviyyəsi bir o qədər yüksəkdir. Fərqli düsturla hesablansa da, alınan nəticələr *HHİ* ilə alınanlarla təqribən eyni olur.

*Shannon Entropiya indeksi* isə məşğulluq paylarının özünün natural logarifmasına vurulan mənfi cəmi kimi hesablanır. Sahələrin sayı artdıqca və payları bir-birinə yaxınlaşdıqca indeksin qiyməti artır və əksinə, sahələrin sayı az (bir və ya bir neçə sahənin payı yüksək) olduqda isə indeksin qiyməti sıfıra yaxınlaşır.

Diversifikasiyanın qiymətləndirilməsi üçün istifadə olunan indekslər – istər sadalanan, istərsə də digərləri – eyni prinsipə əsaslanır. Bu, iqtisadiyyatın sahələr arasında bərabər paylanması prinsipidir. Ümumi ideya ondan ibarətdir ki, faktik paylanma bərabər (ideal) paylanmaya nə qədər yaxındırsa, diversifikasiya səviyyəsi bir o qədər yüksəkdir. Diversifikasiya indekslərinin hesablanmasında əksər hallarda məşğulluq göstəricilərindən istifadə olunur, lakin başqa göstəricilər də tətbiq oluna bilər. Azərbaycanda məşğulluğun xüsusiyyətlərini və statistik məlumatların əlçatarlığını nəzərə almaqla, bölgələrdə diversifikasiya səviyyəsini qiymətləndirmək üçün ən uğurlu göstərici ÜMB-dir.

Bu tədqiqatda təklif olunan metodologiya ən sadə yanaşma üzərində qurulmuşdur. Təhlil edilən 4 sahənin hərəsinin diversifikasiya baxımından "ideal payı" əvvəlcədən 25% olaraq götürülmüş, hər bölgə üçün bu sahələrin ideal paydan toplam kənarlaşması hesablanmış və indeksləşdirilmişdir. Hesablamalar yuxarıda sadalanan indekslər əsasında da aparılmışdır. Alınan nəticələr bir-birinə çox yaxındır.

## Çəkilərin müəyyən olunması

İqtisadi inkişaf və diversifikasiya səviyyəsinin kəmiyyətcə qiymətləndirilməsi zamanı mütləq nəzərə alınmalıdır ki, onu formalaşdıran sub-indekslərin əhəmiyyəti fərqlidir. Kompozit xarakterli sub-indekslərin özünü də formalaşdıran göstəricilərin

(alt-indekslərin) əhəmiyyəti eyni deyil. Ona görə də bu tipli digər araşdırmalarda olduğu kimi, burada da əksər ölçmələr xüsusi çəkilər əsasında aparılmışdır.

Çəkiləri müəyyən etmək üçün ölkənin iqtisadçı alimləri arasından araşdırılan məsələlər üzrə mütəxəssis sayıla biləcək və əsasən elmlər doktorlarından ibarət olan 24 ekspert seçilmişdir. Onların hər biri (ayrı-ayrılıqda) sorğu anketi doldurmaqla sub-indekslərə və birinci sub-indeksin komponentlərinə öz mülahizəsinə əsasən çəkilər vermişdir. Hesablamalarda sorğu anketlərində təklif olunan xüsusi çəkilərin sadə hesabi ortasından istifadə edilmişdir. Sub-indekslərə və alt-indekslərə verilmiş xüsusi çəkilərin hesabi ortası, maksimum və minimum qiymətləri *Cədvəl 1-də* təqdim edilir.

***Cədvəl 1. Sub-indekslərin və alt-indekslərin xüsusi çəkiləri (24 ekspert arasında sorğu əsasında, 2021)***

| Göstəricilər | Orta çəki | Minimum çəki | Maksimum çəki |
|---|---|---|---|
| ***1. İqtisadi inkişafın statik səviyyəsi sub-indeksi*** | ***0,59*** | 0,40 | 0,80 |
| *1.1. Adambaşına ümumi məhsul buraxılışı* | 0,35 | 0,20 | 0,54 |
| *1.2. İctimai əmək məhsuldarlığı* | 0,29 | 0,10 | 0,40 |
| *1.3. İqtisadi fəaliyyətdən adambaşına gəlir* | 0,36 | 0,20 | 0,60 |
| ***2. Sahəvi diversifikasiya sub-indeksi*** | ***0,41*** | 0,20 | 0,60 |

Beləliklə, İqtisadi inkişafın statik səviyyəsi sub-indeksi:

$$\text{İİSS}_i = 0{,}35*MB_i + 0{,}29*\text{Ə}M_i + 0{,}36*\text{İ}FG_i$$

düsturu ilə, Regional iqtisadi inkişaf və diversifikasiya indeksi isə:

$$\text{RİİDİ}_i = 0{,}59*\text{İİSS}_i + 0{,}41*SD_i$$

düsturu ilə hesablanmış və alınmış nəticələr əsasında ölkənin iqtisadi rayonları, respublika tabeli şəhərləri və inzibati rayonları çoxdan aza doğru sıralanmışdır.

# *İQTİSADİYYATIN ƏRAZİ STRUKTURU: SADƏ STATİSTİK TƏHLİL*

## Bakı və digər bölgələr

Əhalinin, istehsalın, gəlirlərin Bakı şəhəri və digər regionlar üzrə paylanmasında, təəssüf ki, ciddi disproporsiyalar yaranmışdır. Bakıda ölkə əhalisinin təxminən beşdə biri yaşayır (rəsmi statistikaya görə, 2019-cu ildə 22,8%).* Ölkədə məhsul buraxılışının isə üçdə ikisindən çoxu (69,4%-i) Bakının və yalnız 30,6%-i Naxçıvan MR də daxil olmaqla bütün yerdə qalan bölgələrin payına düşür *(Diaqram 2)*. Bakıda əhali sayı qalan regionlardakından 3,4 dəfə az, məhsul buraxılışı isə 2,3 dəfə artıqdır.

İqtisadiyyatda məşğul olanların paylanması ilə əhalinin paylanması təxminən eynidir: məşğul əhalinin 24,1%-i Bakının payına düşür. İctimai əmək məhsuldarlığı Bakıda digər regionlara nisbətən 7,1 dəfə, ölkə üzrə orta göstəricidən isə 2,9 dəfə yuxarıdır. Əlbəttə, neft hasilatının aşağı əməktutumlu sahə olması burada əsas təsiredici amildir, amma deyilənlər, bütün hallarda, iqtisadiyyatın ölkə ərazisi üzrə paylanmasında ciddi problemlərin olduğuna işarədir.

---

* Doğrudur, ayrı-ayrı mütəxəssislərin qiymətləndirmələrinə görə, Bakıda məskunlaşmış əhalinin real sayı rəsmi statistikanın dediyindən çoxdur. Lakin bu artıqlıq əhalinin paylanması ilə istehsalın paylanması arasındakı qeyri-mütənasibliyi dəyişəcək qədər deyil.

**Diaqram 2. Əhali, məşğul əhali, ÜMB, əhali gəlirləri, sahibkarlıq subyektləri (Bakı və digər bölgələr, müvafiq ümumi göstəricidə paylar, 2019, %)**




Sahibkarlıq, məlum olduğu kimi, azad iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindəndir. Azərbaycanda bütün məhsul və xidmətlərin 21%-i mikro, kiçik və orta (MKO) sahibkarlıq subyektləri tərəfindən istehsal olunur. Bunların sayı ilə istehsal etdikləri məhsul və xidmətlərin həcmini müqayisə etdikdə aydın olur ki, Bakı ilə yerdə qalan regionlar arasındakı qeyri-mütənasibliyi yalnız neft amili ilə izah etmək doğru deyil. MKO sahibkarlıq subyektlərinin 52,1%-i (mikro – 52,6%, kiçik – 32,4%, orta – 39,6%) digər bölgələrdə yerləşdiyi halda, sektorun ümumi məhsul buraxılışının 64,3%-i (mikro sahibkarlıq üzrə – 55,4%, kiçik sahibkarlıq üzrə –74,5%, orta sahibkarlıq üzrə – 68,7%) Bakı MKO sahibkarlıq subyektlərinin payına düşür. Prinsipcə, paytaxtın (və eyni zamanda ölkənin əsas iqtisadi mərkəzinin) sahibkarlar üçün daha cazibədar olması dünyanın əksər ölkələrinə xasdır. Bazarın həcmi, infrastrukturun (xüsusilə logistik xidmətlərin) daha yüksək səviyyəsi, hətta təhsil və səhiyyə xidmətlərinin belə, daha üstün səviyyədə təşəkkül tapması sahibkarlar üçün çox mühümdür. Çıxarıla biləcək (və ya çıxarılmalı olan) nəticə odur ki, bölgələrimizin sahibkarlar üçün daha cazibədar olmasına çalışmalıyıq.

## İqtisadi rayonlar

Bölgələrimizin iqtisadi inkişafı arasında da bəzi disproporsiyalar mövcuddur *(Diaqram 3)*.* Əlbəttə, bunların ilkin səbəbi odur ki, iqtisadi rayonların ərazisi və onlara daxil olan inzibati rayonların sayı təbii surətdə fərqlənir. Müvafiq olaraq, əhali ölkə ərazisi üzrə – hətta Bakını bir kənara qoysaq belə – qeyri-bərabər paylanmışdır. Əhalinin 55,1%-i cəmi 3 iqtisadi rayonda (Aran – 26,3%, Gəncə-Qazax – 16,7% və Lənkəran – 12,2%) cəmləşmişdir. Qalan 7 iqtisadi rayonun payına əhalinin 44,9%-i düşür. Aran və Gəncə-Qazax iqtisadi rayonlarında respublika tabeli 3 şəhər yerləşir – Gəncə, Mingəçevir və Şirvan. Abşeron iqtisadi rayonunda əhalinin təxminən 60%-i Sumqayıt şəhərində, Gəncə-Qazax iqtisadi rayonunda isə 26%-i Gəncə şəhərində məskunlaşmışdır. İqtisadi rayonlar arasında ərazi və əhali fərqləri elə bir biçimdədir ki, onların iqtisadiyyatını müqayisə etmək o qədər də uğurlu (konstruktiv) bir iş deyil. Lakin ümumi mənzərəni görməkdə fayda var.

***Diaqram 3. Əhali, məşğul əhali, ÜMB (iqtisadi rayonlar, Bakısız, 2019, müvafiq ümumi göstəricidə paylar, %)***




---

* Bu yarımbölmədəki statistik göstəricilər, əgər xüsusi qeyd yoxdursa, Bakı şəhəri nəzərə alınmamaqla hesablanmışdır.

Hər şeydən əvvəl, bütün iqtisadi rayonlarda əhalinin və məşğulların payları bir-birinə çox yaxındır. Bu, yaxşı əlamətdir və onu göstərir ki, əhaliyə nisbətdə iş yerlərinin sayı hər yerdə təxminən bərabərdir. Bir tərəfdə əhali və məşğul əhalini, digər tərəfdə isə ümumi məhsul buraxılışını götürdükdə, ikincinin xeyrinə ən böyük "daxili" fərq Abşeron və Naxçıvan iqtisadi rayonlarında müşahidə olunur. Bu bölgələrdə iqtisadiyyat daha effektivdir. Bəzi bölgələrdə isə (xüsusilə Lənkəran iqtisadi rayonunda) məhsul buraxılışının xüsusi çəkisi əhalinin və məşğulların payından geridir. Eyni sözləri Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları haqqında da demək olar, amma bu halda təəccüb doğuracaq bir şey yoxdur: həmin bölgələrimizin əsas hissəsində iqtisadiyyat hələ indi qurulmağa başlayır.

Məhsul buraxılışının çox hissəsi (73,1%-i) 4 bölgəmizdə (Aran, Abşeron, Gəncə-Qazax və Naxçıvan iqtisadi rayonlarında) cəmləşmişdir. Qalan 6 iqtisadi rayon isə məhsul və xidmətlərin cəmi 26,9%-ni istehsal edir. İqtisadiyyatın nisbi həcmi ("sıxlığı") şəhərlərdə, təbii ki, daha yüksəkdir. Aran iqtisadi rayonunda ÜMB-nin 18,2%-i Mingəçevir və Şirvan şəhərlərinin, Abşeron iqtisadi rayonunda 78,6%-i Sumqayıt şəhərinin, Gəncə-Qazax iqtisadi rayonunda 24,1%-i Gəncə şəhərinin payına düşür. Ümumən, regionlar üzrə ümumi məhsul buraxılışının 29,9%-i respublika tabeli 5 şəhərin payına düşür. Bakını da nəzərə alsaq, ölkə üzrə ÜMB-nin 78,6%-i iri şəhərlərdə istehsal olunur. Göründüyü kimi, ÜMB şəhərlərlə inzibati rayonlar arasında çox qeyri-bərabər paylanır. Başqa sözlə, iqtisadiyyatın ərazi üzrə tarazlı inkişafını təmin etmək üçün hələ xeyli iş görülməlidir.

Əhali gəlirləri iqtisadiyyatın inkişaf səviyyəsindən və sahə strukturundan törəmədir. Ona görə də qeyd olunmuş qeyri-mütənasibliklərin gəlirlərin paylanmasında da əksini tapması çox təbiidir.

# *NƏTİCƏLƏRİN TƏHLİLİ: İQTİSADİ İNKİŞAFIN STATİK SƏVİYYƏSİ SUB-İNDEKSİ*

Həm Regional iqtisadi inkişaf və diversifikasiya indeksi üzrə, həm də onun sub-indeksləri üzrə təhlil 3 səviyyədə – iqtisadi rayonlar, respublika tabeli şəhərlər və inzibati rayonlar – aparılır.

## İİSS sub-indeksi – iqtisadi rayonlar

İqtisadi inkişafın faktik səviyyəsinə görə, Abşeron iqtisadi rayonlar arasında birinci yerdədir. Sub-indeksi formalaşdıran 3 göstərici üzrə təhlildən öncə qeyd edək ki, bu nəticənin əldə edilməsində Abşeron iqtisadi rayonunun Bakıya ən yaxın bölgə olmasının böyük rolu var. Üstəlik, bu rayonun tərkibindəki Sumqayıtın ölkənin ikinci böyük sənaye şəhəri olması da çox əhəmiyyətlidir: ölkənin sənaye məhsulunun 4,2%-i, Bakısız saydıqda isə 26,6%-i Sumqayıtda istehsal olunur. Sıralamada ilk iki sətri tutan Abşeron və Naxçıvan üçüncü yerdə qərarlaşmış Quba-Xaçmaz iqtisadi rayonunu böyük fərqlə qabaqlayır *(Cədvəl 2)*.

Abşeron iqtisadi rayonu sub-indeksin iki göstəricisinə görə birinci, bir göstəricisinə görə (iqtisadi fəaliyyətdən adambaşına gəlir) ikinci yerdədir. Naxçıvanla onun göstəriciləri "güzgü əksi" kimidir: Naxçıvan bu göstəriciyə görə birinci, digər iki göstəriciyə görə isə (adambaşına ÜMB və bir məşğula düşən ÜMB) ikinci yerdə qərarlaşmışdır. Abşeron iqtisadi rayonunun ümumi məhsulunda sənayenin və xidmətlərin payı yüksəkdir, bu sektorlar isə kənd təsərrüfatına nisbətən daha çox əlavə dəyər yaradır və daha gəlirlidir. Ölkə əhalisinin 5,7%-i (Bakısız saydıqda 7,4%-i), ölkə üzrə ümumi məhsul buraxılışının 5,8%-i (Bakısız saydıqda 18,8%-i), ölkə üzrə iqtisadiyyatda məşğul olanların 5,7%-i (Bakısız saydıqda 7,6%-i), ölkə üzrə əhalinin iqtisadi fəaliyyətdən gəlirlərinin 4,3%-i (Bakısız saydıqda 10,4%-i) Abşeron iqtisadi rayonunun payına düşür.

*Cədvəl 2. İİSS sub-indeksi və onun alt-indeksləri (iqtisadi rayonlar, 2019)*

| Yer | İqtisadi rayonlar | İİSS sub-indeksi | Alt-indekslər (Aİ) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Adambaşına ÜMB | | İctimai əmək məhsuldarlığı | | İqtisadi fəaliyyətdən gəlir | |
| | | | Yer | ÜMB | Yer | İƏM | Yer | İFG |
| 1. | Abşeron | 35,21 | 1 | 36,94 | 1 | 41,59 | 2 | 28,39 |
| 2. | Naxçıvan | 31,65 | 2 | 31,51 | 2 | 32,19 | 1 | 31,35 |
| 3. | Quba-Xaçmaz | 18,94 | 3 | 15,39 | 3 | 18,06 | 3 | 23,10 |
| 4. | Aran | 18,15 | 4 | 14,71 | 4 | 17,19 | 5 | 22,26 |
| ***İqtisadi rayonlar üzrə orta göstərici*** | | ***16,96*** | | ***14,88*** | | ***16,64*** | | ***19,25*** |
| 5. | Dağlıq Şirvan | 16,87 | 6 | 12,74 | 5 | 14,81 | 4 | 22,55 |
| 6. | Gəncə-Qazax | 16,50 | 5 | 12,81 | 6 | 13,98 | 6 | 22,12 |
| 7. | Şəki-Zaqatala | 15,18 | 7 | 11,98 | 7 | 13,08 | 7 | 19,99 |
| 8. | Lənkəran | 11,87 | 8 | 7,67 | 8 | 9,14 | 8 | 18,15 |
| 9. | Yuxarı Qarabağ | 3,82 | 9 | 3,64 | 9 | 4,69 | 9 | 3,30 |
| 10. | Kəlbəcər-Laçın | 1,44 | 10 | 1,44 | 10 | 1,68 | 10 | 1,25 |

Digər iqtisadi rayonlarla müqayisədə Abşeronda urbanlaşma səviyyəsi daha yüksəkdir, iqtisadi və sosial infrastruktur daha yaxşı inkişaf etmişdir; burada ali mək-

təblər və peşə təhsili müəssisələri var, texnoparklar fəaliyyət göstərir. Bakını nəzərə almasaq, ölkədə əsas kapitala yönəldilmiş investisiyaların 33,1%-i Abşeron iqtisadi rayonunun payına düşür. Bütün bu amillər Abşeronun liderliyini şərtləndirmişdir.

Bir iqtisadi rayon kimi Naxçıvanın öz üstünlükləri var. Naxçıvan – Muxtar Respublikadır və bu siyasi status ona bir sıra iqtisadi üstünlüklər verir. Üstəlik, ölkənin əsas ərazisindən kənarda yerləşdiyinə və Ermənistanın düşmənçilik siyasəti üzündən yarımblokada vəziyyətində olduğuna görə Azərbaycan dövləti özünün bütün imkanlarından istifadə edərək, Naxçıvana iqtisadi cəhətdən kömək etməlidir və edir. 2019-cu ildə Azərbaycan dövlət büdcəsindən Naxçıvan MR-ə 300,3 mln. manat (bir nəfərə 655,9 manat) dotasiya ayrılmışdır. Bu, qalan regionlara ayrılan dotasiyaların toplam həcmindən 2,8 dəfə çoxdur. Dotasiyaların böyük hissəsi investisiya təyinatlı olur, bir çox hallarda infrastrukturun inkişafına yönəldilir, əlavə iş yerləri yaratmağa imkan verir və təbii ki, məhsul buraxılışını, məşğulluğu və gəlirləri artırır. Bura onu da əlavə etmək lazımdır ki, Naxçıvan MR əsas kapitala yönəldilmiş investisiyaların həcminə görə yalnız Abşerondan geri qalır (13,5%).*

II Qarabağ müharibəsində Azərbaycanın şanlı qələbəsinin nəticəsi olaraq Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış birgə bəyanata əsasən, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkəti üçün nəqliyyat əlaqəsi yaradılacaqdır. Bu qərar bütövlükdə Azərbaycan, o cümlədən Naxçıvan MR üçün, heç şübhəsiz, tarixi əhəmiyyətə malikdir və əminliklə söyləmək olar ki, Naxçıvanın iqtisadi inkişafına yeni təkan verəcəkdir.

Abşeronda Sumqayıtın yerinə yetirdiyi funksiyanı Naxçıvan iqtisadi rayonunda Naxçıvan şəhəri (və hətta daha uğurla) yerinə yetirir və iqtisadi inkişaf səviyyəsini səciyyələndirən göstəricilər toplusuna görə şəhərlər arasında liderdir.

İqtisadi rayonların İİSS üzrə reytinqində Quba-Xaçmaz iqtisadi rayonu 18,94 balla 3-cü, Aran iqtisadi rayonu 18,15 balla 4-cü yerləri tutur. Bu iqtisadi rayonların aldığı qiymətlər sub-indeks üzrə orta göstəricidən (16,96) bir qədər yüksəkdir. Qalan 6 iqtisadi rayonun sub-indeks qiymətləri orta göstəricidən aşağıdır. Bir daha qeyd et-

* İqtisadi və inzibati rayonlara Dövlət büdcəsindən ayrılan dotasiyaların nisbi göstəriciləri *Əlavə 7*-də verilmişdir.

mək lazım gəlir ki, reytinqdə sonuncu yerləri tutan Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarının tədqiqata cəlb edilməsi simvolik məna daşıyır.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan inzibati rayonların heç birinin Dövlət büdcəsindən dotasiya almadığını nəzərdə tutmaqla demək mümkündür ki, onun üçüncü yerdə olması kifayət qədər yüksək nəticədir. Bu nisbətən kiçik iqtisadi rayondur. Əhalisinə görə iqtisadi rayonlar arasında 7-ci yerdədir, amma ÜMB göstəricisinə görə 5-ci yeri tutur. Bakı və Abşeronla qonşuluğu, beynəlxalq avtomagistral nəqliyyat yolunun böyük hissəsinin bu iqtisadi rayonun ərazisindən keçməsi ona əlavə üstünlüklər qazandırır. Bu bölgənin gələcək iqtisadi inkişafına meyvəçiliyin genişlənməsi, malik olduğu yay və qış turizmi potensialından daha səmərəli istifadə edilməsi ciddi töhfə verə bilər.

Reytinqin 4-cü sətrindəki Aran iqtisadi rayonu isə həm ərazisinə, həm də əhalisinə görə, əksinə, ölkənin ən böyük iqtisadi rayonudur. İqtisadi rayonların toplam əhalisinin, ümumi məhsul buraxılışının, məşğulluğun, gəlirlərin dörddə biri onun payına düşür. Ölkədə elektrik enerjisinin 60%-i bu iqtisadi rayonda istehsal edilir. Kür və Araz çaylarının böyük hissəsi onun ərazisindən keçir və bu ona kənd təsərrüfatı sahələrinin suvarılması, məhsuldarlığın artırılması sahəsində əlavə üstünlük gətirir.

Onun tərkibindəki inzibati rayonlara Dövlət büdcəsindən ayrılan dotasiya nisbətən azdır: 2019-cu ildə iqtisadi rayonlara (yəni onların tərkibindəki inzibati rayonlara) ayrılmış dotasiyaların 7,3%-i qədər. Aran iqtisadi rayonuna daxil olan 16 inzibati rayon və respublika tabeli şəhərdən həmin il yalnız ikisi (Zərdab və Ucar) dotasiya almışdır. İqtisadi rayonun "özünü dolandıra" bilməsi, əlbəttə, son dərəcə vacibdir.

Reytinqdə 5-ci yerdəki Dağlıq Şirvan iqtisadi rayonu da miqyası etibarilə kiçikdir və cəmi 4 inzibati rayondan ibarətdir. 2019-cu ildə onların 2-si (Ağsu və Qobustan) büdcədən dotasiya almış, Dövlət büdcəsindən ayrılan dotasiyaların 3,4%-i onların payına düşmüşdür. Dotasiyaların xərc maddələri üzrə strukturunun təhlili bu barədə daha dəqiq təsəvvür yarada bilərdi, amma bunsuz da ehtimal etmək olar ki, iqtisadi fəaliyyətdən adambaşına gəlir üzrə Dağlıq Şirvanın orta göstəricini 11% üstələməsi (digər iki göstəriciyə görə isə orta göstəricilərdən elə təxminən həmin qədər geridir) həm də bu amilə bağlıdır. Dağlıq Şirvanda iqtisadi potensiala mənfi təsir göstərən amillər arasında ərazisinin böyük hissəsinin əkinə yararsız torpaqlardan ibarət olması və ciddi su qıtlığı xüsusi yer tutur.

Gəncə-Qazax iqtisadi rayonuna (6-cı yer) daxil olan 2 şəhər və 9 inzibati rayonun çoxu dotasiya ilə "dolanır". Bu "siyahıda" yalnız Gəncə və Naftalan şəhərləri, bir də Qazax rayonu yoxdur *(Diaqram 4)*.

Göründüyü kimi, Tovuzda dotasiyalar yerli büdcənin təxminən üçdə biri, Şəmkirdə yarısı qədərdir, 2 rayonda (Daşkəsən və Göygöl) yarısından artıqdır, 3 rayonda (Ağstafa, Gədəbəy və Samux) təxminən yerli büdcə həcmindədir, Goranboyda isə hətta ondan da çoxdur. Ümumən, 2019-cu ildə Dövlət büdcəsindən regionlara ayrılan dotasiyaların təxminən üçdə biri (31,9%-i) Gəncə-Qazax iqtisadi rayonunun payına düşmüşdür. Bu iqtisadi rayon öz inkişafını daxili imkanları hesabına hələ təmin edə bilmir.

***Diaqram 4. Dövlət büdcəsindən alınan dotasiyaların yerli büdcələrdə xüsusi çəkisi (Gəncə-Qazax iqtisadi rayonu, 2019, %)***




Bu həm də ona görə təəccüblüdür ki, Gəncə-Qazax iqtisadi rayonu Gürcüstanla sərhəddə yerləşir, onun ərazisindən beynəlxalq dəmiryolu xətti və avtomagistral keçir, bölgə yaxşı turizm potensialına malikdir, ərazisində universitet və elmi tədqiqat müəssisələri, kollec və peşə təhsili müəssisələri vardır və bütün bunlar ona əlavə üstünlüklər verir. Əsas kapitala investisiyaların 11,6%-i Gəncə-Qazax iqtisadi rayonunun payına düşür. Əks təsirli amillər də vardır. Ermənistanla həmsərhəd olması, Qazaxın bir sıra kəndlərinin işğal altında qalması, davamlı hərbi gərginlik regionun inkişafı qarşısında maneə sayıla bilər.

Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarını saymasaq, İİSS üzrə reytinqdə sonuncu yerləri Lənkəran və Şəki-Zaqatala iqtisadi rayonları tutur. Dövlət büdcəsindən əhəmiyyətli həcmdə dotasiyalar almalarına baxmayaraq, bu iqtisadi rayonların "autsayderliyi" yalnız təəssüf deyil, həm də təəccüb doğurur: məlumdur ki, onların hər ikisi çox qədim istehsal və ticarət ənənələrinə malikdir, hər ikisinin əhalisi

iqtisadi cəhətdən fəal və təşəbbüskardır. Görünür, əsas səbəb iqtisadi fəaliyyətin təşkili və strukturu ilə bağlıdır.

## İİSS sub-indeksi – respublika tabeli şəhərlər

Qeyd edildiyi kimi, bu araşdırmaya yalnız 5 respublika tabeli şəhər daxil edilmişdir: Gəncə, Mingəçevir, Naxçıvan, Sumqayıt və Şirvan. Bu şəhərlərin İİSS üzrə orta göstəricisi (40,84) iqtisadi rayonlar üzrə olduğundan (16,96) çox yuxarıdır *(Cədvəl 3)*. Bu fakt urbanlaşma ilə iqtisadi inkişaf arasında bağlılığı bir daha təsdiqləyir.

***Cədvəl 3. İİSS sub-indeksi və onun alt-indeksləri (respublika tabeli şəhərlər, 2019)***

| *Yer* | *Şəhərlər* | *İİSS sub-indeksi* | *Alt-indekslər (Aİ)* | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | *Adambaşına ÜMB* | | *İctimai əmək məhsuldarlığı* | | *İqtisadi fəaliyyətdən gəlir* | |
| | | | *Yer* | *ÜMB* | *Yer* | *İƏM* | *Yer* | *İFG* |
| 1. | Naxçıvan | 80,68 | 1 | 80,34 | 1 | 82,05 | 1 | 79,91 |
| 2. | Sumqayıt | 44,33 | 2 | 48,48 | 2 | 55,09 | 2 | 31,62 |
| ***Şəhərlər üzrə orta göstərici*** | | ***40,84*** | | ***39,86*** | | ***42,83*** | | ***40,18*** |
| 3. | Şirvan | 37,61 | 3 | 39,47 | 3 | 42,96 | 3 | 31,49 |
| 4. | Mingəçevir | 22,98 | 4 | 19,14 | 4 | 21,09 | 5 | 28,23 |
| 5. | Gəncə | 18,59 | 5 | 11,87 | 5 | 12,97 | 4 | 29,66 |

Respublika tabeli şəhərlər arasında İİSS üzrə lider Naxçıvandır, özü də digər şəhərləri çox ciddi bir biçimdə qabaqlayır. Onun İİSS sub-indeksi şəhərlər üzrə orta göstəricidən 2 dəfə artıqdır. Naxçıvan digər şəhərləri İİSS sub-indeksinin alt-indeksləri üzrə də, təbii ki, üstələyir. Reytinqə daxil edilən şəhərlərin ümumi əhalisinin cəmi 9,7%-nin yaşadığı Naxçıvanda şəhərlərin toplam məhsul və xidmətlərinin 22,4%-i is-

tehsal olunur, əhali gəlirlərinin 19,2%-i, iqtisadi fəaliyyətdən gəlirlərin 22,1%-i onun payına düşür.

Naxçıvan şəhərinin digərlərindən bu qədər fərqlə önə çıxması bir sıra amillərlə bağlıdır. Bunların çoxu Naxçıvan iqtisadi rayonunun üstünlükləri şərh edilərkən sadalananlarla üst-üstə düşür. Əlavə olaraq qeyd etmək lazımdır ki, Naxçıvan şəhəri Naxçıvan MR-in paytaxtı olduğu üçün Muxtar Respublikanın idarəetmə orqanları və aparıcı təsərrüfat subyektləri burada cəmləşmişdir. Şəhərdə universitetlər, kollec və peşə liseyləri (3 ali məktəb, 4 orta-ixtisas məktəbi, C.Naxçıvanski adına Hərbi liseyin filialı, İncəsənət kolleci) nisbətən daha çoxdur.

Üstəlik o da var ki, ölkənin Dövlət büdcəsindən Naxçıvan MR-ə ayrılan dotasiyaların böyük hissəsi bu şəhərin payına düşür. Aydın məsələdir ki, burada iqtisadi fəallıq da Muxtar Respublikanın digər şəhərlərinə nisbətən yüksəkdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Muxtar Respublikada əsas kapitala qoyulan investisiyaların 66,6%-i Naxçıvan şəhərində yatırılır. Bu, böyük rəqəmdir və adambaşına təqribən 7250 manat investisiya deməkdir.

Araşdırılan 5 respublika tabeli şəhərdə əsas kapitala investisiyaların və pərakəndə ticarət dövriyyəsinin müqayisəsi *Diaqram 5-də* göstərilmişdir.

Bir çox iqtisadi göstəricilərinə görə ölkənin ikinci şəhəri olan Sumqayıt İİSS üzrə reytinqdə də 2-ci yerdədir. Bunu şərtləndirən bəzi amillər haqqında yuxarıda artıq deyilmişdir. Əsas məsələlərdən biri odur ki, Sumqayıt indi Bakının "peyk-şəhəridir". Bu iki şəhərin iqtisadiyyatı sanki "birləşmiş qablar qanunu" əsasında fəaliyyət göstərir. Bir çox Sumqayıtlılar Bakıda, Bakı sakinləri isə Sumqayıtda işləyir. Bakı sahibkarları üçün Sumqayıt ən əlçatar investisiya məkanlarındandır. Azərbaycanın kimya

***Diaqram 5. Əsas kapitala investisiyalar və pərakəndə ticarət dövriyyəsi (2019, respublika tabeli 5 şəhər, adambaşına, manat)***



sənayesi mərkəzi kimi tanınır. Yaxşı inkişaf etmiş sosial-iqtisadi infrastruktura malikdir. Burada çoxsaylı təhsil müəssisələri (o cümlədən Sumqayıt Dövlət Universiteti), texnoparklar (Texnologiyalar Parkı, Kimya Sənaye Parkı, Azərsun Sənaye Parkı), elmi-tədqiqat müəssisələri (o cümlədən AMEA Polimer Materialları İnstitutu) yerləşir.

Abşeron iqtisadi rayonunda əsas kapitala yönəldilən investisiyaların 86,1%-i Sumqayıt şəhərində yatırılır. Bu, şəhər əhalisinin hər nəfərinə 6300 manatdan artıq sərmayə yatırımı deməkdir. Naxçıvan şəhərində adambaşına investisiyalar bundan bir qədər artıqdır, lakin nəzərə almaq lazımdır ki, Sumqayıt şəhəri Dövlət büdcəsindən dotasiya almır və özünütəminetmə gücünə malikdir.

Araşdırılan respublika tabeli şəhərlərin ən kiçiyi Şirvandır (3-cü yer). Əhalisi 100 min nəfərdən azdır. İqtisadiyyatında əsas yeri sənaye müəssisələri tutur. 4-cü yerdəki Mingəçevir də sənaye şəhəridir və ölkənin əsas elektrik enerjisi istehsalçısıdır.

Respublika tabeli şəhərlərin İİSS üzrə reytinqində ölkənin ikinci ən böyük şəhəri olan Gəncənin sonuncu yerə düşməsi bir qədər gözlənilməz sayıla bilər. Araşdırılan şəhərlər arasında ümumi məhsul buraxılışının həcminə görə 3-cü, digər iki göstəriciyə görə isə 2-ci yerdədir, lakin bu göstəricilər adambaşına hesablandıqda geriyə düşür. Sub-indeks göstəricisi lider Naxçıvanınkından 4,1 dəfə, şəhərlər üzrə orta göstəricidən 2 dəfədən çox aşağıdır. İİSS üzrə reytinq həm də onu göstərir ki, Gəncənin təbii-coğrafi üstünlüklərini, resurs potensialını daha dolğun reallaşdırmaq üçün böyük imkanlar vardır.

## İİSS sub-indeksi – inzibati rayonlar

İqtisadi rayonların və xüsusilə də respublika tabeli şəhərlərin sayca az olması onların arasında İİSS sub-indeksi üzrə aparılan müqayisələrə müəyyən məhdudiyyətlər gətirir. Həm iqtisadi rayonların, həm də şəhərlərin sub-indeks üzrə sıralanması ilə onun alt-indeksləri üzrə sıralanmalar, bəzi kiçik fərqlərə baxmayaraq, praktik surətdə üst-üstə düşür. Bunun əsas səbəbi odur ki, sub-indeksi formalaşdıran göstəricilər eyniyönlüdür və bir-birindən asılıdır. Amma müqayisə edilən ərazilərin sayı və rənga-

rəngliyi artdıqca bu asılılıq nisbətən zəifləyir. Bu mənada demək olar ki, inzibati rayonlar üzrə reytinq ortaya daha maraqlı nəticələr çıxarır.

Qeyd edildiyi kimi, bu araşdırmada müqayisələr 67 inzibati rayon üzrə aparılmışdır. İİSS sub-indeksi üzrə nəticələri əks etdirən cədvəl böyük alındığına görə iki hissəyə bölünmüşdür: İİSS sub-indeksi üzrə orta göstəricidən yuxarı nəticə göstərən rayonlar *Cədvəl 4-də*, aşağı nəticə göstərənlər isə *Cədvəl 5-də* verilmişdir.

İİSS sub-indeksi üzrə reytinqin ilk onluğunda Abşeron iqtisadi rayonunun 1 inzibati rayonu (Xızı), Quba-Xaçmaz iqtisadi rayonunun 1 (Siyəzən), Naxçıvan iqtisadi rayonunun 3 (Babək, Şahbuz, Şərur), Aran iqtisadi rayonunun 3 (Kürdəmir, Hacıqabul, İmişli), Gəncə-Qazax iqtisadi rayonunun 2 (Naftalan, Daşkəsən) inzibati rayonu yer almışdır. Alt-indekslərə görə sıralamada birinci onluqda yer alan bəzi rayonlar sub-indeks üzrə reytinqdə ilk onluğa düşməmişdir. Bunlar adambaşına ÜMB üzrə sıralamada birinci onluğa düşmüş Kəngərli rayonu, İFG alt-indeksinə görə ilk onluqda yer tutmuş Göyçay, Ağdaş, Quba, Şamaxı, Bərdə, Neftçala və Yevlax rayonlarıdır. Şabran və Gədəbəy rayonları həm adambaşına ÜMB, həm də İƏM alt-indeksləri üzrə sıralamalarda ilk onluğa düşmələrinə baxmayaraq, İİSS sub-indeksi üzrə reytinqdə birinci onluqda yer tuta bilməmişdir.

İİSS sub-indeksi üzrə lider Xızı rayonudur. Xızı həm adambaşına ÜMB, həm də İƏM alt-indeksləri üzrə sıralamalarda birincidir. Bunun əsas səbəbi, görünür, odur ki, əsas kapitala investisiya qoyuluşuna (adambaşına) görə Xızı ölkədə ən yüksək göstəriciyə (8234 manat) malikdir. Bununla bərabər, araşdırılan rayonlar arasında, Naftalan şəhərini saymasaq, əhalisinə görə ən kiçik rayondur və bu, adambaşına göstəricilərə təsirsiz ötüşmür. Burada iqtisadi inkişafın qalıcımı, yoxsa keçicimi olacağını müəyyənləşdirmək üçün bu investisiyaların strukturunu bilmək faydalı olardı.

Maraqlıdır ki, İFG alt-indeksinə görə Xızı 42-ci yerdədir: rayonda orta aylıq nominal əməkhaqqı cəmi 361 manatdır. Bu, ölkənin inzibati rayonları arasında 49-cu nəticədir. Çıxarıla biləcək nəticələrdən biri belədir ki, İİSS üzrə ölkə lideri olan Xızıda iqtisadi inkişaf özünün əsas funksiyasını – insanlara gəlir gətirmək funksiyasını tam həcmdə yerinə yetirə bilmir. Əlbəttə, o da ola bilər ki, Xızıda əhalinin qeyri-formal gəlirləri (gəlirlərin rəsmiləşməyən hissəsi) digər rayonlara nisbətən daha çoxdur, amma

*Cədvəl 4. İİSS sub-indeksi və onun alt-indeksləri (İİSS üzrə orta göstəricidən yüksək nəticə göstərmiş inzibati rayonlar, 2019)*

| Yer | İqtisadi rayonlar | İİSS sub-indeksi | Alt-indekslər (alt-indeks üzrə yer) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Adambaşına ÜMB | | İctimai əmək məhsuldarlığı | | İqtisadi fəaliyyətdən adambaşına gəlir | |
| | | | Yer | ÜMB | Yer | İƏM | Yer | İFG |
| 1 | Xızı | 42,11 | 1 | 57,48 | 1 | 54,83 | 42 | 16,93 |
| 2 | Siyəzən | 27,06 | 2 | 29,46 | 2 | 32,74 | 24 | 20,14 |
| 3 | Kürdəmir | 23,82 | 13 | 18,20 | 7 | 21,26 | 2 | 31,35 |
| 4 | Hacıqabul | 22,89 | 11 | 18,64 | 5 | 22,40 | 8 | 27,40 |
| 5 | Daşkəsən | 22,83 | 3 | 25,36 | 3 | 25,04 | 32 | 18,59 |
| 6 | Naftalan | 21,15 | 36 | 11,82 | 45 | 11,15 | 1 | 38,26 |
| 7 | Şahbuz | 20,89 | 4 | 20,80 | 8 | 21,24 | 21 | 20,69 |
| 8 | Babək | 20,68 | 5 | 20,59 | 9 | 21,02 | 22 | 20,49 |
| 9 | İmişli | 20,08 | 9 | 19,06 | 6 | 22,20 | 29 | 19,36 |
| 10 | Şərur | 19,68 | 7 | 19,59 | 11 | 20,00 | 28 | 19,49 |
| 11 | Göyçay | 19,40 | 28 | 12,51 | 26 | 14,66 | 4 | 29,91 |
| 12 | Xaçmaz | 19,39 | 19 | 15,14 | 17 | 17,90 | 11 | 24,73 |
| 13 | Kəngərli | 19,39 | 8 | 19,31 | 12 | 19,71 | 30 | 19,21 |
| 14 | Şabran | 19,38 | 6 | 20,11 | 4 | 23,87 | 49 | 15,05 |
| 15 | Ağdaş | 19,36 | 32 | 12,24 | 29 | 14,35 | 3 | 30,31 |
| 16 | Biləsuvar | 19,34 | 17 | 15,81 | 14 | 19,27 | 13 | 22,83 |
| 17 | Abşeron | 19,22 | 16 | 16,70 | 16 | 18,78 | 15 | 22,02 |
| 18 | Gədəbəy | 18,88 | 10 | 19,00 | 10 | 20,33 | 40 | 17,60 |
| 19 | Quba | 18,87 | 27 | 12,53 | 24 | 15,15 | 5 | 28,03 |
| 20 | Sədərək | 18,55 | 12 | 18,48 | 15 | 18,86 | 34 | 18,38 |
| 21 | Şamaxı | 18,28 | 35 | 11,88 | 30 | 14,33 | 7 | 27,68 |
| 22 | Bərdə | 18,08 | 37 | 11,78 | 34 | 13,47 | 6 | 27,93 |
| 23 | Neftçala | 17,46 | 31 | 12,25 | 33 | 13,67 | 10 | 25,58 |
| 24 | Şəmkir | 17,28 | 21 | 14,08 | 20 | 16,54 | 18 | 20,99 |
| 25 | Qobustan | 17,24 | 15 | 16,74 | 13 | 19,38 | 46 | 16,00 |
| 26 | Ağcabədi | 17,09 | 20 | 14,41 | 18 | 17,27 | 27 | 19,54 |
| 27 | Culfa | 16,86 | 14 | 16,79 | 19 | 17,14 | 43 | 16,70 |
| 28 | Qəbələ | 16,69 | 23 | 13,29 | 22 | 15,29 | 17 | 21,13 |
| 29 | İsmayıllı | 16,61 | 26 | 12,67 | 28 | 14,40 | 14 | 22,22 |
| 30 | Yevlax | 15,67 | 51 | 9,04 | 49 | 10,69 | 9 | 26,13 |
| 31 | Ordubad | 15,55 | 18 | 15,48 | 21 | 15,80 | 48 | 15,40 |
| 32 | Sabirabad | 15,05 | 29 | 12,33 | 25 | 15,09 | 39 | 17,66 |
| 33 | Goranboy | 14,99 | 49 | 9,30 | 50 | 10,30 | 12 | 24,31 |
| 34 | Şəki | 14,96 | 30 | 12,28 | 31 | 14,03 | 35 | 18,30 |
| 35 | Zaqatala | 14,84 | 22 | 13,80 | 27 | 14,53 | 45 | 16,09 |
| 36 | Tovuz | 14,80 | 40 | 11,11 | 38 | 12,71 | 25 | 20,06 |
| 37 | Ağsu | 14,79 | 38 | 11,61 | 36 | 13,22 | 31 | 19,14 |
| 38 | Beyləqan | 14,75 | 24 | 13,20 | 23 | 15,17 | 47 | 15,91 |

bunu qiymətləndirmək, təəssüf ki, mümkün deyil. Bütün hallarda, bu problemin həm yerli, həm də mərkəzi idarəetmə orqanları tərəfindən öyrənilməsinə ehtiyac var.

Daha bir diqqət çəkən məsələ odur ki, iqtisadi inkişaf səviyyəsinə görə ölkə lideri özünü "dolandıra" bilmir. Xızı rayonunun yerli büdcə xərclərinin 60,3%-i Dövlət büdcəsindən alınmış dotasiya hesabına ödənilir. Nəzərdə saxlamaq lazımdır ki, bu dotasiyalar "bumeranq" effektinə malikdir və rayonun iqtisadi göstəricilərini artıma doğru dəyişdirir.

Reytinqdə 2-ci yeri Siyəzən rayonunun göstəriciləri Xızınınkılara oxşardır. Əsas kapitala investisiyalara görə (adambaşına) Siyəzən ölkənin inzibati rayonları arasında Xızıdan sonra ikinci yerdədir (4255 manat). Xızı kimi Siyəzən də adambaşına ÜMB və İƏM alt-indekslərinə görə öncül yerlər tutur (hər biri üzrə ikincidir), İFG alt-indeksinə görə isə nisbətən geri qalır (24-cü yer). Burada da iqtisadi inkişafın qalıcı və ya keçici olacağını müəyyənləşdirmək üçün investisiyaların strukturunu təhlil etmək lazımdır.

Lakin Siyəzəndə orta aylıq nominal əməkhaqqı (494,3 manat, 5-ci yer) Xızıdakı kimi aşağı deyil. Bu o deməkdir ki, iqtisadi fəaliyyətdən adambaşına gəlirin aşağı olması ya yüksək işsizliklə, ya da əhalinin yaş tərkibi ilə (əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin az olması ilə) bağlıdır. Xızı ilə daha bir ciddi fərqi odur ki, Siyəzən Dövlət büdcəsindən dotasiya almır. Dotasiya almadan iqtisadi inkişaf səviyyəsinə görə ikinci yerə qalxması ona işarədir ki, Siyəzəndə iqtisadi inkişafın *keyfiyyəti* daha yüksəkdir.

Sub-indeksə görə reytinqdə üçüncü yeri Kürdəmir tutur. Rayon, adambaşına ÜMB alt-indeksinə görə 13-cü, İƏM alt-indeksinə görə 7-ci, İFG alt-indeksinə görə isə 2-ci yerdədir. Əsas kapitala investisiya qoyuluşlarına görə (adambaşına 938 manat) Kürdəmir inzibati rayonlar arasında 21-ci, orta aylıq nominal əməkhaqqına görə (358 manat) 52-ci olmuşdur. Sub-indeks üzrə sıralamada Kürdəmiri irəli çəkən əsas göstərici – İFG alt-indeksidir. Rayonda ticari fəallıq kifayət qədər yüksəkdir: pərakəndə ticarət dövriyyəsinin adambaşına düşən həcminə görə Kürdəmir inzibati rayonlar arasında dördüncü yerdədir və bu, böyük ehtimalla, onun İFG alt-indeksinə müsbət təsir göstərmişdir. Onu da qeyd etmək lazımdır ki, Kürdəmir Dövlət büdcəsindən dotasiya almayan rayonlardandır.

Alt-indekslər üzrə ziddiyyətli nəticələr göstərmiş inzibati rayonlardan biri də sub-indeks üzrə reytinqdə 5-ci sətirdə dayanan Daşkəsəndir. Xızı və Siyəzən kimi Daşkəsən rayonu da adambaşına ÜMB və İƏM alt-indekslərinə görə yüksək (hər biri üzrə 3-cü), İFG alt-indeksinə görə isə nisbətən aşağı (32-ci) yerlər tutur. Əsas kapitala investisiyalara görə 35-ci (adambaşına 587 manat), orta aylıq nominal əməkhaqqına görə 3-cü (505 manat) yerdədir. 2019-cu ildə Daşkəsən Dövlət büdcəsindən yerli büdcəsinin 58,5%-i qədər (adambaşına 45,2 manat) dotasiya almışdır.

Bu tədqiqatda inzibati rayonlarla bir sırada təhlil edilən Naftalan şəhərinin də (İİSS üzrə reytinqdə 6-cı yer) alt-indeksləri arasında kəskin fərq var. Adambaşına ÜMB alt-indeksinə görə 36-cı, İƏM alt-indeksinə görə 45-ci yerdə olsa da, İFG alt-indeksi üzrə sıralamanın birincisidir. İİSS sub-indeksi üzrə sıralamada Naftalanı önə çəkən məhz sonuncu göstəricidir. İqtisadi inkişafı səciyyələndirən (bəzənsə müəyyənləşdirən) əlavə göstəricilərə gəlincə, Naftalan əsas kapitala investisiya qoyuluşlarına görə 4-cü (adambaşına 1651 manat), orta aylıq nominal əməkhaqqına görə 16-cı (431 manat), pərakəndə ticarət dövriyyəsinə görə isə 18-cidir (adambaşına 2492 manat). Beynəlxalq sağlamlıq turizmi sahəsində Naftalan ölkənin əsas mərkəzlərindən biridir, yüksək səviyyəli sanatoriya-kurort infrastrukturuna malikdir və bu sahədə şəhərin ciddi inkişaf imkanları var.

Şahbuz rayonu reytinqdə 7-ci yerdədir. Adambaşına ÜMB alt-indeksinə görə 4-cü, İƏM alt-indeksinə görə 8-ci, İFG alt-indeksinə görə isə 21-ci yerləri tutur. Şahbuzda əsas kapitala investisiya qoyuluşları adambaşına 1210 manat, orta aylıq nominal əməkhaqqı 448 manat, pərakəndə ticarət dövriyyəsi adambaşına 2050 manatdır. İnzibati rayonlar arasında bu göstəricilərin birincisinə görə 10-cu, ikincisinə görə 13-cü, üçüncüsünə görə 33-cü yerdədir.

Maraqlıdır ki, iqtisadi inkişaf baxımından bir sıra aşkar üstünlüklərə malik olan Abşeron rayonu reytinqdə ilk onluğa belə, daxil ola bilməmiş, İİSS sub-indeksi üzrə sıralamada 17-ci yerlə kifayətlənmişdir. İlk iki alt-indeks üzrə 16-cı, İFG alt-indeksi üzrə isə 15-ci yeri tutmuşdur. Ehtimalən, Abşeronun üstünlüklərindən hesab olunan Bakıya yaxınlıq, eyni zamanda, onun həm də zəifliyidir. Rayonda yaşayış qeydiyyatında olan əhalinin xeyli hissəsi (təəssüf ki, bu haqda dəqiq statistik məlumat əlyetər deyil) Bakıda işləyir. Bu, rayonun iqtisadi inkişaf göstəricilərinə təsirsiz ötüşə bilməz.

*Cədvəl 5. İİSS sub-indeksi və onun alt-indeksləri (İİSS üzrə orta göstəricidən aşağı nəticə göstərmiş inzibati rayonlar, 2019)*

| Yer | İqtisadi rayonlar | İİSS sub-indeksi | Alt-indekslər (alt-indeks üzrə yer) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Adambaşına ÜMB | | İctimai əmək məhsuldarlığı | | İqtisadi fəaliyyətdən adambaşına gəlir | |
| | | | Yer | ÜMB | Yer | İƏM | Yer | İFG |
| **Orta göstərici** | | **14,66** | | **12,55** | | **13,86** | | **17,35** |
| 39 | Qusar | 14,64 | 34 | 11,93 | 35 | 13,39 | 36 | 18,28 |
| 40 | Göygöl | 14,47 | 25 | 12,92 | 37 | 12,95 | 41 | 17,19 |
| 41 | Qax | 14,28 | 46 | 10,58 | 48 | 10,72 | 20 | 20,75 |
| 42 | Qazax | 14,21 | 33 | 11,98 | 43 | 12,02 | 38 | 18,15 |
| 43 | Cəlilabad | 14,18 | 48 | 9,80 | 42 | 12,04 | 23 | 20,15 |
| 44 | Oğuz | 13,98 | 47 | 10,50 | 47 | 11,00 | 26 | 19,77 |
| 45 | Balakən | 13,81 | 50 | 9,06 | 52 | 9,62 | 16 | 21,80 |
| 46 | Samux | 13,51 | 44 | 10,66 | 46 | 11,10 | 37 | 18,24 |
| 47 | Salyan | 13,37 | 39 | 11,58 | 32 | 13,71 | 51 | 14,84 |
| 48 | Saatlı | 12,68 | 45 | 10,62 | 39 | 12,65 | 52 | 14,70 |
| 49 | Masallı | 12,62 | 54 | 7,25 | 53 | 8,76 | 19 | 20,95 |
| 50 | Ucar | 12,61 | 43 | 10,70 | 40 | 12,62 | 53 | 14,46 |
| 51 | Ağstafa | 12,18 | 41 | 11,08 | 44 | 12,02 | 54 | 13,39 |
| 52 | Lənkəran | 11,80 | 53 | 7,52 | 54 | 8,61 | 33 | 18,52 |
| 53 | Tərtər | 11,53 | 52 | 8,93 | 51 | 10,30 | 50 | 15,05 |
| 54 | Astara | 10,64 | 55 | 6,83 | 55 | 8,02 | 44 | 16,47 |
| 55 | Zərdab | 10,21 | 42 | 10,99 | 41 | 12,45 | 57 | 7,63 |
| 56 | Lerik | 8,85 | 56 | 6,65 | 56 | 7,76 | 55 | 11,87 |
| 57 | Yardımlı | 7,77 | 57 | 5,15 | 57 | 6,42 | 56 | 11,40 |
| 58 | Xocalı | 4,80 | 58 | 4,89 | 58 | 5,41 | 58 | 4,24 |
| 59 | Füzuli | 4,24 | 59 | 4,09 | 59 | 4,96 | 59 | 3,80 |
| 60 | Ağdam | 2,92 | 60 | 3,33 | 60 | 4,00 | 61 | 1,64 |
| 61 | Kəlbəcər | 2,25 | 61 | 2,30 | 61 | 2,75 | 60 | 1,81 |
| 62 | Şuşa | 1,68 | 62 | 1,65 | 62 | 1,94 | 62 | 1,51 |
| 63 | Laçın | 1,37 | 63 | 1,32 | 63 | 1,55 | 63 | 1,28 |
| 64 | Cəbrayıl | 1,27 | 65 | 1,21 | 64 | 1,46 | 64 | 1,16 |
| 65 | Qubadlı | 1,15 | 64 | 1,24 | 65 | 1,43 | 66 | 0,82 |
| 66 | Xocavənd | 1,13 | 66 | 1,18 | 66 | 1,28 | 65 | 0,97 |
| 67 | Zəngilan | 0,03 | 67 | 0,02 | 67 | 0,02 | 67 | 0,03 |

Həm də Bakıya yaxınlığı səbəbindəndir ki, iri infrastruktur layihələri digər rayonlara nisbətən Abşeronda daha tez başa çatdırılmışdır.

İnzibati rayonların İİSS sub-indeksi üzrə reytinqində axırıncı yerləri Zəngilan, Xocavənd, Qubadlı, Cəbrayıl, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Füzuli və Xocalı tutur. Bunların hamısı işğaldan təzəcə azad edilmiş rayonlardır. Onları saymasaq, reytinqin əsl autsayderlərinə Yardımlı, Lerik, Zərdab, Astara və Tərtər rayonlarını aid etmək olar. Əslində reytinqdə sonuncu yerləri məhz bu rayonlar tutur.

Maraqlıdır ki, son 3 yeri tutan rayon (müvafiq olaraq, Yardımlı, Lerik və Zərdab) adambaşına pərakəndə ticarət dövriyyəsinə görə sıralamada da eyni ardıcıllıqla (müvafiq olaraq, 57, 56 və 55-ci yerlər) sonda gəlir. Lerik, Yardımlı və Astara rayonları istər coğrafi, istərsə də iqtisadi xüsusiyyətləri etibarilə təxminən eynitiplidir, Zərdab aran bölgəsində yerləşir, Tərtərin ərazisi isə qismən dağlıq, qismən düzənlikdir. Bu o deməkdir ki, bu rayonların iqtisadi inkişaf səviyyəsinə görə geriliyini təkcə təbii-coğrafi amillərlə izah etmək yanlışdır. Bununla belə, sıralamada son 10 yeri (48-57-ci yerləri) tutan inzibati rayondan 5-nin Lənkəran iqtisadi rayonuna aid olması diqqət çəkir. Lerik və Yardımlıda dağ turizmi üçün əla imkanlar var və son illər ərzində bu rayonlarda xeyli sayda turistik obyektlər tikilib istifadəyə verilmişdir. Lakin turizm potensialını daha dolğun reallaşdırmaq üçün infrastrukturun təkmilləşdirilməsinə ehtiyac vardır.

İİSS sub-indeksi və onun alt-indeksləri üzrə liderlərin və autsayderlərin nəticələri əsas mətnə əlavələrdə qrafik təsvirdə verilmişdir *(Əlavə 3)*.

Ölkənin respublika tabeli 3 şəhərinin (Yevlax, Şəki və Lənkəranın) daxil olduğu eyniadlı inzibati rayonların sıralamadakı mövqeyi ayrıca maraq doğurur. İİSS sub-indeksi üzrə sıralamada Yevlax rayonu 30-cu yerdədir, İFG alt-indeksi (9-cu yer) onu irəli, adambaşına ÜMB (51-ci yer) və İƏM (49-cu yer) alt-indeksləri isə, əksinə, geriyə çəkir. Şəki rayonu sub-indeksə görə 34-cü yeri, alt-indekslər üzrə də buna yaxın yerləri tutur (adambaşına ÜMB alt-indeksinə görə 30-cu, İƏM alt-indeksinə görə 31-ci, İFG alt-indeksinə görə 35-ci yerlər). Lənkəran rayonu bunlardan da geridədir (52-ci yer).

Əslində bu rayonların inzibati mərkəzləri (respublika tabeli şəhərlər) sosial və iqtisadi infrastrukturun inkişafı baxımından digər rayonlardakı ilə müqayisədə daha üstün imkanlara malikdir. Lənkəran liman şəhəridir, ölkə əhəmiyyətli təhsil müəssisə-

lərinə malikdir, qədim və zəngin iqtisadi ənənələrə (xüsusilə ticarət ənənələrinə) sahibdir. Böyük ehtimalla, Lənkəran inzibati rayonunun iqtisadi inkişaf göstəricilərini "korlayan" kəndlərinin zəif inkişafıdır. Yəqin ki, eyni fikir – bu və ya digər dərəcədə – Yevlax və Şəki şəhərləri (və rayonları) haqqında da söylənilə bilər.

Lənkəran, Yevlax və Şəki rayonları əsas kapitala investisiyaların həcminə görə ölkənin inzibati rayonları arasında, müvafiq olaraq, 48-ci, 51-ci və 16-cı, orta aylıq nominal əməkhaqqına görə, müvafiq olaraq, 39-cu, 42-ci və 54-cü, adambaşına pərakəndə ticarət dövriyyəsinin həcminə görə, müvafiq olaraq, 25-ci, 1-ci və 21-ci yerləri tutur. Pərakəndə ticarət dövriyyəsinin həcminə görə ölkə lideri olan Yevlax rayonunun digər göstəricilər üzrə aşağı nəticələr göstərməsi gözlənilməz sayıla bilər.

Ümumiyyətlə, konkret bir il (bizim halda – 2019-cu il) üçün İİSS sub-indeksləri əsasında inzibati rayonların güclü və ya zəif inkişaf etməsi haqqında gəlinən nəticələrin nisbiliyini göz önündə saxlamaq lazımdır. Ölçmədə istifadə olunan göstəricilər həmin ildə mərkəzləşdirilmiş resurslardan rayona verilən dotasiyaların, ölkə miqyaslı infrastruktur layihələri ilə bağlı il ərzində rayon ərazisində görülmüş işlərin, mərkəzləşdirilmiş mənbələrdən əsas kapitala investisiyaların və bir çox başqa iqtisadi hadisə və proseslərin təsirinə məruz qalır. Odur ki, bu tipli araşdırmalar mütəmadi olaraq aparılmalı və son "hökm" dövrlərarası fərqlər nəzərə alınmaqla verilməlidir.

Açıq istifadədə olan statistik məlumatlar əsasında Azərbaycanın bölgələrində bəzi göstəricilərin illər üzrə dinamikasını izləmək mümkündür. Məsələn, *Əlavə 2*-dəki diaqramlarda 2011-2019-cu illərdə ölkənin iqtisadi rayonlarında və onlara daxil olan inzibati-ərazi vahidlərində ÜMB-nin dəyişmələri göstərilmiş və bunlara qısa şərhlər verilmişdir. Amma təəssüf ki, bu cür məlumatlar bu tədqiqatda araşdırılan bütün göstəricilər üzrə əlyetər deyil.

## *NƏTİCƏLƏRİN TƏHLİLİ:*
## *SAHƏVİ DİVERSİFİKASİYA SUB-İNDEKSİ*

Sahəvi diversifikasiya sub-indeksi araşdırmaya regional iqtisadiyyatın səbatlığını və dayanıqlığını qiymətləndirmək üçün daxil edilmişdir. Sub-indeks, "Metodologiya" bölməsində göstərildiyi kimi, iqtisadi və inzibati rayonlar üçün 4 sahənin (sənaye, kənd təsərrüfatı, tikinti və xidmət), respublika tabeli şəhərlər üçün isə 3 sahənin (sənaye, tikinti və xidmət) ideal sektoral paylanmadan kənarlaşmaları əsasında hesablanmışdır. Sahələrin ölçüsü qismində faktik məhsul buraxılışı göstəriciləri qəbul edilmişdir.

İqtisadiyyatın sahələr arasında paylanmasını qiymətləndirmək üçün, təbii ki, başqa göstəricilərdən də, məsələn, məşğulluq göstəricilərindən istifadə etmək olar. Azərbaycanda məşğul əhalinin sahələr üzrə paylanmasında da disproporsiya mövcuddur: məşğul əhalinin 7,4%-i sənayenin, 36%-i kənd təsərrüfatının, 7,4%-i tikintinin, 49,2%-i digər sahələrin payına düşür. Lakin həm sahəvi təsnifatın dəqiqliyi, həm də sahələrin real həcmini ifadə etmək baxımından ümumi məhsul buraxılışı əlçatar olan göstəricilərin ən uğurlusudur.

## SD sub-indeksi – iqtisadi rayonlar

Sahəvi diversifikasiya sub-indeksi üzrə iqtisadi rayonların sıralanması *Cədvəl 6-da* təqdim olunur.

SD sub-indeksi üzrə reytinqdə Gəncə-Qazax iqtisadi rayonu liderdir. Bu təsadüfi deyil: Gəncə-Qazax bölgəsində bütün iqtisadiyyat sahələrinin ahəngdar inkişaf etdirilməsi üçün yaxşı potensial vardır. Burada istehsal edilən məhsul və xidmətlərin ümumi həcmində sənayenin payı 23,1%, kənd təsərrüfatınınkı 29,4%, inşaatınkı 19,3% və xidmətlərinki 28,2%-dir. İqtisadi rayonun tərkibinə kənd rayonları ilə yanaşı, şəhərlər də (Gəncə və Naftalan) daxildir. Bunların, xüsusilə də iri sənaye şəhəri olan Gəncənin bu iqtisadi rayonun tərkibində olması məhsul buraxılışının sektorlar arasında nisbətən bərabər paylanmasına şərait yaratmışdır. Gəncə şəhərinin ümumi məhsul buraxılışında kənd təsərrüfatının payı 1%-in altında, sənayeninki isə 40%-in üstündə olmuşdur. Sənayenin orta göstəricisinə artıma doğru təsir göstərən digər bir şəhər də Daşkəsən olmuşdur.

*Cədvəl 6. SD sub-indeksi (iqtisadi rayonlar, 2019)*

| *Yer* | *İqtisadi rayonlar* | *SD sub-indeksi* |
|---|---|---|
| 1 | Gəncə-Qazax | 89,87 |
| 2 | Şəki-Zaqatala | 89,01 |
| 3 | Aran | 88,13 |
| 4 | Naxçıvan | 85,68 |
| 5 | Quba-Xaçmaz | 80,61 |
| 6 | Dağlıq Şirvan | 75,89 |
| *İqtisadi rayonlar üzrə orta göstərici* | | *72,73* |
| 7 | Lənkəran | 65,09 |
| 8 | Yuxarı Qarabağ | 63,35 |
| 9 | Abşeron | 54,85 |
| 10 | Kəlbəcər-Laçın | 34,83 |

İkinci sırada Şəki-Zaqatala iqtisadi rayonu yer alır. Bu iqtisadi rayon əsasən kənd rayonlarından ibarətdir, tərkibində iri sənaye şəhəri yoxdur. Buna baxmayaraq, iqtisadiyyatın sahələr arasında paylanması kifayət qədər ahəngdardır. Kənd təsərrüfatının xüsusi çəkisi ideal paydan 8,2 faiz bəndi artıq, inşaatınkı isə 5,7 faiz bəndi azdır (bu tədqiqatda təklif edilən metodologiyaya görə, ideal paylanmadan hansı tərəfə – çoxamı doğru, ya azamı – kənarlaşmanın fərqi yoxdur). Sənaye üzrə ÜMB göstəricisi əsasən Qax və Qəbələ rayonlarının hesabına yüksəlmişdir.

SD sub-indeksinə görə 3-cü yeri tutan Aran iqtisadi rayonunda da oxşar paylanma müşahidə olunur. Lakin Şəki-Zaqatala iqtisadi rayonundan fərqli olaraq, Aran iqtisadi rayonunun tərkibinə iki sənaye şəhəri (Şirvan və Mingəçevir) daxildir.

4-cü sətirdə dayanan Naxçıvanda iqtisadiyyatın sektoral strukturu ilk 3 iqtisadi rayondakından əhəmiyyətli dərəcədə fərqlənir *(Diaqram 6).* Burada tikintinin xüsusi çəkisi (26,7%) ideal paya yaxın olsa da, sənayeninki ondan 3,1 faiz bəndi, xidmət sektorununku isə 5,9 faiz bəndi artıqdır. Kənd təsərrüfatının kənarlaşması isə aşağıya doğru 10,7 faiz bəndidir. Toplam kənarlaşma 21,4 faiz bəndinə bərabərdir.

***Diaqram 6. Gəncə-Qazax, Şəki-Zaqatala, Aran və Naxçıvan iqtisadi rayonlarında ÜMB-nin sahələr üzrə paylanması***




Sonrakı yerləri tutan iqtisadi rayonlarda kənarlaşmalar bundan da çoxdur. Quba-Xaçmaz, Dağlıq Şirvan, Lənkəran və Abşeron iqtisadi rayonlarında ÜMB-nin iqtisadiyyatın əsas sektorları üzrə paylanması *Diaqram 7-də* göstərilmişdir.

Bu iqtisadi rayonların hamısında ideal paylanmadan kənarlaşmalar yüksəkdir, amma məsələ həm də ondadır ki, kənarlaşmaların istiqamətində ciddi fərqlər var. Quba-Xaçmaz iqtisadi rayonunda xidmət və inşaat sektorları üzrə kənarlaşmalar o qədər də böyük deyil (müvafiq olaraq, -3,0 və +3,5 faiz bəndi), amma kənd təsərrüfatı və sənaye üzrə böyükdür: sənayenin xüsusi çəkisi ideal paydan 11,6 faiz bəndi az,

kənd təsərrüfatınınkı isə 11,0 faiz bəndi çoxdur. Toplam kənarlaşma 29,1 faiz bəndi qədərdir.

***Diaqram 7. Quba-Xaçmaz, Dağlıq Şirvan, Lənkəran və Abşeron iqtisadi rayonlarında ÜMB-nin sahələr üzrə paylanması***




Dağlıq Şirvanda ən böyük kənarlaşma sənayedədir (-18,0 faiz bəndi). Daha sonra tikinti (+9,3 faiz bəndi) və kənd təsərrüfatı (+8,8 faiz bəndi) gəlir. Xidmət sektorunun xüsusi çəkisi ideal payla, demək olar ki, üst-üstə düşür. Toplam kənarlaşma 36,2 faiz bəndidir.

Lənkəran iqtisadi rayonunda isə sənayenin və tikintinin xüsusi çəkiləri ideal paydan azdır (müvafiq olaraq, 15,3 və 10,9 faiz bəndi qədər), kənd təsərrüfatı və xidmət sektorlarının xüsusi çəkisi isə, əksinə, çoxdur (müvafiq olaraq, 15,5 və 10,7 faiz bəndi qədər). Toplam kənarlaşma 52,4 faiz bəndinə bərabərdir.

Ən böyük kənarlaşmalar Abşeron iqtisadi rayonuna aiddir: xidmət sektoru üzrə +12,6 faiz bəndi, tikinti üzrə +14,3 faiz bəndi, sənaye üzrə +19,5 faiz bəndi, kənd təsərrüfatı üzrə isə -21,2 faiz bəndi (toplam 67,6 faiz bəndi).

SD sub-indeksinin iqtisadi rayonlar üzrə orta göstəricisi 30,23-ə bərabərdir. Araşdırılan 10 iqtisadi rayondan altısının SD sub-indeksi orta göstəricidən yuxarı, dördününkü aşağıdır.

Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının sıralamadakı mövqeləri yenə də şərtidir. Belə görünür ki, Yuxarı Qarabağda iqtisadiyyatın diversifikasiyası Abşerona nisbətən daha yüksəkdir. Amma fakt budur ki, Yuxarı Qarabağ iqtisadiyyatı altında II Qarabağ müharibəsinə qədər Azərbaycanın nəzarətində olan ərazidəki fraqmentar iqtisadiyyat nəzərdə tutulur. İstər Yuxarı Qarabağın, istərsə də Kəlbəcər-Laçın iqtisadi rayonunun bunların real potensialına mütənasib iqtisadiyyatı əslində hələ mövcud deyil. Amma olacaq. Bu iqtisadi rayonlarda sahəvi diversifikasiya haqqında yalnız o zaman ciddi təhlillər aparılacaq.

## SD sub-indeksi – respublika tabeli şəhərlər

Deyildiyi kimi, şəhərlər üçün ideal paylanma – ümumi məhsul buraxılışının sənaye (cüzi bir ağırlıqla), tikinti və xidmət sektorları arasında bərabər nisbətlərdə paylanmasıdır. Qeyd etmək lazımdır ki, araşdırılan 5 respublika tabeli şəhər ölkə iqtisadiyyatında, xüsusilə də sənayenin inkişafında əhəmiyyətli rola malikdir. Bakı nəzərə alınmadıqda ölkədə sənaye məhsulu istehsalının 54,2%-i, inşaatın 41,8%-i, ticarət, nəqliyyat və rabitə xidmətlərinin 24,1%-i onların payına düşür.

*Cədvəl 7. SD sub-indeksi (respublika tabeli şəhərlər, 2019)*

| Yer | Şəhərlər | SD sub-indeksi |
|---|---|---|
| 1 | Naxçıvan | 89,96 |
| 2 | Gəncə | 75,34 |
| **Şəhərlər üzrə orta göstərici** | | **70,20** |
| 3 | Sumqayıt | 67,03 |
| 4 | Şirvan | 64,95 |
| 5 | Mingəçevir | 53,74 |

Respublika tabeli şəhərlərdə SD sub-indeksi üzrə sıralamanın lideri Naxçıvan şəhəridir (*Cədvəl 7*).

Naxçıvan şəhərində ideal paylanmadan toplam kənarlaşma 13,5 faiz bəndi qədərdir. Naxçıvanda tikinti sektorunun xüsusi çəkisi (34,0%) ideal payla, demək olar ki, üst-üstə düşür. Sənayenin xüsusi çəkisi ideal

paydan bir qədər artıq (39,3%), xidmət sektorununku isə azdır (25,8%). İstər Naxçıvanda, istərsə də araşdırılan digər şəhərlərdə sənaye, inşaat və xidmət sektorlarının ümumi məhsul buraxılışındakı paylarının cəmi 100%-dən bir qədər azdır (məsələn, Naxçıvanda 99,1%-dir). Səbəb odur ki, bu şəhərlərin hamısında, az da olsa (1% ətrafında), kənd təsərrüfatı məhsulları da istehsal edilir.

Gəncə sıralamada 2-ci yerdədir. Orada toplam kənarlaşma 33,1 faiz bəndi qədərdir. İdeal paydan ən böyük kənarlaşma tikinti sektorundadır (-16,7 faiz bəndi). Sonra sənaye (+9,7 faiz bəndi) və sonda xidmət sektoru (+6,7 faiz bəndi) gəlir. Araşdırılan şəhərlər arasında xidmət sektoru üzrə ideal paydan ən kiçik kənarlaşma Gəncə şəhərində qeydə alınmışdır.

SD sub-indeksi üzrə reytinqdə 3-cü yeri tutan Sumqayıtda isə ideal paydan ən kiçik kənarlaşma tikintidə (+9,6 faiz bəndi), ən böyük kənarlaşma xidmət sektorundadır (-22,1 faiz bəndi). Ən yüksək xüsusi çəkiyə malik olan sahə sənayedir (46,4%). Toplam kənarlaşma 44,1 faiz bəndi qədərdir.

Şirvan şəhəri sıralamanın 4-cüsüdür. Orada sənayenin xüsusi çəkisi ideal paydan 22,8 faiz bəndi artıqdır, qarşılığında tikintinin xüsusi çəkisi ideal paydan 11,3 faiz bəndi, xidmət sektorununku isə 12,9 faiz bəndi aşağıdır. Toplam kənarlaşma 47 faiz bəndidir.

İqtisadiyyatın sahəvi diversifikasiyası səviyyəsinə görə şəhərlər arasında sonuncu yeri Mingəçevir tutur. İdeal paylanmadan ən böyük toplam kənarlaşma (62,1 faiz bəndi) məhz oradadır. Şəhərdəki ümumi məhsul buraxılışının 64,9%-i sənayenin (ideal paydan kənarlaşma – 30,9 faiz bəndi), 10,3%-i inşaatın (kənarlaşma – 22,7 faiz bəndi), 24,5%-i xidmət sektorunun (kənarlaşma – 8,5 faiz bəndi) payına düşür.

Respublika tabeli şəhərlərdə iqtisadiyyatın sahəvi diversifikasiyası vizual şəkildə *Diaqram 8-də* göstərilmişdir.

Gözlənildiyi kimi, respublika tabeli 5 şəhərin hamısında sənaye digər sahələrdən üstün paya malikdir. Sənayedə ideal payla ən böyük fərq Mingəçevirdə, ən kiçik fərq Naxçıvan şəhərindədir. Tikintinin xüsusi çəkisi yalnız Naxçıvanda, xidmət sektorunun xüsusi çəkisi isə təkcə Gəncədə ideal paydan artıqdır. Tikintidə ən böyük kənarlaşma Mingəçevirdə, ən kiçik kənarlaşma Naxçıvanda, xidmət sektorunda isə ən böyük kənarlaşma Sumqayıtda, ən kiçik kənarlaşma Gəncədə qeydə alınır.

*Diaqram 8. Respublika tabeli şəhərlərdə ÜMB-nin sahələr üzrə paylanması*




## SD sub-indeksi – inzibati rayonlar

Aydın məsələdir ki, qiymətləndirilən ərazi vahidlərinin miqyası nə qədər kiçikdirsə, nisbi göstəricilərin kəskin dəyişmə ehtimalı bir o qədər yüksək olur. Bu, sadə bir qanunauyğunluqlur. Hansısa bir ərazi vahidində (inzibati rayonda, şəhərdə, regionda, yaxud hətta ölkədə) yeni bir sənaye müəssisəsinin tikintisi həmin rayonda inşaat sektorunun göstəricilərini böyüdür. Müəssisə fəaliyyətə başlayandan sonra isə sənayenin göstəriciləri böyüyür. Göstəricilərin bu yöndə dəyişməsi istənilən ərazi üçün doğrudur, amma miqyasca kiçik ərazilərdə (ilk növbədə inzibati rayonlarda) hətta ortahəcmli bir sənaye müəssisəsinin inşası belə, iqtisadiyyatın sahəvi strukturuna və müvafiq olaraq, diversifikasiya səviyyəsinə təsir edə biləcək gücə malik olur.

Buna baxmayaraq, birincisi, inzibati rayonlarda iqtisadiyyatın sahə strukturunun ideal paylanmaya hansı səbəblərə görə yaxın və ya uzaq olduğunu müəyyənləşdirmək üçün daha təfərrüatlı araşdırmalar aparılmalıdır; və ikincisi, iqtisadiyyatın di-

versifikasiya səviyyəsi – hətta inzibati rayonlarda da – təkcə fraqmentar iqtisadi dəyişikliklərin (məsələn, yeni bir müəssisə tikintisi kimi) təsiri ilə deyil, həm də nisbətən uzun müddət "işləyən" amillərin təsiri altında müəyyənləşir. İqtisadi strategiya quruculuğu baxımından, sonuncuların araşdırılması daha əhəmiyyətlidir.

İnzibati rayonların SD sub-indeksi üzrə reytinqi *Cədvəl 8-də* verilmişdir. Sub-indeksin orta göstəricisi 63,48-dir. Qütblərdə, yəni diversifikasiyanın yüksək və aşağı olduğu inzibati rayonlarda orta göstəricidən kənarlaşma dərəcəsi fərqli olduğuna görə rayonlar orta göstəricidən yuxarı və aşağıda, təbii ki, bərabər sayla paylanmır. Ölkənin 40 inzibati rayonunda SD sub-indeksi orta göstəricidən çox, 27 rayonda isə azdır.

Reytinqin ilk beşliyinə Biləsuvar (92,08), Qəbələ (90,20), Göygöl (90,07), Babək (89,01) və Kürdəmir (87,01) rayonları daxildir.

Lider – Aran iqtisadi rayonunun tərkibindəki Biləsuvar rayonudur. Orada ÜMB-in sahəvi strukturu ideal paylanmaya çox yaxındır: sənayenin xüsusi çəkisi (24,2%) ideal payla praktik surətdə üst-üstə düşür, kənd təsərrüfatının xüsusi çəkisi ideal paydan 5,9 faiz bəndi çox, tikintininki 3,0 faiz bəndi, xidmət sektorununku isə 2,1 faiz bəndi aşağıdır. Toplam kənarlaşma 11,8 faiz bəndidir.

Ümumən, Biləsuvar ölkənin yaxşı inkişaf edən rayonlarındandır. 2019-cu ildə bu rayon adambaşına sənaye istehsalına görə (960 manat) inzibati rayonlar arasında 9-cu, adambaşına kənd təsərrüfatı istehsalına görə (1240 manat) 27-ci, tikintidə (874 manat) və xidmət sektorunda adambaşına məhsul buraxılışına görə (910 manat) 21-ci yerləri tutmuşdur. 2018-ci illə müqayisədə əsas kapitala investisiyaların həcmi 41,6% artmışdır. Görünür, inşaat və xidmət sektorlarının inkişafına rayonun ərazisindən keçən və İran üzərindən Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirən beynəlxalq magistral şosse yolu da müsbət təsir göstərir.

Sıralamada 2-ci yeri tutan Qəbələ rayonunda iqtisadiyyatın əsas sahələrinin ÜMB-dəki xüsusi çəkiləri belədir: sənaye – 29,4%, kənd təsərrüfatı – 28,0%, tikinti – 22,0% və xidmətlər – 20,6%. İdeal paylanmadan toplam kənarlaşma 14,7 faiz bəndi qədərdir. Göründüyü kimi, Qəbələ və Biləsuvar rayonlarının və bütövlükdə ilk beşliyə daxil olan rayonların göstəriciləri o qədər də sərt fərqlənmir: birinci yerdəki rayonla beşinci yeri tutan rayonun SD sub-indeksləri arasında cəmi 5 bəndlik fərq var.

*Cədvəl 8. SD sub-indeksi (inzibati rayonlar, 2019)*

| Yer | İnzibati rayonlar | SD sub-indeksi | Yer | İnzibati rayonlar | SD sub-indeksi |
|---|---|---|---|---|---|
| 1 | Biləsuvar | 92,08 | 35 | Ordubad | 69,23 |
| 2 | Qəbələ | 90,20 | 36 | Zaqatala | 68,73 |
| 3 | Göygöl | 90,07 | 37 | Qusar | 68,49 |
| 4 | Babək | 89,01 | 38 | Şəmkir | 66,77 |
| 5 | Kürdəmir | 87,01 | 39 | Culfa | 64,13 |
| 6 | Qazax | 85,41 | 40 | Astara | 63,78 |
| 7 | Kəngərli | 81,19 | ***İnzibati rayonlar üzrə orta*** | | ***63,48*** |
| 8 | Xaçmaz | 80,93 | 41 | Ağdaş | 62,96 |
| 9 | Oğuz | 80,27 | 42 | Tovuz | 62,86 |
| 10 | Salyan | 78,68 | 43 | Zərdab | 62,80 |
| 11 | Göyçay | 78,59 | 44 | Siyəzən | 60,96 |
| 12 | Ağsu | 78,43 | 45 | Goranboy | 60,17 |
| 13 | Quba | 77,60 | 46 | Sabirabad | 59,27 |
| 14 | Beyləqan | 77,52 | 47 | Saatlı | 58,94 |
| 15 | Masallı | 76,56 | 48 | Yardımlı | 58,37 |
| 16 | Gədəbəy | 76,46 | 49 | İmişli | 58,16 |
| 17 | Lənkəran | 76,15 | 50 | Füzuli | 55,15 |
| 18 | Hacıqabul | 76,13 | 51 | Samux | 54,20 |
| 19 | Şəki | 75,38 | 52 | Yevlax | 52,29 |
| 20 | Sədərək | 75,24 | 53 | Qobustan | 51,57 |
| 21 | Qax | 74,25 | 54 | Naftalan | 50,92 |
| 22 | İsmayıllı | 73,20 | 55 | Cəlilabad | 45,69 |
| 23 | Şərur | 73,15 | 56 | Daşkəsən | 45,18 |
| 24 | Şahbuz | 72,75 | 57 | Bərdə | 44,26 |
| 25 | Ağcabədi | 72,30 | 58 | Xızı | 43,29 |
| 26 | Tərtər | 72,25 | 59 | Şuşa | 38,91 |
| 27 | Ağstafa | 71,04 | 60 | Laçın | 35,45 |
| 28 | Balakən | 70,94 | 61 | Kəlbəcər | 33,97 |
| 29 | Lerik | 70,48 | 62 | Zəngilan | 29,80 |
| 30 | Şamaxı | 70,34 | 63 | Ağdam | 29,59 |
| 31 | Abşeron | 70,32 | 64 | Cəbrayıl | 24,87 |
| 32 | Şabran | 70,19 | 65 | Xocalı | 22,49 |
| 33 | Ucar | 69,75 | 66 | Qubadlı | 13,48 |
| 34 | Neftçala | 69,58 | 67 | Xocavənd | 12,72 |

2019-cu ildə Qəbələ rayonu adambaşına sənaye istehsalına görə ölkənin inzibati rayonları arasında 8-ci, adambaşına kənd təsərrüfatı istehsalına görə 44-cü, adambaşına tikinti məhsulu buraxılışına görə 29-cu, adambaşına xidmətlər istehsalına görə 43-cü yerləri tutmuşdur. Ölkənin əsas turizm mərkəzlərindən biridir. Son illərdə bu sahəyə böyük investisiyalar qoyulmuşdur. 2019-cu ildə Qəbələdə daha bir otel tikilib istifadəyə verilmişdir. Əsas kapitala investisiyaların həcmi 2018-ci ilə nisbətən 2,8%, sənaye istehsalı 61,5% artmışdır. Turizm infrastrukturunun inkişafı, çoxsaylı sənaye müəssisələri iqtisadiyyatın diversifikasiyasına müsbət təsir göstərmişdir.

İnzibati rayonların SD sub-indeksi üzrə reytinqində 3-cü yeri Göygöl rayonu tutur. Rayonda iqtisadiyyatın diversifikasiyası ideal paylanmadan toplam 15,0 faiz bəndi qədər fərqlənir. Kənarlaşmanın 2,9 faiz bəndi sənayenin, 4,4 faiz bəndi kənd təsərrüfatının, 4,6 faiz bəndi inşaatın, 3,1 faiz bəndi xidmət sektorunun payına düşür. 2018-ci il ilə müqayisədə 2019-cu ildə əsas kapitala investisiyaların həcmi 13,2%, sənaye məhsulu istehsalı 75,3% artmışdır.

Reytinqdə ilk 3 yeri tutan rayonlarda iqtisadiyyatın əsas sahələrinin xüsusi çəkilərinin ideal paylardan toplam kənarlaşması 15 faiz bəndini aşmamışdır.

Babək rayonu (Naxçıvan MR) 4-cü yerdədir. Orada ÜMB-in 31,6%-i sənayenin, 26,4%-i kənd təsərrüfatının, 16,8%-i tikintinin, 25,2%-i xidmətlərin payına düşür. İdeal paylanmadan toplam kənarlaşma 16,4 faiz bəndidir. Adambaşına hesablanmış göstəricilərə əsasən, Babək rayonu ölkənin inzibati rayonları arasında sənaye istehsalına görə 5-ci, kənd təsərrüfatı istehsalına görə 19-cu, inşaata görə 23-cü, xidmət istehsalına görə 7-ci yerdədir.

Sıralamanın 5-ci sətirindəki Kürdəmir rayonunda UMB-in 23,2%-i sənaye sektorunda, 34,7%-i kənd təsərrüfatında, 17,1%-i inşaatda, 25%-i xidmətlər sektorunda istehsal olunur. Göründüyü kimi, xidmət sektoru ideal xüsusi çəkiyə malikdir. Bu sektorda kənarlaşmanın sıfıra bərabər olması Kürdəmir rayonunu SD sub-indeksi üzrə irəliyə çəkir. Sənayenin xüsusi çəkisi ideal paydan cəmi 1,8 faiz bəndi artıqdır, kənd təsərrüfatında və tikintidə isə kənarlaşma nisbətən böyükdür (müvafiq olaraq, 9,7 və 7,9 faiz bəndi). Adambaşına sənaye istehsalına görə Kürdəmir inzibati rayonlar arasında 7-ci, kənd təsərrüfatı istehsalına görə 10-cu, tikintidə məhsul buraxılışına görə 28-ci, xidmət istehsalına görə 10-cu yerləri tutur. Əsas kapitala investisiyaların həcmi

2018-ci ilə nisbətən 2019-cu ildə təqribən 2 dəfə, sənaye məhsulu istehsalı 71,2% artmışdır. Məhz bu dəyişikliklər sayəsində 2019-cu ildə iqtisadiyyatının diversifikasiyası güclənmişdir.

Reytinqdə ilk beşlikdə olan rayonların 2 oxşar xüsusiyyəti diqqət çəkir: birincisi, onların hamısı ölkədaxili və beynəlxalq əhəmiyyətli nəqliyyat xətlərinin üzərində yerləşmələri; və ikincisi, təhlil ilində əsas kapitala investisiyaların və sənaye istehsalı həcminin nəzərəçarpacaq dərəcədə artması. Qrafik təsvirdə bu rayonlarda sahəvi diversifikasiya səviyyəsinin yaxınlığı aydın görünür *(Diaqram 9).*

***Diaqram 9. SD sub-indeksi üzrə reytinqdə ilk 5 yeri tutan inzibati rayonda ÜMB-nin sahələr üzrə paylanması***




SD sub-indeksi üzrə reytinqdə son yerləri tutan (Qarabağa aid olan rayonları saymasaq) inzibati rayonlara gəlincə, bunlar aşağıdakılardır (mötərizə içində SD sub-indeksləri və yerləri göstərilir): Xızı (43,29; 58-ci yer), Bərdə (44,26; 57-ci yer), Daşkəsən (45,18; 56-cı yer), Cəlilabad (45,69; 55-ci yer) və Naftalan (50,92; 54-cü yer). Bu rayonlarda sahəvi diversifikasiya vizual formada *Diaqram 10-da* təqdim olunur.

*Diaqram 10. SD sub-indeksi üzrə reytinqdə son 5 yeri tutan (Qarabağsız) inzibati rayonda ÜMB-nin sahələr üzrə paylanması*




Ölkədə diversifikasiyanın ən aşağı səviyyədə olduğu rayon Xızıdır. Orada ÜMB-in 3,2%-i sənayenin, 35,5%-i kənd təsərrüfatının, 57,0%-i inşaatın, 4,3%-i xidmət sektorunun payına düşür. Sənayenin xüsusi çəkisi ideal paydan 21,8 faiz bəndi aşağı, inşaatınkı isə 32 faiz bəndi çoxdur. Sahələrin ideal paylanmasından toplam kənarlaşma 85,0 faiz bəndi qədərdir.

2019-cu ildə iqtisadiyyatının yarıdan çoxu tikinti sektoru ilə təmsil olunan Xızı rayonunda həmin il əsas kapitala investisiyalar əvvəlki illə müqayisədə 11,1% azalmışdır, amma 2018-ci ildə 2017-ci ilə nisbətən 2,5 dəfə artmışdır. İqtisadi inkişafın statik səviyyəsi və sahəvi diversifikasiya baxımından, Xızı Azərbaycanın ən ziddiyyətli rayonudur: birinci sub-indeksə görə inzibati rayonlar arasında 1-ci yeri, ikinci sub-indeksə görə isə sonuncu yeri tutur. İqtisadi inkişaf göstəricilərinin yüksək olması 2018-2019-cu illərdə rayon ərazisində böyük sərmayələr yatırılması ilə bağlıdır. Böyük bir ehtimalla söyləmək olar ki, İİSS və SD sub-indeksləri (və təbii ki, inteqral indeks) üzrə sıralamalarda Xızı rayonu növbəti illərdə kəskin yerdəyişmələrə məruz qalacaqdır.

Aşağı səviyyəli diversifikasiya özünü həm də iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı üzrə sıralamalarda Xızı rayonunun ziddiyyətli mövqelər tut-

masında göstərir. 2019-cu ildə sənaye istehsalının adambaşına həcminə görə (460 manat) Xızı inzibati rayonlar arasında 22-ci, adambaşına kənd təsərrüfatı istehsalına görə 1-ci (5100 manat), adambaşına tikinti məhsulu istehsalına görə 2-ci (8200 manat), adambaşına xidmətlərə görə isə 50-ci (620 manat) yerləri tutmuşdur.

Əhalisinin sayına görə ölkənin ən böyük inzibati rayonlarından biri olan Bərdə SD sub-indeksi üzrə sıralamada 57-cidir. Bərdədə ÜMB-in cəmi 4,2%-i sənayenin payına düşür. Bu, ideal paydan 20,8 faiz bəndi azdır. Kənd təsərrüfatında kənarlaşma bundan da çoxdur – 32,3 faiz bəndi (ÜMB-də payı – 57,3%). Xidmət sektoru üzrə kənarlaşma (+9,5 faiz bəndi) nisbətən az olsa da, tikintidə də təxminən sənayedəki qədərdir (-21 faiz bəndi). İdeal paylanmadan toplam kənarlaşma 83,6-ya bərabərdir.

Əvvəlki illə müqayisədə 2019-cu ildə Bərdədə həm əsas kapitala investisiyalar, həm də sənaye istehsalı azalmışdır (müvafiq olaraq, 74,2% və 8,6%). Bunun qarşılığında bostan və tərəvəz məhsullarının istehsalı son illərdə xeyli artmışdır. Adambaşına hesabı ilə 2019-cu ildə sənaye istehsalının həcmi 124 manat (inzibati rayonlar arasında 45-ci yer), kənd təsərrüfatı istehsalı 1700 manat (8-ci yer), tikinti həcmi 120 manat (60-cı yer), xidmətlər buraxılışı 1020 manat (13-cü yer) təşkil etmişdir.

SD sub-indeksi üzrə sıralamada axırdan üçüncü yeri Daşkəsən rayonu tutur (56-cı yer). Daşkəsənin diversifikasiya göstəricisini aşağı salan, əsas etibarilə, sənayedir, daha doğrusu, onun nisbi böyüklüyüdür. Orada ÜMB-in 66,1%-i sənayenin payına düşür. Bunun səbəbi, məlum məsələdir ki, rayonda zəngin filiz yataqlarının olması ilə bağlıdır. Qalan üç sahənin xüsusi çəkiləri ideal paydan azdır: kənd təsərrüfatının xüsusi çəkisi 15,0%, tikintininki 6,9%, xidmət sektorununku 12,0%-dir.

Daşkəsəndə sənaye məhsulu istehsalı təkcə digər sektorlara nisbətən deyil, başqa inzibati rayonlarla müqayisədə də yüksəkdir. Daşkəsən sənaye məhsulu istehsalına görə inzibati rayonlar arasında 1-ci yerdədir (adambaşına 4200 manat). Amma kənd təsərrüfatı (adambaşına 950 manat) və tikinti üzrə (adambaşına 435 manat) ortadan aşağı yerlər tutur – müvafiq olaraq, 42 və 41-ci yerlər. Xidmət sektorunun inkişafına görə isə (adambaşına 760 manat) ortanın yaxınlığında, 32-ci yerdədir.

SD sub-indeksi üzrə reytinqdə Cəlilabad Daşkəsəndən 1 pillə yuxarıdadır. İqtisadiyyatının təqribən 59,8%-i kənd təsərrüfatından ibarətdir. Sənayenin payına isə ÜMB-in cəmi 1,5%-i düşür. Tikinti və xidmət sektorlarının xüsusi çəkiləri (müvafiq olaraq, 7,7% və 31,0%) ideal paydan nisbətən az kənarlaşır. Toplam kənarlaşma 81,5

faiz bəndidir. 2019-cu ildə əsas kapitala investisiyalar 2018-ci illə müqayisədə 64,2% azalmış, sənaye istehsalı isə 5,7% artmışdır. Adambaşına hesabı ilə, sənaye istehsalına görə (37 manat) inzibati rayonlar arasında 58-ci yerdə, kənd təsərrüfatı istehsalına görə (1480 manat) 14-cü yerdə, tikinti həcminə görə (190 manat) 57-ci yerdə, xidmətlərə görə (760 manat) 33-cü yerdədir.

Nəhayət, SD sub-indeksi üzrə sıralamada axırdan beşinci yerdə Naftalan dayanır. Naftalan, məlum olduğu kimi, respublika tabeli şəhərdir və inzibati rayonların sıralamasına, qeyd olunduğu kimi, yalnız ona görə daxil edilib ki, iqtisadiyyatının sahə strukturu şəhərlərinkinə nisbətən kənd rayonlarınkına daha yaxındır. Kənd təsərrüfatı ÜMB-nin 5%-ni, sənaye isə 8,2%-ni verir (digər respublika tabeli şəhərlərdə kənd təsərrüfatının xüsusi çəkisi, deyildiyi kimi, 1%-in altında, sənayeninki isə 40% ətrafındadır). Bu "aralıq" mövqe, yəni özü şəhər olsa da, əhəmiyyətli paya malik kənd təsərrüfatının mövcudluğu və buna görə də inzibati rayonlarla bir sırada araşdırılması Naftalanın diversifikasiya göstəricilərinə müəyyən şərtilik əlaməti verir.

İqtisadiyyatının əsas sahələri tikinti (ÜMB-nin 55,4%-i) və xidmətlərdir (31,4%). Xidmət sektorunun xüsusi çəkisinin ideal paydan çox olması təəccüblü deyil: şəhər sağlamlıq xidmətləri sahəsində ixtisaslaşır. Bu mənada sənaye və kənd təsərrüfatının (şəhərin tabeliyində cəmi iki kənd var) aşağı xüsusi çəkilərə malik olması normal hal sayıla bilər. Sahələrin xüsusi çəkilərinin ideal paylanmadan toplam kənarlaşması 73,6 faiz bəndi qədərdir. 2018-ci illə müqayisədə 2019-cu ildə əsas kapitala investisiyaların həcmi 20,2%, sənaye istehsalının həcmi 14% azalmışdır.

Naftalan adambaşına sənaye istehsalına görə (240 manat) 36-cı, kənd təsərrüfatı istehsalına görə (adambaşına 150 manat) 65-ci, tikinti həcminə görə (1650 manat) 5-ci, xidmətlərə görə (930 manat) 15-ci yerdədir.

*   *   *

Azərbaycanın iqtisadi rayonlarında, respublika tabeli şəhərlərində, SD sub-indeksi üzrə 10 lider və 10 autsayder inzibati rayonunda əsas sahələrin xüsusi çəkilərinin ideal paylanmadan kənarlaşmaları *Əlavə 4*-dəki diaqramlarda göstərilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın istər iqtisadi rayonlarında, istərsə də respublika tabeli şəhərlərində və inzibati rayonlarında iqtisadiyyatın 4 əsas sahəsinin xüsusi çəkiləri olduqca dinamikdir. Bu dəyişkənlik, qeyd edildiyi kimi, iqtisadiyyatın nisbətən kiçik miqyası ilə izah olunur. Ölkənin iqtisadi rayonlarında və bəzi şəhərlərində, habelə SD sub-indeksi üzrə 10 lider və 10 autsayder inzibati rayonunda iqtisadiyyatın əsas sahələrinin xüsusi çəkilərinin 2019-cu ildə 2018-ci ilə nisbətən dəyişmələri *Əlavə 5*-dəki diaqramlarda göstərilmişdir. İqtisadiyyatının sahəvi strukturu ən stabil olan bölgə Naxçıvan MR-dir. Orada bütün sahələrin pay dəyişmələri 1 faiz bəndinin altında olmuşdur. Ən böyük pay dəyişmələri isə Lənkəran və Abşeron iqtisadi rayonlarında qeydə alınmışdır: birincidə tikintinin xüsusi çəkisi 10,4 faiz bəndi azalmış, ikincidə isə, əksinə, 13,2 faiz bəndi artmışdır. Sumqayıtda cəmi 1 il ərzində sənayenin xüsusi çəkisi 15 faiz bəndi, xidmət sektorununku isə 8 faiz bəndi azalmış, əvəzində tikintinin payı 23 faiz bəndi artmışdır. İnzibati rayonlarda da, xüsusilə də SD sub-indeksi üzrə son yerləri tutan rayonlarda iqtisadiyyatın əsas sahələrinin nisbəti ciddi dəyişikliklərə məruz qalmışdır.

Kitabın əsas mətninin həcmini şişirtməmək üçün burada SD sub-indeksi üzrə reytinqdə yalnız birinci və sonuncu beş yeri tutan inzibati rayonlar araşdırılır. Digər rayonlarda sahəvi diversifikasiyanın səviyyəsi ilə bağlı bəzi məlumatlar *Əlavə 4 və 5-də* təqdim olunmuşdur.

# NƏTİCƏLƏRİN TƏHLİLİ: REGİONAL İQTİSADİ İNKİŞAF VƏ DİVERSİFİKASİYA İNDEKSİ

Bu tipli reytinqlərin nəticələrini qiymətləndirərkən nəzərdə tutmaq lazımdır ki, hansısa bir ərazi vahidinin (iqtisadi rayonun, respublika tabeli şəhərin və ya inzibati rayonun) növbəti (gələcək) illərdə sıralamada daha üst yerlərə keçməsi iki səbəbdən: (a) həmin ərazi vahidinin araşdırılan göstəricilər üzrə digərlərinə nisbətən daha üstün sürətlə inkişaf etməyinə və (b) digər ərazi vahidlərinin eyni göstəricilər üzrə geriləməsinə görə baş verə bilər. Birinci hal digər ərazi vahidlərində inkişaf getmədiyi, ikinci hal isə irəliləmiş ərazi vahidində inkişaf getdiyi anlamına gəlmir. Bu bütün (o cümlədən ölkələrarası) reytinqlər üçün universal qaydadır.

Əlbəttə, hər hansı bir ərazi vahidində iqtisadi inkişafı və diversifikasiyanı daha dəqiq qiymətləndirmək üçün onun iqtisadi və sosial potensialını da ölçmək yaxşı olardı. Azərbaycanın istər iqtisadi rayonları, istər respublika tabeli şəhərləri, istərsə də inzibati rayonları öz ərazisinə və təbii resurslarına, əhalisinə və insan potensialına, istehsal ənənələrinə, toplanmış investisiyalarına,* iqlim şəraitinə, hətta bəzən mental

* Ənənə üzrə, bu və ya digər regionda investisiya fəallığını qiymətləndirərkən həmin regionda müəyyən bir dövr (adətən son bir il) ərzində yatırılmış investisiyaların həcminə istinad edirlər. Lakin bu göstərici real vəziyyətin tam təsvirini vermir. Əvvəlki illərdə yatırılmış, amma "fəaliyyətini davam etdirən" investisiyaları da nəzərə almaq vacibdir. Bunlara "toplanmış inverstisiyalar" deyirlər. Ötən illər-

xüsusiyyətlətinə görə bir-birindən çox fərqlənir. Bütün bu amillər ərazinin həm iqtisadi inkişaf sürətinə, həm iqtisadiyyatının sahə strukturuna və deməli, həm də RİİDİ üzrə reytinqinə təsir göstərir. Tutalım, əkinçilik üçün münbit torpaqları məhdud, amma faydalı qazıntılarla zəngin bir bölgədə hasilat sənayesinin deyil, kənd təsərrüfatının (bitkiçiliyin) güclü inkişaf edəcəyini heç kim gözləməz. Həmin bölgədə iqtisadiyyatın sahə strukturunun və müvafiq olaraq, iqtisadi inkişaf göstəricilərinin digər bölgələrinkindən fərqlənəcəyi tamamilə təbiidir. Bu o haldır ki, "diversifikasiya naminə diversifikasiya" fayda yox, zərər gətirə bilər.

Təxminən eyni səviyyəli iqtisadi potensiala malik olan iki bölgənin birinin daha üstün iqtisadi inkişaf səviyyəsinə çatması onun göstəricisidir ki, həmin bölgədə iqtisadi potensialdan daha effektiv istifadə olunur. Hətta belə də ola bilər ki, nisbətən daha zəif iqtisadi potensiala malik olan bir bölgə daha güclü potensialı olan bölgə ilə müqayisədə iqtisadi inkişaf üzrə daha üstün nəticələr qazansın.

İqtisadi potensial ölçüləcəyi təqdirdə iqtisadi inkişaf və diversifikasiya səviyyəsini onunla tutuşdurub nə dərəcədə effektiv istifadə olunduğunu qiymətləndirmək o qədər çətin deyil. Lakin işi çətinləşdirən də elə məhz iqtisadi potensialın ölçülməsinin mürəkkəbliyidir. Deyək ki, müasir cəmiyyətşünaslıqda insan potensialının qiymətləndirilməsi sahəsində artıq kifayət qədər bitkin sayıla biləcək alət və üsullar var. Amma təbii resursların, xüsusilə də yerin təkində olanların iqtisadi qiymətləndirilməsi olduqca mürəkkəb bir elmi vəzifədir və son 70 il ərzində bu sahədə davamlı tədqiqatlar aparılmasına baxmayaraq, iqtisad elmi hələ də hamılıqla məqbul hesab edilən bir metodologiya hazırlaya bilməmişdir. Müxtəlif tipli təbii resursların vahid ölçüyə (dəyər ifadəsinə) gətirilib qiymətləndirilməsi də hələ öz həllini gözləyir.

AMEA İqtisadiyyat İnstitutunda da bu problem üzrə – Azərbaycanın bölgələrinə tətbiqən – tədqiqat aparılır.

---

də yatırılmış investisiyaların həcmini ölçərkən yatırılma ilindəki qiymətləri deyil, cari ilin qiymətlərini əsas götürürlər, yəni inflyasiyanı da nəzərə alırlar. Toplanmış investisiyalar, il ərzində yatırılmış investisiyalardan, bir qayda kimi, dəfələrcə artıq olur və iqtisadi potensialın qiymətləndirilməsi üçün daha yararlı göstəricidir.

## RİİDİ – iqtisadi rayonlar

Beləliklə, Regional iqtisadi inkişaf və diversifikasiya indeksi İqtisadi inkişafın statik səviyyəsi və Sahəvi diversifikasiya sub-indekslərinin çəkili ortası kimi hesablanmışdır. Ekspert sorğusunun nəticələrinə əsasən, çəkilər, müvafiq olaraq, 0,59 və 0,41 kimi götürülmüşdür.

Ölkənin iqtisadi rayonları üzrə nəticələr *Cədvəl 9-da* təqdim olunmuşdur.

*Cədvəl 9. RİİDİ və sub-indeksləri (iqtisadi rayonlar, 2019)*

| Yer | İqtisadi rayonlar | RİİDİ | Sub-indekslər | | | |
|---|---|---|---|---|---|---|
| | | | İİSS sub-indeksi | | SD sub-indeksi | |
| | | | Yer | İİSS | Yer | SD |
| 1 | Naxçıvan | 53,81 | 2 | 31,65 | 4 | 85,69 |
| 2 | Aran | 46,84 | 4 | 18,15 | 3 | 88,13 |
| 3 | Gəncə-Qazax | 46,58 | 6 | 16,50 | 1 | 89,87 |
| 4 | Şəki-Zaqatala | 45,45 | 7 | 15,18 | 2 | 89,02 |
| *İqtisadi rayonlar üzrə orta göstəricilər* | | *44,37* | | *20,55* | | *78,65* |
| 5 | Quba-Xaçmaz | 44,23 | 3 | 18,94 | 5 | 80,61 |
| 6 | Abşeron | 43,26 | 1 | 35,21 | 9 | 54,85 |
| 7 | Dağlıq Şirvan | 41,07 | 5 | 16,87 | 6 | 75,89 |
| 8 | Lənkəran | 33,69 | 8 | 11,87 | 7 | 65,09 |
| 9 | Yuxarı Qarabağ | 28,23 | 9 | 3,82 | 8 | 80,61 |
| 10 | Kəlbəcər-Laçın | 15,13 | 10 | 1,44 | 10 | 54,85 |

İlk-əvvəl onu qeyd etmək lazımdır ki, həm RİİDİ, həm də onun sub-indeksləri üzrə 9-cu Cədvəldə təqdim olunan orta göstəricilər Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları nəzərə alınmadan hesablanmışdır. Səbəb – hələ ki Qarabağdakı iqtisadi inkişaf və diversifikasiya səviyyəsini digər bölgələrlə müqayisə etməyin yanlışlığıdır. Bu halda qalan 8 iqtisadi rayon RİİDİ üzrə orta göstərici ətrafında bəra-

bər paylanır: dörd iqtisadi rayonun indeksləri orta göstəricidən yüksək, dördününkü aşağıdır.

Naxçıvan MR liderdir (53,81). İİSS sub-indeksi üzrə 2-ci, SD sub-indeksi üzrə 4-cü yerdədir. İqtisadi inkişaf səviyyəsinə görə Abşeron Naxçıvandan öndədir, amma diversifikasiya üzrə son yerlərdən birini (9-cu yeri) tutması onu RİİDİ üzrə rəqabətdə geriyə, 6-cı yerə atmışdır. Ümumən, sub-indekslər üzrə nəticələrinə görə Abşeron ən ziddiyyətli iqtisadi rayondur.

Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonları da ziddiyyətli göstəricilərə malikdir. Bunların hər ikisi diversifikasiya üzrə yüksək (müvafiq olaraq, 1-ci və 2-ci), iqtisadi inkişaf səviyyəsinə görə isə aşağı (müvafiq olaraq, 6-cı və 7-ci) nəticələr göstərmişdir. Buna baxmayaraq, onların yekun indeksləri orta göstəricidən yuxarıdır.

RİİDİ üzrə reytinqin ikincisi olan Aran iqtisadi rayonu (46,84) hər iki sub-indeks üzrə yaxın yüksək (İİSS sub-indeksi üzrə 4-cü, SD sub-indeksi üzrə isə 3-cü) yerlərdədir. RİİDİ üzrə 5-ci yerdəki Quba-Xaçmaz iqtisadi rayonunun sub-indeks göstəriciləri də bu cürdür (İİSS sub-indeksi üzrə 3-cü, SD sub-indeksi üzrə 5-ci yerlər).

Əksinə, sub-indekslər üzrə yaxın, amma aşağı yerlər tutan Lənkəran və Dağlıq Şirvan iqtisadi rayonları yekun indeks üzrə reytinqdə, müvafiq olaraq, 8-ci və 7-ci yerləri tutur və (Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarını saymasaq) əslində autsayderlərdir.

## RİİDİ – respublika tabeli şəhərlər

Respublika tabeli şəhərlərin RİİDİ üzrə reytinqi *Cədvəl 10-da* təqdim olunur.

Respublika tabeli şəhərlər arasında RİİDİ üzrə reytinqin lideri Naxçıvan şəhəridir (84,48). Naxçıvan digər şəhərləri hər iki sub-indeks üzrə böyük fərqlə üstələyir, ona görə də onun yekun indeksi, ikinci yerin sahibi Sumqayıtdan az qala 2 dəfə çoxdur. RİİDİ üzrə fərqin böyüklüyü həm də ona işarədir ki, Naxçıvan üzrə hesablamaların dolayı üsulla aparılması nəticələrə (o cümlədən Naxçıvan şəhərinin 1-ci yerdə olmasına) təsir göstərməmişdir.

*Cədvəl 10. RİİDİ və sub-indeksləri*
*(respublika tabeli şəhərlər, 2019)*

| Yer | Şəhərlər | RİİDİ | Sub-indekslər | | | |
|---|---|---|---|---|---|---|
| | | | İİSS sub-indeksi | | SD sub-indeksi | |
| | | | Yer | İİSS | Yer | SD |
| 1 | Naxçıvan | 84,49 | 1 | 80,68 | 1 | 89,96 |
| 2 | Sumqayıt | 53,63 | 2 | 44,33 | 3 | 67,03 |
| **Şəhərlər üzrə orta göstəricilər** | | **52,88** | | **40,84** | | **70,20** |
| 3 | Şirvan | 48,82 | 3 | 37,61 | 4 | 64,95 |
| 4 | Gəncə | 41,86 | 5 | 18,59 | 2 | 75,34 |
| 5 | Mingəçevir | 35,59 | 4 | 22,98 | 5 | 53,74 |

Sumqayıtın yekun indeksi 53,63-ə bərabərdir. İİSS və SD sub indeksləri üzrə, müvafiq olaraq, 2-ci və 3-cü yerləri tutur. 3-cü yerdəki Şirvan və sonuncu, 5-ci yerdəki Mingəçevir şəhərlərinin də sub-indekslər üzrə mövqeləri ziddiyyətli deyil: Şirvan, müvafiq olaraq, 3-cü və 4-cü, Mingəçevir isə 4-cü və 5-ci yerləri tutur. Mövqeləri ziddiyyətli sayıla biləcək yeganə şəhər Gəncədir. İqtisadiyyatının diversifikasiya səviyyəsi kifayət qədər yüksək olan (2-ci yer) Gəncə iqtisadi inkişafın faktik səviyyəsinə görə şəhərlər arasında axırıncıdır.

## RİİDİ – inzibati rayonlar

İİSS sub-indeksi üzrə olduğu kimi, reytinq cədvəli böyük alındığına görə burada da iki hissəyə bölünmüşdür: RİİDİ üzrə orta göstəricidən yuxarı nəticə göstərən rayonlar *Cədvəl 11-də*, aşağı nəticə göstərənlər isə *Cədvəl 12-də* verilmişdir.

Eyni zamanda, yekun indeks üzrə iqtisadi rayonlar üzrə təhlildə olduğu kimi, həm RİİDİ, həm də onun sub-indeksləri üzrə orta göstəricilər Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarına daxil olan 10 inzibati rayon nəzərə alınmadan hesablanmışdır. Səbəb – iqtisadi rayonlar üzrə təhlil bölməsində deyiləndir, yəni

*Cədvəl 11. RİİDİ və onun sub-indeksləri (RİİDİ üzrə orta göstəricidən yüksək nəticə göstərmiş inzibati rayonlar, 2019)*

| Yer | İnzibati rayonlar | RİİDİ | Sub-indekslər | | | |
|---|---|---|---|---|---|---|
| | | | İİSS sub-indeksi | | SD sub indeksi | |
| | | | Yer | İİSS | Yer | SD |
| 1 | Kürdəmir | 49,72 | 3 | 23,82 | 5 | 87,01 |
| 2 | Biləsuvar | 49,16 | 16 | 19,34 | 1 | 92,08 |
| 3 | Babək | 48,69 | 8 | 20,68 | 4 | 89,01 |
| 4 | Qəbələ | 46,83 | 28 | 16,69 | 2 | 90,20 |
| 5 | Göygöl | 45,46 | 40 | 14,47 | 3 | 90,07 |
| 6 | Kəngərli | 44,73 | 13 | 19,39 | 7 | 81,19 |
| 7 | Hacıqabul | 44,71 | 4 | 22,89 | 18 | 76,13 |
| 8 | Xaçmaz | 44,62 | 12 | 19,39 | 8 | 80,93 |
| 9 | Göyçay | 43,67 | 11 | 19,40 | 11 | 78,59 |
| 10 | Qazax | 43,40 | 42 | 14,21 | 6 | 85,41 |
| 11 | Quba | 42,95 | 19 | 18,87 | 13 | 77,60 |
| 12 | Xızı | 42,60 | 1 | 42,11 | 58 | 43,29 |
| 13 | Gədəbəy | 42,49 | 18 | 18,88 | 16 | 76,46 |
| 14 | Şahbuz | 42,15 | 7 | 20,89 | 24 | 72,75 |
| 15 | Sədərək | 41,79 | 20 | 18,55 | 20 | 75,24 |
| 16 | Şərur | 41,60 | 10 | 19,68 | 23 | 73,15 |
| 17 | Oğuz | 41,16 | 44 | 13,98 | 9 | 80,27 |
| 18 | Siyəzən | 40,96 | 2 | 27,06 | 44 | 60,96 |
| 19 | Ağsu | 40,88 | 37 | 14,79 | 12 | 78,43 |
| 20 | Beyləqan | 40,48 | 38 | 14,75 | 14 | 77,52 |
| 21 | Şabran | 40,21 | 14 | 19,38 | 32 | 70,19 |
| 22 | Abşeron | 40,17 | 17 | 19,22 | 31 | 70,32 |
| 23 | Salyan | 40,15 | 47 | 13,37 | 10 | 78,68 |
| 24 | İsmayıllı | 39,81 | 29 | 16,61 | 22 | 73,20 |
| 25 | Şəki | 39,73 | 34 | 14,96 | 19 | 75,38 |
| 26 | Ağcabədi | 39,72 | 26 | 17,09 | 25 | 72,30 |
| 27 | Şamaxı | 39,62 | 21 | 18,28 | 30 | 70,34 |
| 28 | Qax | 38,87 | 41 | 14,28 | 21 | 74,25 |
| 29-30 | Masallı | 38,83 | 49 | 12,62 | 15 | 76,56 |
| 29-30 | Neftçala | 38,83 | 23 | 17,46 | 34 | 69,58 |
| *İnzibati rayonlar üzrə orta göstərici* | | *38,41* | | *16,86* | | *69,41* |

bunların iqtisadi inkişaf və diversifikasiya səviyyəsini digər inzibati rayonlarla müqayisə etməyin yolverilməzliyidir. Orta göstəricilər bu cür hesablananda inzibati rayonlar RİİDİ üzrə orta göstərici ətrafında təxminən bərabər paylanır: 30 iqtisadi rayonun indeksləri orta göstəricidən yüksək, 27 rayonunku isə (Qarabağa daxil olan rayonlarla birlikdə – 37) aşağıdır.

İnzibati rayonlar arasında RİİDİ üzrə reytinqin lideri Kürdəmirdir (49,72). Kürdəmir hər iki sub-indeks üzrə yüksək nəticə göstərmiş, İİSS sub-indeksi üzrə 3-cü, SD sub-indeksi üzrə 5-ci yerləri tutmuşdur. Biləsuvar sıralamanın ikincisidir. Onu reytinqdə irəli çəkən – iqtisadiyyatının yüksək diversifikasiya səviyyəsidir (SD sub-indeksi üzrə 1-ci yer), iqtisadi inkişafın statik səviyyəsi üzrə nəticəsi isə daha mütəvazidir (16-cı yer).

RİİDİ üzrə sıralamanın üçüncüsü Naxçıvan MR-in Babək rayonudur (48,69). Babək hər iki sub-indeks üzrə ilk onluğa daxildir, İİSS sub-indeksi üzrə 8-ci, SD sub-indeksi üzrə 4-cü yerləri tutur. İlk onluqda Naxçıvanın daha bir inzibati rayonu (Kəngərli, 6-cı yer) təmsil olunur.

Müvafiq olaraq, 4-cü və 5-ci yerləri tutan Qəbələ və Göygöl rayonlarının göstəricilərində bənzərlik var. Hər iki rayon SD sub-indeksi üzrə yüksək (müvafiq olaraq, 2-ci və 3-cü), İİSS sub-indeksi üzrə isə nisbətən aşağı (müvafiq olaraq, 28-ci və 40-cı) yerlər tutur. Aydındır ki, RİİDİ üzrə reytinqdə bu rayonların ilk onluğa düşməsi məhz yüksək diversifikasiya sayəsində mümkün olmuşdur.

İlk onluqda yer alan 4 inzibati rayon (Kürdəmir, Biləsuvar, Hacıqabul, Göyçay) Aran iqtisadi rayonuna, 2 inzibati rayon (Babək, Kəngərli) Naxçıvan iqtisadi rayonuna, 2 inzibati rayon (Göygöl, Qazax) Gəncə-Qazax iqtisadi rayonuna, 1 inzibati rayon (Qəbələ) Şəki-Zaqatala iqtisadi rayonuna, 1 inzibati rayon (Xaçmaz) Quba-Xaçmaz iqtisadi rayonuna daxildir.

Qarabağın 10 inzibati rayonu RİİDİ üzrə reytinqdə, qanunauyğun olaraq, son 10 yeri tutur. Bunları saymasaq, reytinqin autsayderi 57-ci yerdəki Cəlilabad rayonudur (27,10). Cəlilabad həm İİSS, həm də SD sub-indeksi üzrə aşağı (müvafiq olaraq, 43-cü və 55-ci) yerlərdədir. Axırdan 2-ci yeri tutan Yardımlı rayonu da təxminən eyni vəziyyətdədir (müvafiq olaraq, 57-ci və 48-ci yerlər).

*Cədvəl 12. RİİDİ və onun sub-indeksləri (RİİDİ üzrə orta göstəricidən aşağı nəticə göstərmiş inzibati rayonlar, 2019)*

| Yer | İnzibati rayonlar | RİİDİ | Sub-indekslər | | | |
|---|---|---|---|---|---|---|
| | | | Yer | İİSS | Yer | SD |
| 31 | Lənkəran | 38,18 | 52 | 11,80 | 17 | 76,15 |
| 32 | Şəmkir | 37,57 | 24 | 17,28 | 38 | 66,77 |
| 33 | Ordubad | 37,56 | 31 | 15,55 | 35 | 69,23 |
| 34-35 | Ağdaş | 37,23 | 15 | 19,36 | 41 | 62,96 |
| 34-35 | Balakən | 37,23 | 45 | 13,81 | 28 | 70,94 |
| 36 | Zaqatala | 36,93 | 35 | 14,84 | 36 | 68,73 |
| 37 | Qusar | 36,72 | 39 | 14,64 | 37 | 68,49 |
| 38 | Tərtər | 36,42 | 53 | 11,53 | 26 | 72,25 |
| 39 | Ağstafa | 36,32 | 51 | 12,18 | 27 | 71,04 |
| 40 | Culfa | 36,24 | 27 | 16,86 | 39 | 64,13 |
| 41 | Ucar | 36,04 | 50 | 12,61 | 33 | 69,75 |
| 42 | İmişli | 35,69 | 9 | 20,08 | 49 | 58,16 |
| 43 | Tovuz | 34,50 | 36 | 14,80 | 42 | 62,86 |
| 44 | Lerik | 34,12 | 56 | 8,85 | 29 | 70,48 |
| 45 | Goranboy | 33,52 | 33 | 14,99 | 45 | 60,17 |
| 46 | Naftalan | 33,35 | 6 | 21,15 | 54 | 50,92 |
| 47 | Sabirabad | 33,18 | 32 | 15,05 | 46 | 59,27 |
| 48 | Astara | 32,43 | 54 | 10,64 | 40 | 63,78 |
| 49 | Daşkəsən | 31,99 | 5 | 22,83 | 56 | 45,18 |
| 50 | Zərdab | 31,77 | 55 | 10,21 | 43 | 62,80 |
| 51 | Saatlı | 31,65 | 48 | 12,68 | 47 | 58,94 |
| 52 | Qobustan | 31,31 | 25 | 17,24 | 53 | 51,57 |
| 53 | Yevlax | 30,68 | 30 | 15,67 | 52 | 52,29 |
| 54 | Samux | 30,20 | 46 | 13,51 | 51 | 54,20 |
| 55 | Bərdə | 28,82 | 22 | 18,08 | 57 | 44,26 |
| 56 | Yardımlı | 28,51 | 57 | 7,77 | 48 | 58,37 |
| 57 | Cəlilabad | 27,10 | 43 | 14,18 | 55 | 45,69 |
| 58 | Füzuli | 25,11 | 59 | 4,24 | 50 | 55,15 |
| 59 | Şuşa | 16,95 | 62 | 1,69 | 59 | 38,91 |
| 60 | Laçın | 15,35 | 63 | 1,37 | 60 | 35,45 |
| 61 | Kəlbəcər | 15,26 | 61 | 2,25 | 61 | 33,97 |
| 62 | Ağdam | 13,85 | 60 | 2,92 | 63 | 29,59 |
| 63 | Zəngilan | 12,23 | 67 | 0,03 | 62 | 29,80 |
| 64 | Xocalı | 12,05 | 58 | 4,80 | 65 | 22,49 |
| 65 | Cəbrayıl | 10,94 | 64 | 1,27 | 64 | 24,87 |
| 66 | Xocavənd | 6,20 | 66 | 1,13 | 66 | 13,48 |
| 67 | Qubadlı | 5,89 | 65 | 1,15 | 67 | 12,72 |

Yardımlını bir pillə qabaqlayan Bərdə rayonunda sub-indekslərin nisbəti fərqlidir. Bərdə İİSS sub-indeksinə görə 22-ci, SD sub-indeksinə görə 57-ci yerdədir. Bu o deməkdir ki, iqtisadi inkişafın statik səviyyəsinə görə ortadan yuxarı göstəriciyə malik olan Bərdəni sahəvi diversifikasiya üzrə göstəricisi geriyə çəkir. Hələ bu, İİSS sub-indeksinə artıq çəki (0,41-ə qarşı 0,59) verilməsi şərti altındadır. Əgər sub-indekslərin çəkisi bərabər, yaxud SD sub-indeksinin xeyrinə olsaydı, yekun indeks üzrə Bərdənin mövqeyi daha pis olardı.

Son beşlikdə Samux və Yevlax rayonları da yer alır (müvafiq olaraq, 54-cü və 53-cü yerlər). Bu rayonlar İİSS sub-indeksinə görə, müvafiq olaraq, 46-cı və 30-cu, SD sub-indeksinə görə 51-ci və 52-ci yerləri tutur. Yevlaxın ikinci sub-indeks üzrə geriliyini şərtləndirən əsas səbəblərdən biri, nə qədər qəribə səslənsə də, müsbət səciyyəlidir və ondan ibarətdir ki, əvvəlki illərdə infrastruktur quruculuğu ilə bağlı aparılan bir sıra işlər artıq tamamlanmışdır. Ona görə də tikintinin həm mütləq həcmi, həm də ümumi məhsul buraxılışındakı xüsusi çəkisi kəskin surətdə azalmışdır. Bu isə, öz növbəsində, sahələrin nisbətinin ideal paylanmadan kənarlaşmasını çoxaltmışdır. Onu da qeyd etmək lazımdır ki, hazırda Yevlax rayonunda xidmət sektorunun ÜMB-də xüsusi çəkisi 50%-in üstündədir və iqtisadi fəaliyyətdən adambaşına gəlirin yüksək olması (bu göstəriciyə görə rayon 9-cu yerdədir), görünür, həm də bunun nəticəsidir. Xidmət sektorunun ideal payı belə kəskin şəkildə (2 dəfədən artıq) üstələməsi SD sub-indeksini geriyə çəksə də, iqtisadi inkişafın uzunmüddətli trendləri baxımından müsbət qiymətləndirilməlidir.

Son onluğa Aran iqtisadi rayonunun 4 inzibati rayonu (Zərdab, Saatlı, Yevlax, Bərdə), Lənkəran iqtisadi rayonunun 3 inzibati rayonu (Astara, Yardımlı, Cəlilabad), Gəncə-Qazax iqtisadi rayonunun 2 inzibati rayonu (Samux, Daşkəsən), Dağlıq Şirvan iqtisadi rayonunun 1 inzibati rayonu (Qobustan) daxildir.

Göründüyü kimi, iqtisadi rayonlar ölkə ərazisinin kompakt hissələrə bölünməsi yolu ilə formalaşdırıldıqlarına görə iqtisadi inkişaf və diversifikasiya səviyyəsi etibarilə hazırda bir-birindən kəskin surətdə fərqlənən inzibati rayonlardan ibarətdir. Aran iqtisadi rayonunun 4 inzibati rayonu RİİDİ üzrə sıralamada ilk onluğa, 4 inzibati rayonu isə son onluğa, Gəncə-Qazax iqtisadi rayonunun 2 inzibati rayonu ilk onluğa, 2 inzibati rayonu isə son onluğa daxildir. Başqa sözlə, iqtisadi rayonlar indi *iqtisadi* ra-

yon olmaqdan ziyadə, *coğrafi* rayonlardır, yaxud *vilayətlərdir*. Ola bilər ki, ölkənin inzibati-ərazi strukturu təkmilləşdirilərkən bu məsələ də nəzərə alınsın.

Naftalan şəhəri haqqında ayrıca bir şərhə ehtiyac var. Deyildiyi kimi, Naftalan respublika tabeli şəhər olsa da, bu araşdırmada inzibati rayonların "siyahısına" salınmışdır. Bu, Naftalanın şəhərlərlə inzibati rayonlar arasında bir növ "aralıq" mövqedə dayanması ("nə şəhər kimi şəhər, nə kənd kimi kənd" olması) səbəbindəndir. Çünki inzibati rayonlarda sənayenin də inkişaf etməsi şərtdir, yəni vacibdir və inkişaf göstəricisidir, amma şəhərlərdə kənd təsərrüfatının olması şərt deyil.

Əgər diversifikasiya üzrə qiymətləndirmədə Naftalana şəhər kimi baxılsaydı, yəni kənd təsərrüfatı kənara qoyulub, 3 sahə – sənaye, inşaat və xidmətlər təhlil edilsəydi, Naftalanda ideal paylanmadan toplam kənarlaşma 49,8 faiz bəndi, onun SD sub-indeksi isə 62,86 olardı. Naftalanın yekun indeksi 38,25-ə bərabər olardı və o, RİİDİ üzrə şəhərlərin reytinqində 5-ci yerə düşərdi. Amma bu halda onun iqtisadiyyatının əhəmiyyətli bir hissəsi (5%-i) təhlildən kənar qalardı. Fakt ondan ibarətdir ki, Naftalanın inzibati rayonlarla bir sırada təhlil olunması şəhərin "reytinq haqqını" tapdalamır: o hər iki halda (istər şəhərlər, istərsə də inzibati rayonlar arasında) öncül yerlərə hələ ki iddia edə bilmir.

Diqqət çəkən problemlərdən biri də odur ki, bir sıra inzibatı rayonların İİSS və SD sub-indeksləri üzrə göstəriciləri çox ziddiyyətlidir (yuxarıda bu məsələyə ötəri toxunulmuşdu). *Cədvəl 13-də* bu sub-indekslər üzrə reytinqlərdəki yerləri ən kəskin şəkildə fərqlənən 11 inzibati rayon çoxdan-aza doğru sıralanmışdır. Fərqin müsbətmi, ya mənfimi işarəli olduğu xüsusi bir məna kəsb etmir, çünki məqsəd hansı sub-indeks üzrə yerin yüksək, hansı üzrə aşağı olduğunu göstərmək yox, bu yerlər arasındakı fərqin böyüklüyünü-kiçikliyini göstərməkdir. Bu tipli sıralamalara mənfi reytinqlər deyir-

***Cədvəl 13. İİSS və SD sub-indeksləri üzrə sıra yerlərində ən kəskin fərq olan inzibati rayonlar (2019)***

| ***RİİDİ üzrə yer*** | ***İnzibati rayonlar*** | ***İİSS və SD üzrə yerlərin fərqi*** |
|---|---|---|
| 12 | Xızı | 57 |
| 49 | Daşkəsən | 51 |
| 46 | Naftalan | 48 |
| 18 | Siyəzən | 42 |
| 42 | İmişli | 40 |
| 5 | Göygöl | 37 |
| 23 | Salyan | 37 |
| 10 | Qazax | 36 |
| 17 | Oğuz | 35 |
| 31 | Lənkəran | 35 |
| 55 | Bərdə | 35 |

lər – o mənada ki, burada ən yuxarı yer ən pis, ən aşağı yer isə ən yaxşı yer sayılır.

Ən böyük fərq Xızı rayonundadır. Sonra Daşkəsən və Naftalan gəlir. Onluğun son yerlərində isə Bərdə, Lənkəran və Oğuz var. Maraqlısı odur ki, bu siyahıya RİİDİ üzrə reytinqdə ilk onluğa düşən 2 inzibati rayon (5-ci yeri tutan Göygöl və 10-cu yeri tutan Qazax) da düşmüşdür.

İqtisadiyyatın bütün sahələrinin bərabər (bir-birinə yaxın) paylara malik olması, prinsipcə, iqtisadi diversifikasiyanın (və deməli, həm də iqtisadi inkişafın dayanıqlığının) göstəricisi olsa da, iqtisadiyyat yetərincə uğurla inkişaf etmədikdə mənasını itirir. Eynən, iqtisadiyyatın əldə olunmuş (cari) inkişaf göstəriciləri yüksək olsa da, sahəvi diversifikasiya yoxdursa (çox zəifdirsə), inkişafın səbatlığı və dayanıqlığı ciddi risk altına düşür. Ona görə də sub-indekslər üzrə fərqin böyüklüyü bütün hallarda təxirəsalınmaz tədbirlər görülməsinin vacibliyinə işarədir.

# YEKUN MÜLAHİZƏLƏR

Bir çox dövlətlər kimi, Azərbaycan da öz bölgələrinin ahəngdar, tarazlı inkişafını iqtisadi siyasətin prioritetlərinə aid edir. Bu məqsədlə müxtəlif təyinatlı dövlət sənədləri, o cümlədən məqsədli proqramlar qəbul olunur. Lakin regionlararası tarazlıq həmişə pozulmağa meyillidir, çünki inkişaf, tarazlığın qorunması yox, pozulması və yenidən (yeni səviyyədə) bərqərar olması yolu ilə baş verir. Ona görə də *regionlararası tarazlıq axtarışı heç vaxt bitməyən daimi prosesdir.*

Ölkə bölgələrinin ahəngdar inkişafının yollarını tapmaqdan ötrü dünyanın bir sıra inkişaf etmiş və etməkdə olan ölkələrində elmi tədqiqatlar aparılır. Bu problemlərlə Azərbaycan cəmiyyətşünasları da (ilk növbədə, əlbəttə, iqtisadçılar) məşğul olurlar. Təqdim olunan araşdırma regionlararası iqtisadi tarazlığa və bölgələrdə iqtisadiyyatın sahələrarası diversifikasiyasına daha bir baxış hesab edilə bilər. Özəlliyi ondadır ki, konkret (və bəlli bir biçimdə yeni sayıla biləcək) ölçmə metodologiyası üzərində qurulmuşdur.

Müqayisəli sosial-iqtisadi araşdırmaların bir universal xüsusiyyəti var. Burada əsas nəticə – sıralamanın özüdür və dövlət qurumlarına tövsiyələr də bu sıralamalardan "avtomaik rejimdə oxunur". Məsələn, dövlət qurumları, ölkənin ayrı-ayrı bölgələrinin inkişafına maliyyə vəsaitlərinin ayrılmasını planlaşdırarkən regionlar arasında seçim etməkdən ötrü bu tipli sıralamaları incələmələri yetərlidir. Bu zaman seçim, təbii ki, dövlətin prioritetlərinə bağlıdır: əsas vəzifə geri qalan bölgələri öndə gedənlərin

səviyyəsinə çatdırmaqdırsa, seçim bir cür, əvvəllər ayrılmış vəsaitlərdən daha səmərəli istifadə etmiş bölgələri bir az da həvəsləndirməkdirsə, başqa cür olacaqdır.

Bölgələrarası müqayisəli tədqiqatlar yerli hakimiyyət orqanlarına da (bizim halda: şəhər və rayonların icra hakimiyyətlərinə) düzgün qərarlar qəbul etməkdə ciddi kömək göstərə bilir. Bu orqanlar öz şəhər və rayonlarının eynitipli inzibati-ərazi vahidləri arasında hansı mövqe tutduğunu, hansı göstəricilər üzrə (və nə qədər) irəlidə, yaxud geridə olduğunu obyektiv ölçmələr əsasında dəyərləndirə bilirlər.

*  *  *

Nəzəri cəhətdən, ölkələrin və onların regionlarının iqtisadi inkişaf səviyyəsi ilə iqtisadiyyatlarının sahəvi diversifikasiyası arasında müəyyən bağlılıq olmalıdır. Yetərli səviyyədə şaxələndirilməmiş (başqa bir ifadə ilə – səbatlı və dayanıqlı olmayan) iqtisadi inkişaf, bir müddət sürətlə getsə belə, daxili və xarici şokların təsiri altında əvvəl-axır yerində saymağa və hətta geriləməyə başlayır.

Azərbaycan regionlarının iqtisadi inkişaf səviyyəsi ilə iqtisadiyyatlarının sahəvi diversifikasiyası arasındakı asılılıq bu nəzəri müddəanı empirik məlumatlarla təsdiq edir *(Diaqram 11)*. İİSS və SD sub-indeksləri arasında "anormal" yüksək fərqin olduğu 4 inzibati rayon (Xızı, Daşkəsən, Siyəzən, İmişli) və Naftalan şəhəri Diaqramda nəzərə alınmamışdır. 13-cü Cədvəldə göstərildiyi kimi, sub-indekslər üzrə reytinq yerlərində ən kəskin fərq məhz bu ərazi vahidlərində müşahidə olunur. Onlar Diaqrama daxil edildikdə işarələri xətti trenddən, təbii ki, ekstremal kənarlaşmada yerləşir və sub-indekslər arasındakı asılılığın sıxlığı kəskin şəkildə (0,27-ə qədər) aşağı düşür. Bunun səbəbləri ayrıca araşdırıla bilər. Burada məqsəd, sadəcə olaraq, əksər (tipik) rayonların görtəriciləri əsasında sub-indekslər arasındakı asılılığın sıxlığını və istiqamətini müəyyənləşdirməkdir.

Normal halda, iqtisadi inkişafın statik səviyyəsi ilə sahəvi diversifikasiya arasındakı korrelyasiya kifayət qədər yüksəkdir. Azərbaycanın bölgələri üzrə bu asılılıq orta-yüksək səviyyədədir (0,61) və müsbətdir. Bu o deməkdir ki, iqtisadiyyatın diversifikasiyası gücləndikcə iqtisadi inkişaf səviyyəsi artmağa meyillənir. Əksi də doğrudur: daha yüksək iqtisadi inkişafa nail olmuş bölgələrdə iqtisadiyyatın diversifikasiyası da, bir qayda olaraq, daha güclüdür.




Bir daha qeyd etməkdə fayda var ki, iqtisadiyyatın diversifikasiyası onun sahə strukturunun optimallaşdırılması ilə eyni şey deyil. Nəzəri olaraq demək mümkündür ki, əgər iqtisadi inkişaf səviyyəsi iqtisadiyyatın sahə strukturunun təkmilləşdirilməsi ilə tutuşdurulsaydı, daha sıx asılılıq müşahidə olunardı.

*     *     *

İri sənaye şəhərləri iqtisadi rayonların iqtisadi inkişaf göstəricilərinə müsbət təsir göstərir. Araşdırılan şəhərlər üzrə İİSS sub-indeksinin orta qiyməti 40,83, inzibati rayonlarınkı isə 16,86-dır. İİSS sub-indeksi üzrə sıralamada ilk 4 yeri tutan iqtisadi rayondan 3-nün tərkibində sənaye şəhəri var. Şəhərlərlə inzibatı rayonları sahəvi diversifikasiya üzrə də müqayisə etmək olar, amma nəzərə almaq lazımdır ki, SD sub-indeksi şəhərlər və inzibati rayonlar üçün bir qədər fərqli yanaşma əsasında hesablanmışdır. Şəhərlər iqtisadi rayonlarda sənaye, xidmət və tikintinin pay göstəricilərini artırdığına görə onlar üçün, bir növ, balanslaşdırıcı rol oynayır.

İqtisadi rayonlarda, respublika tabeli şəhərlərdə və inzibati rayonlarda istər iqtisadi inkişaf səviyyəsinə, istərsə də diversifikasiya dərəcəsinə (və təbii ki, həm də bunları ölçən İİSS və SD sub-indekslərinə) ən ciddi təsir göstərən amillərdən biri əsas kapitala yönəldilən investisiyalardır. İqtisadiyyatı nisbətən kiçik olan rayonlarda bircə

ortahəcmli sərmayə yatırımı iqtisadi göstəriciləri, o cümlədən iqtisadiyyatın əsas sahələrinin nisbətini əsaslı şəkildə dəyişdirə bilər. Əlbəttə, hər hansı bir rayona özəl investisiyaların gəlməsi onun üçün olduqca müsbət prosesdir. Rayonun iqtisadi göstəricilərinin bu yolla yaxşılaşması yalnız alqışlana bilər. Amma dövlətin mərkəzləşdirilmiş resursları hesabına yatırılan investisiyalar bir qədər fərqli xarakterə malikdir.

Nəzərdə tutmaq lazımdır ki, dövlət vəsaiti hesabına əsas kapitala yönəldilən investisiyalar əsas etibarilə infrastruktur layihələri ilə bağlıdır. Şübhəsiz, istənilən bir ölkədə, yaxud onun bölgəsində infrastruktur gələcək iqtisadi inkişaf baxımından həlledici əhəmiyyətə malikdir. Deyək ki, elektrik enerjisi ilə lazımi səviyyədə təmin olunmayan, enerjinin müəssisələr üçün əlçatar olmadığı hər hansı bir bölgədə – orada biznes üçün ən əlverişli şərait (məsələn, vergi rejimi) yaradılsa belə – iqtisadi inkişafın uğurla gedə biləcəyini düşünmək sadəlövhlükdür. Bölgələrdə infrastrukturu inkişaf etdirmək, əlbəttə, zəruridir.

Amma iş ondadır ki, infrastruktur quruculuğu üzrə layihələr müəyyən bir dövr ərzində başa çatdırılır. Xüsusilə də yenilənmə və təmir layihələri qısa müddət tələb edir. İnfrastruktura yatırılan investisiyalar şəhər və rayonların cari iqtisadi göstəricilərinə nə qədər böyük təsir göstərsə də, mahiyyət etibarilə "qalıcı" deyil. Layihə başa çatdırıldıqdan sonra bölgənin iqtisadiyyatı öz keçmiş (layihədən əvvəlki) göstəricilərinə "qayıdır". Ona görə də hansısa konkret bir dövr üçün (bizim halda – 2019-cu ilin göstəriciləri əsasında) təhlil apararkən dövlət vəsaiti hesabına əsas kapitala yönəldilən investisiyaların həcminə ayrıca toxunulmalıdır. 2019-cu ildə əsas kapitala investisiyalar haqqında bəzi məlumatlar *Əlavə 6*-da verilmişdir.

İstehsal və xidmət müəssisələrinin qurulmasına və inkişafına (yəni genişləndirilməsinə və modernləşdirilməsinə) yönəldilən dövlət investiyaları isə "qalıcı" xarakterlidir. İstər iqtisadi inkişaf səviyyəsinin, istərsə də diversifikasiyanın dayanıqlığı ("uzunömürlüyü") baxımından bunlar bölgələr üçün daha əhəmiyyətlidir. Bu və ya digər zaman kəsiyində (məsələn, hansısa ildə) müəssisələrə yönəldilən investisiyalar sonrakı dövrlərdə (illərdə) də "işləyir". Ona görə də hansısa inzibati-ərazi vahidində iqtisadiyyatın cari inkişaf və diversifikasiya səviyyəsinə təsir edən amilləri qiymətləndirərkən təhlil ilində yatırılmış investisiyaları yox, "toplanmış" investisiyaları araşdırmaq daha düzgün yanaşmadır. Lakin bölgələr üzrə bu göstəricilər, təəssüf ki, əlyetər deyil.

*   *   *

Azərbaycanın əksər inzibati rayonlarında kənd təsərrüfatı iqtisadiyyatın ən ağırlıqlı sahəsidir. Qarabağı və Naftalan şəhərini nəzərə almasaq, araşdırılan 56 inzibati rayonun 52-sində kənd təsərrüfatının xüsusi çəkisi ideal paydan artıq və cəmi 4-ündə azdır. Tikinti sektoruna gəlincə, ayrı-ayrı rayonlarda onun xüsusi çəki dəyişmələri ziqzaqvari xarakter daşıyır ki, bu da, əsas etibarilə, infrastruktur layihələrinin gerçəkləşdirilməsi ilə bağlıdır. Bu iki səbəbə görə, sənayenin və xidmət sektorunun xüsusi çəkisinin artması bölgələrimizdə sahəvi diversifikasiyaya – onun bu araşdırmadakı təfsirində – müsbət təsir göstərən əsas amilə çevrilir.

Xidmət sektorunun inkişafını prioritet vəzifələr səviyyəsinə qaldıran daha bir qanunauyğunluq var. Əhalinin 4 əsas iqtisadi sektorda yaranan gəlirlərinin (yalnız iqtisadi fəaliyyətdən qazanılan gəlirlər nəzərdə tutulur) müqayisəsi göstərir ki, xidmətlər bu sahədə şəksiz liderdir. Xidmət sektorunun xüsusi çəkisi ilə İFG alt-indeksi arasında asılılıq digər sektorlarınkına nisbətən dəfələrlə daha sıxdır. Belə demək mümkündür ki, hazırkı mərhələdə sənayenin və xidmət sektorunun üstün templərlə inkişaf etməsi və müvafiq olaraq, xüsusi çəkilərinin artması kimi cərəyan edən diversifikasiya prosesi bölgələrimizdə ictimai rifahı yüksəltməyin əsas trendinə çevrilir.

*   *   *

Azərbaycanda bölgələrin iqtisadi inkişaf və diversifikasiya səviyyəsinə təsir göstərən, amma bununla belə, həmin səviyyəni qiymətləndirmək üçün bu araşdırmada təklif olunan kompozit indeksin göstəriciləri sisteminə daxil olmayan bir sıra amillərin mövcudluğu şübhəsizdir. Bunların biri ümumi səciyyə daşıyır və istənilən bölgədə iqtisadi inkişafın hətta yekun göstəricisi də hesab oluna bilər. Söhbət bölgələrin maliyyə özünəyetərliyindən gedir.

Hər hansı iqtisadi rayonun, şəhərin, yaxud inzibati rayonun adambaşına ÜMB, ictimai əmək məhsuldarlığı, iqtisadi fəaliyyətdən gəlirlər və bu qəbildən olan digər iqtisadi göstəriciləri nə qədər yüksək olursa olsun, öz gəliri ilə xərclərini ödəyə bilmirsə, deməli, iqtisadi inkişafının səviyyəsi hələ qənaətbəxş deyil. Maliyyə özünəyetərliyini ölçmək üçün ən yaxşı yol – bölgələrin Dövlət büdcəsindən aldığı dotasiyaların (mahiyyət etibarilə, yardımın) nisbi səviyyəsini müəyyənləşdirmək, bunun ən yaxşı üsulu

isə – həmin dotasiyaların yerli büdcə gəlirlərinə nisbətini hesablamaqdır. Bu, çox sadə bir yanaşmadır və zəruri statistik məlumatlar da əlçatardır.

Buna baxmayaraq, RİİDİ üzrə reytinqdə dotasiyaları nəzərə almaq mümkün deyil və bunun da səbəbi çox sadədir: Azərbaycanda bir çox inzibati-ərazi vahidləri Dövlət büdcəsindən heç bir dotasiya almır. Əgər dotasiya alan bölgələri həmin dotasiyaların nisbi göstəriciləri əsasında sıralamaq mümkündürsə də, almayanları sıralamaq qeyri-mümkündür. Odur ki, RİİDİ və onun sub-indeksləri üzrə təhlillərdə dotasiyalar haqqında statistikadan yalnız əlavə analitik alət kimi istifadə oluna bilir. Əvvəlki bölmələrdə bu statistikaya dəfələrlə müraciət olunmuşdur.

Əlbəttə, hansısa şəhər və ya rayona ayrılan dotasiyalar qısamüddətli dövrdə (məsələn, burada baxıldığı kimi, cari ildə) onun iqtisadi göstəricilərini əhəmiyyətli dərəcədə, bəzənsə radikal surətdə yaxşılaşdırır. Amma mühüm olan nəticə odur ki, iqtisadiyyatı yetərincə şaxələnmiş və bəlli bir inkişaf səviyyəsinə çatmış bölgələr Dövlət büdcəsindən yardım almadan keçinirlər, yəni özlərini "dolandıra" bilirlər. Regional İqtisadi İnkişaf və Diversifikasiya İndeksi üzrə reytinqdə ilk 10-luqda yer alan inzibati rayonlardan yalnız biri (Göygöl) 2019-cu ildə Dövlət büdcəsindən dotasiya almışdır. Halbuki Qarabağa aid rayonları saymasaq, son 10-luqdakı rayonlardan 5-i (Daşkəsən, Qobustan, Samux, Yardımlı, Cəlilabad) dotasiyasız keçinə bilmir.

Bu fakt, bölgələrdə iqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün təklif və tətbiq olunan RİİDİ metodologiyasının dürüstlüyünə daha bir işarədir.

Dotasiyalar mövzusunu qapatmaq üçün Dövlət büdcəsindən Naxçıvan MR-ə ayrılan dotasiyaların çoxluğuna bir də toxunaraq qeyd edək ki, burada siyasi səbəblər iqtisadi məntiqdən daha böyük əhəmiyyət kəsb edir. Aydın məsələdir ki, bu dotasiyalar istər Naxçıvan iqtisadi rayonunun, istər Naxçıvan şəhərinin, istərsə də Muxtar Respublikanın tərkibindəki inzibati rayonların iqtisadi inkişaf göstəricilərini müəyyən dərəcədə "şişirdir". Bu isə, öz növbəsində, bölgələrarası müqayisələrə bəlli bir qeyri-dəqiqlik elementi gətirir.

Lakin nəzərə almaq lazımdır ki, RİİDİ bölgələrin cari iqtisadi inkişaf və diversifikasiya səviyyəsini qiymətləndirmək üçün təklif olunan adi bir analitik alətdir və bu alətdən daha artığını gözləmək olmaz.

# ƏLAVƏLƏR

*Əlavə 1*

# Ekspert sorğusunun iştirakçıları (adlarının əlifba sırası ilə)

**Akif Musayev** – i.e.d., prof., AMEA-nın müxbir üzvü *(AMEA İqtisadiyyat İnstitutu)*

**Arzu Hüseynova** – i.e.d., prof. *(İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu)*

**Eldar İsmayılov** – prof. *(Qafqazın Strateji Tədqiqatları İnstitutu)*

**Elşən Bağırzadə** – i.f.d., dos. *(UNEC)*

**Fərqanə Musayeva** – i.f.d., dos. *(Azərbaycan Texniki Universiteti)*

**Fuad Qənbərov** – i.e.d. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Gülşən Yüzbaşiyeva** – i.e.d., prof. *(AMEA İqtisadiyyat İnstitutu)*

**İlham Aslanzadə** – i.e.d., prof. *(Azərbaycan Texniki Universiteti)*

**İlqar Seyfullayev** – i.f.d., dos. *(UNEC)*

**Mahir Zeynalov** – i.f.d., dos. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Müşfiq Atakişiyev** – i.e.d., prof. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Pərviz Həsənov** – i.f.d., dos. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Qənimət Səfərov** – i.e.d., prof. *(ADNSU)*

**Rəna Sultanova** – i.e.d., prof. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Rəşad Hüseynov** – i.f.d., dos. *(UNEC)*

**Rəsmiyyə Abdullayeva** – i.f.d., dos. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Rövşən Quliyev** – i.e.d., prof. *(UNEC)*

**Şəfa Əliyev** – i.e.d., prof. *(Sumqayıt Dövlət Universiteti)*

**Tərbiz Əliyev** – i.e.d., prof. *(AMEA İqtisadiyyat İnstitutu)*

**Vaqif Rüstəmov** – i.f.d., dos. *(müstəqil ekspert)*

**Veysəl Əyyubov** – i.e.d., prof. (*Mingəçevir Dövlət Universiteti*)

**Xatirə Hüseynova** – i.e.d., prof. (*Dövlət İdarəçilik Akademiyası*)

**Yalçın Əzizov** – i.f.d., dos. *(İqtisadiyyat Nazirliyi)*

**Yusif Yusifov** – i.f.d., dos. *(Dövlət Statistika Komitəsi)*

# İqtisadi rayonlarda ÜMB-nin dinamikası




Son 5 ildə Xızı rayonunda ÜMB ilə ölçülən iqtisadi inkişaf böyük dalğalanmalarla səciyyələnmişdir.

Son 3 ildə Abşeron iqtisadi rayonunda ÜMB artımı Sumqayıt şəhərinin hesabına əldə olunmuşdur.

Son 2 ildə Abşeron və Xızı rayonlarında ÜMB-nin artım tempi aşağı düşmüşdür.




2018-ci ildə Aran iqtisadi rayonunda ÜMB-nin artımı kəskin zəifləmiş, 2019-cu ildə bir qədər güclənmişdir. 7 inzibati rayonda (Beyləqan, Biləsuvar, Göyçay, İmişli, Kürdəmir, Ucar və Zərdab) artım daha sürətli olmuşdur.




2018-ci ildə Dağlıq Şirvan iqtisadi rayonunda ÜMB-nin artım tempi aşağı düşmüşdür. 2019-cu ildə artsa da, 2017-ci ilin səviyyəsinə çatmamışdır.

Qobustan rayonunda ÜMB böyük dalğalanmalarla səciyyələnir. 2018-ci ildə onun mütləq həcmi hətta azalmış, əvəzində 2019-cu ildə 30%-dən çox artmışdır.



**Gəncə-Qazax iqtisadi rayonunda və onun bəzi şəhər və inzibati rayonlarında ÜMB-nin dinamikası (2011-2019, əvvəlki ilə nisbətən %-lə)**

2011-2019-cu illərdə Gəncə-Qazax iqtisadi rayonunda ÜMB-nin ən yüksək artımı 2017-ci ilə təsadüf edir. 2018-ci ildə artım, praktik surətdə olmamış, 2019-cu ildə qismən bərpa edilmişdir. 2019-cu ildə inzibati rayonların ÜMB-nin artımına qatqısı şəhərlərə nisbətən daha çox olmuşdur.



**Quba-Xaçmaz iqtisadi rayonunda və onun bəzi inzibati rayonlarında ÜMB-nin dinamikası (2011-2019, əvvəlki ilə nisbətən %-lə)**

2017-ci ildə Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan bütün inzibati rayonlarda, xüsusilə də Siyəzəndə ÜMB-nin artım tempi yüksək olmuşdur. 2019-cu ildə isə ÜMB-nin artımı hətta 2017-ci ildən də çox olmuşdur. 2017-2019-cu illərdə bu cür dinamika yalnız Quba-Xaçmaz və Abşeron iqtisadi rayonlarına xasdır.




Lənkəran iqtisadi rayonu yeganə iqtisadi rayondur ki, son 2 ildə ÜMB-nin dinamikası mənfi işarəlidir. Xüsusilə Lənkəran rayonunun özündə dramatik azalma baş vermişdir.




Naxçıvan Müxtar Respublikasında ÜMB-nin ən yüksək artımı 2011-ci ilə təsadüf edir. Sonrakı illərin ümumi meyili artımın səngiməsidir.




2017-ci ildə ÜMB-nin əksər iqtisadi rayonlar üçün tipik olan yüksək artımı Şəki-Zaqatala iqtisadi rayonunda da müşahidə edilmişdir. 2018-ci ildə artımın zəifləməsi də əksər iqtisadi rayonlar üçün səciyyəvi sayıla bilər. Həmin il bu iqtisadi rayonda ÜMB yalnız Qəbələ rayonunda ciddi səviyyədə (16,1%) artmışdır.

# İİSS sub-indeksi və onun alt indeksləri







ÜMB alt-indeksi üzrə 10 lider və 10 autsayder inzibati rayon
(Qarabağsız, 2019)
60
50
40
30
20
10
0
57
29
25
21
21
20
20
19
19
19
14
10
9
9
9
9
8
7
7
7
5
Xızı
Siyəzən
Daşkəsən
Şahbuz
Babək
Şabran
Şərur
Kəngərli
İmişli
Gədəbəy
Orta göstərici
Cəlilabad
Goranboy
Balakən
Yevlax
Tərtər
Lənkəran
Masallı
Astara
Lerik
Yardımlı


İƏM alt indeksi üzrə 10 lider və 10 autsayder inzibati rayon
(Qarabağsız, 2019)
60
50
40
30
20
10
0
55
33
25
24
22
22
21
21
21
20
16
11
11
10
10
10
9
9
8
8
6
Xızı
Siyəzən
Daşkəsən
Şabran
Hacıqabul
İmişli
Kürdəmir
Şahbuz
Babək
Gədəbəy
Orta göstərici
Qax
Yevlax
Goranboy
Tərtər
Balakən
Masallı
Lənkəran
Astara
Lerik
Yardımlı



İFG alt-indeksi üzrə 10 lider və 10 autsayder inzibati rayon
(Qarabağsız, 2019)
40
35
30
25
20
15
10
5
0
38
31
30
30
28
28
28
27
26
26
20
15
15
15
15
15
15
13
12
11
8
Naftalan
Kürdəmir
Ağdaş
Göyçay
Quba
Bərdə
Şamaxı
Hacıqabul
Yevlax
Neftçala
Orta göstərici
Ordubad
Şabran
Tərtər
Salyan
Saatlı
Ucar
Ağstafa
Lerik
Yardımlı
Zərdab

# İdeal paylanmadan kənarlaşmalar












SD sub-indeksi üzrə reytinqdə son 9 yeri tutan Qarabağ rayonları nəzərə alınmamışdır. Füzuli rayonu bu reytinqdə 8 rayonu qabaqlayaraq, 50-ci yeri tutmuşdur.




SD sub-indeksi üzrə reytinqdə son 9 yeri tutan Qarabağ rayonları nəzərə alınmamışdır.

# İqtisadiyyatın əsas sahələrinin xüsusi çəki dəyişmələri







Naxçıvan və Mingəçevir şəhərlərində dəyişmələr statistik əhəmiyyətli deyil.


SD sub-indeksi üzrə10 lider inzibati rayonda sahələrin xüsusi çəki dəyişmələri (2019, əvvəlki illə müqayisədə, faiz bəndi)
15
10
5
0
-5
-10
-15
9,26
-6,53
8,30
7,73
5,75
4,02
-5,38
7,70
-3,00
10,32
-4,87
6,99
2,06
-11,50
6,45
-9,47
Biləsuvar
Qəbələ
Göygöl
Babək
Kürdəmir
Qazax
Kəngərli
Xaçmaz
Oğuz
Salyan
Sənaye
Kənd təsərrüfatı
Tikinti
Xidmət


SD sub-indeksi üzrə 10 autsayder inzibati rayonda sahələrin xüsusi çəki dəyişmələri (son 9 yeri tutan Qarabağ rayonları nəzərə alınmadan, 2019, əvvəlki illə müqayisədə, faiz bəndi)
15
10
5
0
-5
-10
-15
11,21
-4,26
8,94
-10,73
-9,50
10,07
-6,86
12,26
-13,82
13,68
-9,08
8,68
-12,48
7,88
-8,20
İmişli
Füzuli
Samux
Yevlax
Qobustan
Naftalan
Cəlilabad
Daşkəsən
Bərdə
Xızı
Sənaye
Kənd təsərrüfatı
Tikinti
Xidmət

# Əsas kapitala investisiyalar




Orta göstərici, Qarabağ istisna olmaqla, qalan inzibati rayonlar üzrə hesablanmışdır. 2019-cu ildə Qarabağın əksər rayonlarına investisiya, təbii ki, qoyulmamışdır. O zaman qismən Azərbaycanın nəzarətində olan Ağdam və Cəbrayıl rayonlarında əsas kapitala investisiyalar statistik cəhətdən əhəmiyyətli deyil. Yeganə istisna Füzuli rayonudur (adambaşına 140 manat). Ona görə də Füzuli həm Diaqrama daxil edilmiş, həm də orta göstəricinin hesablanmasında nəzərə alınmışdır.


RİİDİ və əsas kapitala investisiyalar (RİİDİ üzrə reytinqdə 10 lider və 10 autsayder inzibati rayon, 2019)
49,7
49,2
48,7
46,8
45,5
44,7
44,7
44,6
43,7
43,4
32,4
32,0
31,8
31,6
31,3
30,7
30,2
28,8
28,5
27,1
938
977
896
753
743
1282
1382
549
819
846
260
587
932
932
2429
254
334
131
234
201
RİİDİ
İnvestisiyalar (adambaşına, manat)
0
5
10
15
20
25
30
35
40
45
50
0
500
1000
1500
2000
2500
3000
Kürdəmir
Biləsuvar
Babək
Qəbələ
Göygöl
Kəngərli
Hacıqabul
Xaçmaz
Göyçay
Qazax
Astara
Daşkəsən
Zərdab
Saatlı
Qobustan
Yevlax
Samux
Bərdə
Yardımlı
Cəlilabad
RİİDİ
İnvestisiyalar

# İqtisadi və inzibati rayonlara Dövlət büdcəsindən dotasiyalar




Dövlət büdcəsindən dotasiyalar iqtisadi rayonlara deyil, onların tərkibindəki inzibati rayonlara verilir. Diaqramdakı məlumatlar hər iqtisadi rayonun tərkibindəki inzibati rayonlara ayrılmış dotasiyaların cəminin Dövlət büdcəsindən inzibati rayonlara ayrılan dotasiyaların ümumi həcminə bölünməsi ilə hesablanmışdır. Tərkibindəki inzibati-ərazi vahidlərinin heç birinin Dövlət büdcəsindən dotasiya almadığı yeganə bölgə Quba-Xaçmaz iqtisadi rayonudur.

Naxçıvan MR xüsusi statusa malikdir. Ölkənin əsas ərazisindən aralıda yerləşməsi və yarımblokada vəziyyətində yaşaması səbəbindən Dövlət büdcəsindən Naxçıvana ayrılan yardımlar təkcə sosial-iqtisadi deyil, həm də siyasi məna kəsb edir. Ona görə də Muxtar Respublikaya ayrılan dotasiyalar ölkənin digər iqtisadi rayonlarına nisbətən dəfələrcə çoxdur: 2019-cu ildə Naxçıvan MR 300,3 mln. manat, qalan bütün bölgələr isə 104 mln. manat dotasiya almışdır. Naxçıvan MR-də isə, öz növbəsində, Şahbuz (1,24 mln. manat) və Sədərək (592 min manat) rayonlarına dotasiya verilmişdir.




2019-cu ildə ölkənin 30 inzibati rayonuna Dövlət büdcəsindən dotasiya ayrılmışdır. Qalan 37 rayon (inzibati rayonların yarıdan çoxu) dotasiya almamışdır. Birincilərin sayının ildən-ilə azalması, ikincilərinkinin isə, müvafiq olaraq, çoxalması olduqca müsbət iqtisadi prosesdir və nəticə etibarilə, hər inzibati-ərazi vahidinin "özünü dolandıra bilməsi" ilə nəticələnə bilər.

Dövlətin maliyyə yardımı olmadan keçinə bilməyən 30 rayonun 9-u Qarabağa aiddir. Qarabağın dotasiyasız yaşayan yeganə rayonu Qubadlıdır.

Dövlət büdcəsindən dotasiya alan rayonların 8-i Gəncə-Qazax, 4-ü Şəki-Zaqatala, 3-ü Lənkəran, 2-si Aran, 2-si Dağlıq Şirvan, 1-i Abşeron iqtisadi rayonuna daxildir.

Format: 70x100 $^{1}/_{16}$

6,75 ş.ç.v
Tiraj:200

***«ELM VƏ BİLİK»P.Z.***
***Kitab hazır diopozitivlərdən çap olunub***